**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT TURİZM AGENTLİYİ**

**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ**

MƏHƏRRƏM ZÜLFÜQARLI

# ÜMUMDÜNYA TARİXİ

## maraqlı faktlar, müqavilələr, qanunlar

*(dərsliklərə əlavə)*

*Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 31 may 2023-cü il tarixli iclasının qərarı ilə (pr. №07) nəşr olunur.*

**BAKI – 2023**

**Müəllif:** *t.ü.e.d., prof.* **Məhərrəm Zülfüqarlı**

**Elmi redaktor:** *f.e.d., prof.* **Asif Hacıyev**

**Rəyçi:** *AMEA-nın A.A.Bakıxanov adına*
*Tarix İnstitutunun baş direktoru,*
*Dövlət mükafatı laureatı,*
*t.ü.e.d., prof.* **Kərim Şükürov**

**Məhərrəm Zülfüqarlı. ÜMUMDÜNYA TARİXİ – maraqlı faktlar, müqavilələr, qanunlar.** ***Dərsliklərə əlavə.***
– Bakı: Mütərcim, 2023. – 112 s.

*Kitabda qədim dövrlərdən bu günə kimi dünyanın bir sıra dövlətlərinin tarixinə, o cümlədən Azərbaycan tarixinə aid dərsliklərdə olmayan maraqlı faktlar, hadisələr, hüquqi sənədlər öz əksini tapıb. Kitabda həmçinin insanları düşündürən maraqlı tarixi hadisələr, dərs zamanı tələbələrin yorğunluğunu aradan qaldırmaq üçün tarixə aid faktlara söykənən maraqlı lətifələrin yer alması onu daha da maraqlı edir. Dərsliklər gənc nəslin biliklərinin artırılmasında mühüm rol oynayır. Lakin hazırda dərsliklərlə yanaşı əlavə materiallara, köməkçi vəsaitlərə də ciddi ehtiyac var. Sizə təqdim olunan bu kitabın yazılmasına maraq məhz həmin ehtiyacdan yaranıb. Kitab ali təhsilin bakalavr, magistrant, doktorant pillələrində təhsil alanlar və geniş oxucu kütləsi üçün nərədə tutulub.*

$M\frac{4306020000}{026}165\text{-}23$

© M.Zülfüqarlı, 2023

## Mündəricat

ÖN SÖZ ..................................................................................................6

TARİX HAQQINDA MÜDRİK SÖZLƏR ...............................................8
TARİXİN GEDİŞİNİ DƏYİŞMİŞ ..........................................................21
HADİSƏLƏR VƏ İNSANLAR ...............................................................21
*Son min ildə tarixin gedişini və insanların düşüncəsini dəyişmiş 10 insan ..........................................................................................21*
*Azərbaycan tarixini dəyişən 13 hadisə ...............................................30*
DƏRSLİKLƏRDƏ OLMAYAN MARAQLI FAKTLAR, HADİSƏLƏR AZƏRBAYCAN TARİXİ ...................................................................31
*İstiqlal mücadiləsində varislik.............................................................31*
*44 günlük Vətən müharibəsində azad olunmuş ərazilər (27 sentyabr – 10 noyabr 2020-ci il) ..................................................32*
*Qafqaz İslam Ordusunun Azərbaycan uğrunda apardığı döyüşlər .....33*
*İşğalçı XI orduya qarşı Yalama döyüşü (26-27aprel 1920-ci il).........34*
*Azərbaycan diplomatiyasının Avropaya vasitəçiliyi...........................34*
*Azərbaycan Hülakülər (Elxanilər) dövlətində tatar-moğolların islamı qəbul etməsi .............................................................................36*
*Şəmsi Təbrizinin Allahın varlığını sübut etməsi ..................................38*
*Əmir Teymurun məmuru cəzanlandırması ..........................................39*
*Əmir Teymurun prisnsipləri ..................................................................39*
*Fizulinin hazırcavablığı.........................................................................40*
*Salyanın qəhrəman qadını .....................................................................41*
*Molla Pənah Vaqif necə Qarabağ xanın vəziri oldu? .........................43*
*Qarabağ xanının Çingiz xanın nəslindən olması haqqında məlumat ................................................................................44*
*Unudulmuş qəhrəmanlar: Abbas Mirzə ..............................................45*
*A.S.Qriboyedovun cinayəti və cəzası ...................................................48*
*Sumqayıt üsyanı (7 noyabr 1963-cü il).................................................52*
*Erməni mərkəzlərinin Sumqayıt təxribatı (27-29 fevral 1988-ci il) ....55*
*Topxanada nə baş vermişdi? .................................................................56*
*Ermənistana köməyə gedən 77 Azərbaycanlıya qarşı təxribat............59*
*Azıx mağarası ilə bağlı erməni saxtakarlığı..........................................59*

TÜRKİYƏ TARİXİ.......................................................................62
*Osmanlı İmperiyası* ...................................................................62
*Qaramanlıların hərbi taktikası*
*– "Qaramanın qoyunu, sonra çıxar oyunu"* .......................................62
*Sultan Mehmed Fatehin Dərvişə cavabı*...........................................62
*Fatehin Napolyondan üstünlüyü*....................................................63
*Kölnümü fəth etdiyi üçün*............................................................63
*Dövləti yıxan üç şey*....................................................................63
*Türk atının basdığı yerlər Türkiyəyə aiddir* .......................................64
*Ağqoyunluların müttəfiqinə Fateh Sultanın cavabı*...............................64
*Hökümdarların bir-birini aşağılayan hərəkətlərinə dair lətifələr*..........64
*Fateh Sultan Mehmetdən Uzun Həsənə hədiyyə*...................................64
*Yavuz Sultan Səlimin hədiyyəsi* ......................................................65
*II Səlimin Şah I Təhmasibin elçisinə cavabı*........................................65
*Osmanlı dövlətinə ən çox yardım edən*
*Hindistan müsəlmanları olub* .........................................................66
*Xınalı Əli* ...................................................................................66
*Çanaqqalada ilahi möcüzələr*..........................................................67
*Allah nə deyirsə o olur* .................................................................67
*Çanaqqala "Dəniz savaşı"*..............................................................68
*215 kilo ağrılığında mərmini qaldıran qəhrəman*..................................69
*Ermənilərin təhriki ilə – 15 min türk əsirin kor edilməsi* .......................70
*Atatürkün ingilis ataşesinə cavabı*...................................................71
*Ahmet Necip Fazıl Kısakürekdən məntiqli cavab*..................................71
*Tarixi dəyişdirən meymun* .............................................................72
ŞİMALİ QAFQAZ TARİXİ.................................................................73
*Qafqaz Qartalının rus çarına cavabı* .................................................73
*Şeyx Şamillə II Aleksandrın dialoqu*.................................................73
*Kilsədəki əşyaların məhşərdə şahidlik etməsi* .....................................73
RUSİYA TARİXİ...............................................................................74
*Rusiyanın Alyaskanı ABŞ-a satması*..................................................74
*Yuri Qaqarinin kosmosda geydiyi paltarın ABŞ-a satılması*...................74
QƏDİM DÜNYA TARİXİ.....................................................................76
*Oğuz xanın nəsihətləri*...................................................................76
*Çin səddi haqqında maraqlı faktlar* .................................................76
*Roma imperatoru Neronun sidik vergisi* ............................................77

*Makedoniyalı İsgəndərin son üç istəyi* ........ 78
*Pulun əmələ gəlməsi tarixindən* ........ 78
*Nərdi icad edən – Vəzir Buzur Mehir* ........ 81
*Sasani hökümdarı Ərdəşir Babəkana məsləhət* ........ 82
ÜMUMİ TARİX ........ 83
*Orta əsrlər Avropasında natəmizliyə aid faktlar* ........ 83
*İngilislərin may ayında toy etməmələrinin səbəbi* ........ 83
*İngiltərədə Al (Qırmızı) və Ağ qızılgül müharibələri* ........ 83
*Napolyon Bonapartın müəllimə verdiyi qiymət* ........ 84
*II Dünya müharibəsində hərbi əsirlərə qarşı qanlı cinayət – Gorelli qırğını* ........ 84
*Marşal planı* ........ 85
*Srebrenitsa soyqırımı* ........ 85
MÜQAVİLƏLƏR, QANUNLAR ........ 86
*Mudros müqaviləsi* ........ 86
*Ağstafa müqaviləsi (12 iyun 1920-ci il)* ........ 89
QANUNLAR ........ 91
*Hammurapi qanunu* ........ 91
*Aquen qanunları* ........ 92
*Çingiz xanın Yasası (Qanunu)* ........ 97
*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin tam mətni:* ........ 102

İSİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........ 110

# ÖN SÖZ

Bəşər tarixi müxtəlif hadisələrlə zəngindir. Çoxlu sayda müharibələr, işğalar və bunların nəticəsi olaraq əhalinin kütləvi şəkildə köçürülməsi, inqilablar, formasiyaların bir-birini əvəz etməsi və s. hadisələr haqqında cildlərlə kitablar yazılsa da insanları qane etmir. Ona görə də müxtəlif hadisələr haqqında daim araşdırmalar davam edir, yeni-yeni faktlar ortaya çıxarılır və bu proses fasiləsiz davam edir. İnsanlar tarixdə baş verən hadisələri olduğu kimi, obyektiv şəkildə araşdırılmasını arzu edirlər. Lakin tarix elmi siyasi elm olduğundan müxtəlif hökümdarların, rejimlərin, ideologiyaların və digər subyektiv amillərin təsiri ilə çox zaman saxtalaşmaya məruz qalaraq obyektivlikdən uzaq bir şəkildə insanlara təqdim olunub.

Digər xalqların tarixi kimi Azərbaycan xalqının da tarixi müxtəlif yadelli qüvvələrin, xüsusilə də çar Rusiyası və sovet dövlətinin diqtəsi ilə saxtalaşırılmışdır. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixin saxtalaşdırılmasını aradan qaldırmaq, tarixi ağ və qara ləkələrdən təmizləmək üçün çoxlu sayda elmi əsərlər, dərsliklər yazılmışdır. Dərsliklər gənc nəslin biliklərininin artırılmasında, təhsilin inkişafında mühüm rol oynasalar da fikrimizcə tədrisdə yalnız rəsmi şəkildə qəbul edilmiş dərsliklərlə kifayətlənmək olmaz. Ona görə də tədris prosesində alternativ dərsliklərin hazırlanmasına ciddi ehtiyac var. Siz təqdim olunan bu kitab da həmin zərurətdən yaranıb. Kitabda verilən fikirlərin, hadisələrin, müqavilə və qanunların mütləq əksəriyyəti dərsliklərdə olmadığından bunu dərsliklərə əlavə, köməkçi dərs vəsaiti də hesab etmək olar. Kitabda həmçinin insanları düşündürən maraqlı tarixi hadisələr, dərs zamanı tələbələrin yorğunluğunu aradan qaldırmaq üçün tarixə aid faktlara söykənən maraqlı lətifələrin olması fikrimizcə onu daha da oxunaqlı edir.

Bir sıra inkişaf etmiş ölkələrdə, o cümlədən qardaş Türkiyədə bu cür kitablar çoxluq təşkil etsə də təəssüf ki, Azərbaycanda bu sahəyə hələlik lazımi diqqət verilmir. Qardaş Türkiyə tarixçilərinin

əsərlərindən örnək götürərək kitabın adını “Dünya tarixindən maraqlı hekayələr və anekdodlar”, “Tarixi anekdodlar” və ya “Tarixi lətifələr” qoysaydıq, yəqin ki, bu adda kitabı Azərbaycan oxucusu ciddi qəbul etməzdi. Bu adlar rəsmi ədəbiyyatdan fəqli olaraq maraqlı və əyləncəli olduğu üçün oxucuları daha çox cəlb edə bilsə də, ölkəmizdə ictimai şüur rəsmi dərsliklərə köklənidiyindən fikrimizcə hələlik qəbul edilməsi çətindir. İnanırıq ki, yaxın gələcəkdə bu sahədə ciddi irəlləyişlər əldə olunacaq. Fikrimizcə rəsmi dərsliklərlə yanaşı nə qədər çox alternativ, köməkçi ədəbiyyat işıq üzü görərsə bunun insanların dünyagörüşünün inkişafına, elmi səviyyəsinin yüksəlməsinə yalnız xeyri ola bilər.

"Tarix yazmaq, tarix yaratmaq qədər önəmlidir. Yazan yaradana sadiq qalmazsa, dəyişməyən gerçək bəşəriyyəti çaşdıracaq bir xarakter alar..."

"Hürriyyət olmayan bir ölkədə ölüm və çöküntü vardır. Hər tərəqqinin və qurtuluşun anası hüriyyətdir."

"Azadlığı və həyatı uğrunda ölümü göz önünə alan millət heç zaman yenilməz"

"Nə mutlu Türkəm deyənə!"

*Mustafa Kamal Atatürk [26, 27]*

*****

"Azərbaycanın XX əsr tarixi yazılmalıdır… XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur."

*Heydər Əliyev [2.1, s.36]*

Tarix – həyatın müəllimidir.

Tarixi bilməmək – hər zaman uşaq olmaq deməkdir.

*Mark Tullius Siseron*

*****

Tarixçilər müştərilərini yalnız ölümündən sonra müdafiə edən hüquqşünaslardır.

*G.Maksmillan*

*****

Tarix həqiqətin sərhədlərini aşmamalıdır, dürüst əməllər üçün yalnız bir həqiqət kifayətdir.

Tarix ciddi həqiqəti təsbit etmək üçün yazılmışdır.

*Kiçik Pliny*

*****

Tarix nədir? Gələcəkdə keçmişin əks-sədası. Gələcəyin keçmişə atdığı düşüncələr.

*Victor Marie Huqo*

*****

Tarix xalqlara heç vaxt heç nə öyrətmədiyini öyrədir.

*Fridrik Hegel*

*****

Tarixin bizə verə biləcəyi ən yaxşı şey, yaradıcılıq həvəsidir.

*İ.Göte*

*****

Tarix sübut edir ki, yenilməz ordu yoxdur.

*İosif Vasirionoviç Stalin*

*****

Müharibə əsasən səhvlərin bir kataloqudur.

Tarixin əsas dərsi bəşəriyyətin öyrədilməz olmasıdır.

*U.Çörçil*

*****

Tarix inanılan bir roman, roman inanılmayan bir tarixdir.

*M.Safir*

*****

Tarixçi müstəntiq deyil, müşahidəçidir.

Tarixdə daha çox faktlar öyrənirik və hadisələrin mənasını daha az başa düşürük.

Tarix heç bir şey öyrətmir, ancaq dərsləri bilməməyə görə cəzalandırır.

Dünya tarixi böyük insanların bioqrafiyasıdır.

Ağıllı məsələdə hər filosof məna tapa bilər. Cəfəngiyyatda da bir məna tapmaq lazımdır: bu tarixçinin xoşagəlməz vəzifəsidir

*V. Klyuchevsky*

*****

Özünün tarixindəki dəyərlərini qonşularının gözü ilə qəbul edən xalq yaşamağa qadir deyil.

Tarix, özü də həyatın xidmətində olduğu üçün qeyri tarixi bir hakimiyyətə tabedir və bu səbəbdən belə bir tabeçilik baxımından, tarix məsələn, riyaziyyat kimi saf bir elm ola bilmir.

*F.Nitşe*

*****

Tarixin yanında siyasət zarafatdan başqa bir şey deyil.

*S.Dali*

*****

Tarix ölü, diri və doğulmamışlar arasında bir birlikdir.

*E.Burke*

*****

Tarixin hər bir səhifəsi bütöv bir cild məntiqə dəyər.

*O.Holmes*

*****

Tarixi həqiqət ölülərin susqunluğundan ibarətdir.

*E.Rey*

*****

Tarix az orjinalı və çox surəti olan bir sənət qalereyasıdır.

*A.Tocqueville*

*****

Tarix əməllərimizin xəzinəsidir, keçmişə şahiddir, bu gün üçün nümunə və ibrətdir, gələcək üçün xəbərdarlıqdır.

*M.Saavedra*

*****

Tarixçinin istedadı yalnız yarısı doğru olan hissələrdən bütöv bir doğru yaratmaqdır.

*J.Renan*

*****

Dünya tarixi dünya məhkəməsidir

*I.Schiller*

*****

Hekayə nə qədər az həqiqətdirsə, bir o qədər ləzzətli olur.

*F.Bekon*

*****

Rusiyanın tarixi cəhalət və haqsızlıq arasındakı bir mübarizədir.

*M.Zhvanetsky*

*****

Rusiya tarixi Böyük Pyotrdan əvvəl başdan-başa bir anım, yas mərasimi, Böyük Pyotrdan sonra isə – bir cinayət işidir.

*F.Tyutçev*

*****

Hər bir insan onunla doğulan və onunla birlikdə ölən bir dünyadır; hər məzar daşının altında dünya tarixi yatır.

*G.Heine*

*****

Hər bir xalqın tarixində əgər onlar həqiqətdirsə, möhtəşəm olacaq bir çox səhifələr var.

*D.Diderot*

*****

Dünya tarixi böyük insanların bioqrafiyasıdır.

*T.Carlyle*

*****

İnqilablar tarixin lokomotivləridir.

*K.Marks*

*****

Tarixdə ... heç bir şey şüurlu niyyət olmadan, arzu edilən məqsəd olmadan edilmir.

*F.Engels*

*****

Dünya tarixi, qarşısını almaq mümkün olanların cəmidir.

*B.Russell*

*****

Müasir tarixin ən vacib gerçəyi Şimali Amerikanın ingilis dilində danışmasıdır.

*Otto von Bismark*

*****

İnsanların tarixin səhvlərindən dərs almamaları tarixin ən vacib dərsidir.

*O.Huxley*

*****

Hər kəs tarix yarada bilər, ancaq onu yalnız böyük insanlar yaza bilər.

*O.Uilde*

*****

Günəş indi də Xilaskar Məsihin zühurundan əvvəl mövcud olan qanunlara görə işıq saçır: buna görə mülki cəmiyyətlər nizamnamələrini dəyişdirmədilər; hər şey yer üzündə olduğu kimi qaldı və başqa cür ola bilməz.

Fransız inqilabı, insanların gələcək əsrlər boyu taleyini təyin edən hadisələrdən biridir. Yeni bir dövr başlayır: görürəm.

Müəllif olmaq istəyirsinizsə bəşər övladının bədbəxtliklərinin tarixini araşdırın – Əgər ürəyiniz yanmırsa, qələmi yerə qoyun, yoxsa qələm ruhunuzun soyuq qaranlığını bizə təsvir edəcəkdir.

Mükəmməl ağıllı insanlar tarixin əsl qəhrəmanlarıdır.

*Nikolay Mixayloviç Karamzin*

*****

Tarixdə heç vaxt dinc iqtisadi fəaliyyətlə vahid bir dövlət yaradılmamışdır.

İnsanı indiyə qədər sarsıdan ən ağır zərbə Xristianlığın gəlişi olub. Bolşevizm xristianlığın bic uşağıdır.

*Adolf Hitler*

*****

Xristianlar üçün tarix Vəhydən başlayır. Marksistlər üçün bu, onlarla başa çatır. İki din.

*Albert Camus*

*****

İnsanı heyvandan fərqləndirən ən güclü xüsusiyyət əxlaqi hiss və ya vicdandır.

*Charles Robert Darwin*

*****

Təhkimçiliyin aşağıdan öz-özünə ləğv edilməsinin başlanmasını gözləməkdənsə, yuxarıdan ləğv edilməsi yaxşıdır.

*Rusiya çarı II Aleksandr*

*****

Keçmişi dindirib, sorğu-suala çəkirik ki, bizə bu günümüzü izah etsin və gələcəyimizə dair göstərişlər versin.

*Vissarion Grigorievich Belinsky*

*****

İnsan əməyi və yaradıcılığı tarixi bəşər tarixindən daha maraqlı və əlamətdardır – insan yüz illər ömür sürmədən ölür və işi əsrlər boyu yaşayır.

*Maksim Qorki*

*****

Tarixi dəyişdirmək mümkün deyil, ancaq yenidən yazmaq çox asandır.

Qalib gələnlər tarix yazırlar. Məğlub olanlar mübahisə edirlər. Sadəlövhlər öyrənirlər. Nəticədə heç kim həqiqəti bilmir.

*Dmitri Kalinin*

*****

Siyasətçilər parlaq gələcəklə, tarixçilər parlaq keçmişlə, jurnalistlər parlaq hazırki dövrlə qayğılanırlar.

*J.Petan [36]*

*****

Məmləkətdən ümidinizi kəsmək istəmirsinizə, böyük adamları yaxından tanımayın.

*Mehmet Akif Ərsoy* [*25, s.195*]

*****

Nazirlik gec gələnlərlə, tez gedənlərin qarşılaşdığı yerdir.

*Klimanso* [*25, s.167*]

*****

Məsələ tarixi həqiqətlərə aid olduqda onu əxlaq kimi təqdim etmək – ən böyük yanlışlıqdır.

*D.Diderot*

*****

Kim təkrar olunmazlıqdan çox danışarsa, tarixdən az şey bilir.
Qalib gələnlər və məğlublar tarixdən fərqli dərslər alırlar.

*Vilhelm Schvebel*

*****

Tarixi ləyaqətlə, obyektiv yazmaq üçün dini inancını, vətən, partiya təəssübkeşliyini unutmalısan.

*Pierre Bouast*

*****

Yaxşı yazılmış tarix roman, tarix kurslarından daha qiymətlidir.

*Honore de Balzac*

*****

Nə isə olanın tarixi – nəyinsə olmuşun və nəyinsə olacağın tarixidir.

*J.Bernardin*

*****

Tarixin təkrarlanması onun mənfi cəhətlərindən biridir.

*K.Darroy*

*****

Tarix qarşısında yeganə borcumuz onu daim yenidən yazmaqdır.

*Oskar Ualyd*

*****

Tarix olmuş bir romandır, roman isə ola biləcək bir tarixdir.

*Qonku*

*****

Tarix öyrədir ki, bütün insanlar və bütün xalqlar istisnasız olaraq bütün digər alternativləri sınaqdan keçirdikdən sonra ağıla üstünlük vermişlər.

*Abba Hətta*

*****

Tarix təkrarlamağı sevir.

*Fuikid*

*****

Tarix qarşısında məsuliyyət, insanı insanlar qarşısında məsuliyyətdən azad edir. Onun rahatlığı bundadır

*A.Kamyu*

*****

İnkişaf fikrindən məhrum olan bəşər tarixi, yalnız mənasız hadisələrin ardıcıllığını...təmsil edir.

*L.Mechnikov*

*****

İnsanın nə olduğunu yalnız tarixdən öyrənmək olar.

*V.Dilthey*

*****

Əxlaq tarixin ruhudur.

*J.Joubert*

*****

Qüsuru olmayan insanlar çox az ləyaqətə malik olurlar.

Tarixə əfsanələr, ümidsiz qəhrəmanlıqlar və nəcib nümunələr, atəşli çıxışlar, cəsur qəhrəmanlar və böyük qələbələr lazımdır, qalib

gələnlər xəyanəti və qorxaqlığı, riyakarlığı və qanı unudur, həqiqət həqiqət olaraq qalır, yalan isə tarixə çevrilir.

Xalqın bir hissəsini hər zaman, bütün xalqı bir müddət aldatmaq olar, ancaq bütün xalqı hər zaman aldatmaq olmaz.

İnsanların çoxu nə qədər xoşbəxt olmaq üçün qərar veriblərsə, o qədər xoşbəxtdirlər

*Avraam Linkoln [36]*

*****

Tarixini unudan xalqın tarixi təkrar olunur.

*****

Tarix orginalı az, lakin surəti çox olan bir sənət qalereyasıdır.

*****

Tarix millətin tarlasıdır. Hər millət gələcəkdə bu tarlada nə əksə, onu da biçəcəkdir.

*****

Tarixini bilməyən millət, kompası anlamayan kapitan kimidir.

*****

Tarix yaradanlar çox vaxt eyni zamanda onu saxtalaşdırırlar.

*****

Tarix heç bir şey öyrətmir, ancaq dərsləri bilməməyinə görə cəzalandırır.

*****

Tarix səhifəsi bütöv bir məntiqə dəyər.

*****

Ruha əsaslanan və öz misiyasında sönməyən inamdan ilham alan kiçik bir bədən tarixin gedişatını dəyişdirə bilər.

*Mahatma Qandi*

*****

İnsanlar tarixin gedişatının bir insanın iradəsi ilə dəyişə biləcəyini çox tez unudurlar.

*Corc Bernad Şou [36]*

# TARİXİN GEDİŞİNİ DƏYİŞMİŞ HADİSƏLƏR VƏ İNSANLAR

### *Son min ildə tarixin gedişini və insanların düşüncəsini dəyişmiş 10 insan*

1. **Çingiz Xan (1155-1227)** – Tatar-monqolların hökmdarı XIII əsrdə Yapon dənizindən Qara dənizə qədər Avrasiyanın geniş ərazilərini fəth edərək, tarixin ən böyük imperiyasını yaratdı. Çingiz xanın 1206-cı ildə Qaraqorum (bu şəhərin adı da türk mənşəlidir) qurultayında Ali xaqanlığın rəhbəri təyin olunandan sonra 38 milyon kv. km ərazini, başqa sözlə yer kürəsinin quru hissəsinin1/4 -ni və əhalisinin isə 1/3-ni, təqribən 160 milyon nəfəri əhatə edən böyük bir dövlət yaratmış, böyük ərazilər fəth etmişdir. Hərbi qüvvələrinin mütləq əksəriyyətini monqol deyil, türk tayfaları təşkil etmiş, onların hamsı ümumi olaraq "Tatar" adlandırılmışdır. Böyük monqol imperiyasını isə Çıngiz xan "Yeke Ulus", "Yeke dövlət" adlandırırdı. ( 17, s.5) Dövlətin idarəsi üçün "Böyük yasa" (yasaq sözündən əmələ gəlib) və ya " Çingiz xanın Yasası" adlananan Qanun hazırlamışdı. (bax: kitabın Qanunlar bölümünə)

Çingiz xan bu böyük mənsəbə yüksəlincə çox çətinliklər, əziyyət görmüşdür. Lakin onda olan mübarizlik ruhu daim köməyinə çatmışdır. Bir dəfə döyüşlərin birində məğluniyyətə uğradıqdan sonra ümidsiz halda bir komada düşmən əsgərlərindən gizlənirmiş. Bu zaman bir qarğıdalı dənəsini dik bir divarın digər tərəfinə aparan qarışqanın hərəkəti Cingiz xanın diqqətini özünə cəlb etdi. Qarğıdalı dənəsi qarışqadan böyük olduğundan 69 dəfə aparmağa çalışmış, lakin geriyə düşmüşdür. Yalnız yetmişinci dəfə nəhayət qarğıdalı dənəsini təpədən digər tərəfə apara bilmişdir. Bunları seyr etdikdən sonra Çingiz xanın mübarizə ruhu güclənmiş, bağıraraq ayağa qalxıb, gücünü toplayaraq qalib gəlmişdir. Nəticədə böyük imperiyanı yarada bilmişdir. [26, s.57]

2. **Martin Lüter (1483-1546)** – 1510-cu ildə xristianlığın katolik məhzəbini qəbul edib. Dini araşdırmalar nəticəsində Martin Lüter 1517-ci ildə nəşr etdirdiyi 95 tezis və "Hausburq İnam Etirafı" kitabı katolikliyə az qala ölümcül zərbə vurdu. Bunların nəticəsində "Azad" Avropa Xristianlığı (Protestantizm) meydana gəldi. M.Lüter şəxsi inancın insan qurtuluşunun təməl daşı kimi tanınmasını irəli sürdü. O bir insanın iradə, inam və zəhmət bəxş etdiyi təqdirdə nələr edə biləcəyini göstərdi.

3. **Papa Qriqori VII (təxminən 1021-1085)** – Dünyəvi aristokratiyanın müqavimətini dəf edərək kilsəni imperatorların hakimiyyətindən xilas etdi. O, Roma hakimiyyəti altında dünya miqyasında teokratik monarxiya yaratdı. O, 1077-ci ilin qışnda İmperator IV Henrini kilsədən qovdu. Onun dövründə xristianlıq Pravoslav və Katolik məhzəblərinə bölündü. VII Qriqori tərəfindən ifadə edilən kilsə quruluşunun prinsipləri Roma Katolik kilsəsinin əsasını təşkil etmiş və bu gün də müəyyən edir. 1085-ci ildə həyatının sonunda Salernoya getdi və ölümündən əvvəl dedi: "Ömrüm boyu həqiqəti sevdim və sürgündə ölməkdə olduğum qanunsuzluğa nifrət etdim."

4. **Janna Dark (1412-1431)** – Onun doğulduğu 1412-ci il, Fransa ilə İngiltərə arasında yüz illik müharibənin getdiyi dövrə düşür. 1420-ci ildə İngiltərə Normandiyaya hücum edəndə Fransa Kralı VII Çarlz taxt varisinin ingilis olmasını qəbul etməyə məcbur olur. Bundan sonra onun doğulduğu Domremy kəndi də daxil olmaqla şimali Fransanın əhəmiyyətli bir hissəsi ingilislər tərəfindən işğal edilir. Janna 13 yaşına çatanda müqəddəs Mixael, Katerin və Margareti yuxularında gördüyünü söyləməyə başlayır. Zaman keçdikcə bu yuxuların sayı artır. Ona vəh gəldiyini iddia etməsi əhali arasında nüfuzunu artırır.Yuxularında iddia etdiyi müqəddəslər Jannanı ingilislərə qarşı silahlanmağa çağırırdılar. Kralın ingilislərə qarşı savaşa girə biləcək güclü bir ordu təşkil etməsi üçün nə ərzağı, nə də silah-sursatı var idi. Belə bir vəziyyətdə özünü Janna Dark kimi təqdim edən cavan bir qızdan krala məktub gəlir. Məktubda yazılmışdı: "Mən Tanrının elçisi Janna Darkam. Siz mənə (mənim rəhbərliyim altına) bir ordu verin, mən də sizə Fransanı verim".

Bundan sonra Janna kişi paltarı geyinərək kralın yanına gəlir. Kral Jannanın bu istəyinə qarşılıq verərək ona ordunun komandanlığının tapşırılması barədə əmr verir. Qısa bir müddətdə minlərlə fransız Jannanın rəhbərliyi altında düşmənlə döyüşməyə hazır olduqlarını bildirdilər. Bir il ərzində Jannanın rəhbərliyi altında fransız ordusu düşmən əlində olan Orleanı, Patayı, Truanı və digər şəhərləri azad etdilər. 1429-cu il iyul ayının 16-da Jannanın başçılıq etdiyi ordu Reymsi də azad etdi. Bundan sonra Janna daha bir neçə uğur qazanır. Lakin 1430-cu ildə Janna Compiègne qəsəbəsi yaxınlığındaki döyüşdə məğlub olur və Buruqundiya qoşunları tərəfindən tutulur. Burqundiya hersoqu Jannanı 10 min avroya ingilislərə təslim edir. Janna ingilis məhkəməsində mühakimə olunur, cadugərlik, kişi geyimləri geyinmək kimi 70 fərqli cinayətdə günahlandırılır. Bu vaxt Fransa kralı VII Çarlz Jannanı xilas etmək üçün heç bir cəhd göstərmir. 1431-ci il mayın 30-da, səhər saatlarında 19 yaşında olan Janna Rouen bölgəsinə aparılır və diri-diri yandırılır.1456-cı ildə Kral VII Çarlz göstərişi ilə keçirilən məhkəmə Jannanın günahsız olması haqqında hököm çıxarır. Əsrlər boyu Fransa qəhrəmanı sayıldığı halda, kilsə Janna Darkı yalnız 1920-ci ildə müqəddəslər sırasına daxil edib. 1979-cu ildən etibarən isə Fransa hökuməti hər il may ayında "Janna Dark günü"nün qeyd edilməsi barədə qərar qəbul edib.

5. **Oliver Kromvell (1599-1658)** – varlı Puritan ailəsindən dünyaya gəlib. Babalarından biri, islahat lideri Thomas Kromvell edam edilmişdi. İngiltərə burjua inqilabının görkəmli xadimi, siyasi fəaliyyətə 1628-1629-cu illərdə parlamentdə başlamış, 1640-cı ildə parlamentə nümayəndə seçilmiş və müxalifət liderlərindən birinə çevrilmişdi. 1643-cü ildə parlament ilə kral arasındakı ziddiyyət həlledici mərhələyə keçəndə, Kromvel görüşlərdən imtina etdi və hərbi dəstələr yaratmağa başladı. Ordunu silahlandırmaq üçün əmisinin maliyyə imkanlarından istifadə etdi. O, bütün maliyyə və kadr məsələlərini idarə edir, kasıbları orduya qəbul edir, mənşəyinə görə yox, şücaətinə görə zabit rütbələri verirdi. Böyük istedada malik olan Kromvel birinci və ikinci vətəndaş müharibəsi zamanı kral ordusu üzərində qələbə çalan parlament ordusuna rəhbərlik etmişdir.

O, kral tərəfdarlarını parlamentdən qovaraq kralın edam olunmasına və müstəqil respublikasının elan olunmasına imkan yaratmışdır. Bu Avropa tarixində bir dönüş nöqtəsi olmuşdu. İlk dəfə olaraq kral xalqa qarşı cinayətdə, vətəndaş müharibəsini qızışdırmaqda günahkar elan olundu. Onun edamı dünyanı və taxtları silkələdi. Kromvel sərt bir dini fanat olaraq dəbdəbəli həyat tərzini qadağan etmiş, teatrları bağlamış və ictimai əyləncələri ləğv etdirmişdi. 1650-ci ildə Kromvel bütün silahlı qüvvələrin ali baş komandanı təyin edilərək lord-general rütbəsinə layiq görülmüşdür. O, İngiltərədə baş verən bir sıra hərəkatları, 1649-cu ildə irlandiyalıların üsyanını yatırdı. 1649-cu ildə bütün İrlandiyanı, 1652-ci ildə isə Şotlandiyanı işğal edərək, 1653-cü ildə "azad İngiltərə, Şotlandiya və İrlandiya dövlətlərinin lord-protektoru" elan olundu. Bununla da hərbi diktatura, protektorluq rejimi yarandı, respublikaya və inqilaba son qoyuldu.

6. **I Vladimir Svyatoslaviç (960-15 iyul 1015)** – 970-ci ildə atası I Yarapolkun ölümündən sonra Novqorod knyazlı olub. 978-ci ildə Kiyev taxtını ələ keçirib. 988-ci ildə Xristianlıqı Kiyev Knyazlığının dövlət dini elan edib. Bundan sonra Müqəddəs Vladimir təxəllüsünü alıb.

7. **İperator I Pyotr (1672-1725)** – I Pyotr və ya Pyotr Alekseyeviç Romanov 7 may 1682-ci ildə qardaşı V İvanla birlikdə hakimiyyətə gəlmiş, 1696-cı ildə qardaşının vəfatından sonra taxta çıxıb. Apardığı müharibələrlə Rusiyanın ərazisini genişləndirib, Azov və Baltik dənizi sahillərindəki limanları ələ keçirib, Rusiyanı güclü dövlətə çevirə bilib. Azərbaycan torpaqlarına ermənilərin geniş miqyaslı köçürülməsinin əsası da I Pyotr tərəfindən qoyulub. Mədəni cəhətdən geri qalmış Rusiyada zorakı metodlarla mədəni, elmi və sosial islahatlar aparıb. Baltik dənizində Avropaya pəncərə hesab olunan Sank-Peterburq şəhərinin əsasını qoyub. 1697-ci ilin yayında biliklərini və davranışlarını artırmaq üçün bir il davam edən Avropa turuna çıxaraq ölkəyə aşağıdaki yenilikləri gətirib:

- Geyimdə Avropa modası – Pyotrun ən məşhur islahatlarından biri "boyar" adlanan rus zadəganlarını avropalılar kimi geyinməyə və saqqallarını qırxmağa məcbur etmək idi. Çarın iclaslar və

toplantılar zamanı şəxsən bəzi boyarların saqqallarını kəsdiyi barədə fikirlər geniş yayılıb.

• Müasir təqvim – 1700-cü ilə qədər Rusiya Bizansdan gətirilmiş təqvim sistemindən istifadə edirdi və yeni il 1 martda başlayırdı. Pyotr Avropa ölkələri ilə bu fərqi absurd hesab etdi və Yeni il gününü 1 martdan – 1 yanvara, ili isə 7207-ci ildən 1700-ci ilə dəyişdirdi.

• Media – Rusiyada ilk qəzet Pyotrun dövründə 1703-cü ildə çıxmışdı. Holland mətbuatının təsiri altında çar xalqının ətrafdakı hadisələri bilmələrinin vacib olduğunu başa düşdü. Vedomosti (Siyahılar) adlanan ilk qəzet 2-7 səhifə arasında çap olunurdu.

• Siyahıyaalma – Davam edən İsveç və Osmanlı müharibələri, Peterburqun inşası Rusiya xəzinəsinə böyük zərbə vurudu. Vəziyyətdən çıxmaq üçün çar maliyyə sistemində islahatlar aparmaq qərarına gəldi. Vergi sistemini dəyişdirərək hər adamın dövlətə 70 qəpik ödəməsini irəli sürdü. Ancaq bunu effektiv şəkildə həyata keçirmək üçün əhalinin sayı dəqiq bilinməli idi. Beləliklə, Pyotr Rus tarixində ilk siyahıyaalmanı həyata keçirdi. Siyahıya alınma nəticəsində 1715-ci ildə Rusiya ərazisində 12 milyon insan yaşadığı məlum oldu.

• Yeni qida məhsulları – Rusiyada bu gün ən çox istehlak edilən qida məhsullarından biri günəbaxan yağındakı qızardılmış kartofdur. XVI əsrdə Amerikadan Avropaya gətirilən bu məhsulları, iki əsr sonra I Pyotr Rusiyaya gətirməyə nail oldu. İlk əvvələr kartofu necə istehlak edəcəyini bilməyən rus kəndliləri, tez-tez bu məhsulun yarpaqlarını yeyərək zəhərlənirdilər. Bu səbəbdən kəndlilər kartofa "şeytan alması" adı vermişdilər. XIX əsrdə kartof artıq Rus xalqının "ikinci çörəyi" oldu.

8. **Napoleon Bonapart (1769-1821)** – Fransanın dövlət xadimi və hərbi lider, ömürlük konsulu, daha sonra imparatoru. 1769-cu ildə Korsika adasındakı Ajaccio şəhərində yoxsul bir Korsika zadəganının ailəsində anadan olub.1784-cü ildə Napoleon Brienne hərbi məktəbini bitirib Paris hərbi məktəbinə keçdi (1784-1785).1785-ci ilin oktyabrında kiçik topçu leytenant rütbəsi ilə xidmətə başladı. Xidmət müddətində Napoleon hərbi sənətinə aid çoxlu kitablar oxuyub.1792-ci ildə Yakobin Klubuna qatıldı. Növbəti on il ərzində

Korsikada karyera qurdu. 1793-cü ildə Korsikalı separatçılarla qarşıdurma nəticəsində Korsikadan qaçdı və həmin ildə Toulonda ingilislərə qarşı döyüşdə fərqləndi və briqada generalı rütbəsinə layiq görüldü. 1795-ci ilin 5 oktyabrında monarxiya tərəfdarlarının üsyanının yatırılması üçün Paris qarnizonuna əmr verdi. 1796-1797-ci illərdə İtaliyadakı Fransız qoşunlarının baş komandanı oldu. İtalya kampaniyası Napoleonun hərbi karyerasının zirvələrindən biri idi. 15 May 1797-ci ildə Napoleon, Avstriyanı fəth və İtalyanı azad edərək Milana girdi. Napoleon 1797-ci ilin fevralında Papa VI Pius ilə Fransa üçün çox faydalı bir barış müqaviləsi imzaladı. 1798-1799-cu illərdə Misir və Suriyada bir ekspedisiyaya rəhbərlik etdi. İskəndəriyyəni işğal etdi, Qahirəni tutdu. Misir bir Fransız protektoratına çevrildi. O, 1799-cu ilin noyabrında (VIII il 18-19 Brumaire) bir çevriliş edərək gücü konsul hakimiyyətini yaratdı. 10 illik bir müddətə ilk konsul seçilməklə bütün hakimiyyəti əlində cəmləşdirdi. 1802-ci ildən Napoleon varisini təyin etmək hüququ ilə ömürlük konsul oldu. 1801-ci ildə inqilab zamanı itirilən Katolik Kilsəsinin hüquqları bərpa edildi. Bununla da Katolik Kilsəsinin dəstəyini əldə etdi. 1804-cü ilin fevralında Napoleona qarşı təşkil olunmuş bir suiqəsdin üstü açıldı. Napoleon bundan istifadə edərək hakimiyyətini gücləndirdi və Fransa imperatoru elan edildi. Papa VII Pius 1-2 dekabr 1804-cü ildə möhtəşəm tacqoyma mərasimi üçün Parisə gəldi. Bundan sonra mülki, ticarət və cinayət məcəllələri hazırlandı. Mülki məcəllə onun şəxsi səlahiyyətini təmin etdi. İdarəetmə aparatının ciddi bir mərkəzləşdirilməsi tətbiq olundu. Qızıl ehtiyatı və kağız pulu saxlamaq üçün 1800-cü ildə dövlət Fransız bankı yaradıldı. Vergi toplama sistemi də mərkəzləşdirildi. Orta məktəblər sistemi və ali təhsil müəssisələri sistemi yaradıldı. Gizli xidmət də daxil olmaqla geniş bir polis sistemi bərqərar oldu. Parisdə nəşr olunan 173 qəzetindən 160-ı bağlandı, qalanları hökumətin nəzarətinə keçirildi. 1805-ci ildə I Napoleon, İtalya kralı olarak tanındı. Həmin ildə Avstriya, Rusiya, İngiltərə və s. dövlətlərin daxil olduğu koalisiya orduları üzərində zəfərlər qazandı. 1807-ci ildə Rus qoşunlarını məğlub etdi və Rusiyanı Tilzit sülhünü bağlamağa məcbur etdi.

Bundan başqa Almaniyanı da özünə tabe etdi. Napoleon imperiyanın ərazisini xeyli genişləndirdi, Qərbi və Mərkgəzi Avropa dövlətlərinin əksəriyyətini Fransadan asılı vəziyyətə düşdü. 1812-ci ildə Napoleon Rusiyaya qarşı müharibəyə başladı və məğlub olaraq geri çəkildi. Bundan sonra 1813-ilin oktyabrında Leipsiq döyüşündə koalisiya qüvvələri tərəfindən məğlubiyyətə uğraması, hakimiyyətinin sonunu yaxınlaşdırdı. 1814-cü il apreln 6-da koalisiya qüvvələri Parisə daxil olub, onu taxtdan imtina etməyə məcbur etdilər və Elba adasına sürgünə göndərdirlər. 1815-ci ilin mart ayında Aralıq dənizindəki Elba adasından qaçıb ölkəyə qayıdan Napoleon, xalqın dəstəyi ilə ikinci dəfə taxta çıxdı. Napoleonun "yüz gün" davam edən (20 mart-22 iyun 1815) ikinci hakimiyyət dövrünə Vaterloo döyüşündəki məğlubiyyət son qoydu. Napoleonun son döyüşü olan Vaterloo dünyanın taleyini müəyyən edən, tarixə yön verən müharibələrdən hesab olunur. 18 iyun 1815-ci ildə Fransa ilə İngiltərə-Prussiya ittifaqı arasında baş vermiş olan Vaterloo döyüşü, I Dünya müharibəsinə qədər baş vermiş ən böyük döyüşdür. Əgər Napoleon Vaterloo döyüşünü qələbə qazansaydı tarix hadisələr tamamilə başqa istiqamətdə inkişaf edəcəkdi. Napoleon Vaterloodakı məğlubiyyətdən sonra 22 iyun 1815-ci ildə ikinci dəfə taxtdan imtina etməyə məcbur oldu və Atlantik okeandakı Müqəddəs Yelena adasına sürgün edildi. 5 may 1821-ci ildə burada vəfat edən Napoleonun nəşi 1840-cı ildə Parisə gətirilib, əlillər evində dəfn olundu.

9. **Vladimir İliç Ulyanov-Lenin (1870-1924)** – Rusiyada markisizimin radikal qanadı olan bolşevik partiyasının banisi. 1903-cü ildə RSDFP-nin ( Rusiya Sosial-Demokrat Fəhlə Partiyası) II qurultayında partya iki yerə parçalanması ilə V.İ.Lenin pariyanın radikal qanadı olan bolşeviklər partiyasına rəhbərlik etmişdir. 1917-ci ilin oktyabr çevrişi ilə hakimiyyətin ələ keçirilməsinə rəhbərbərlik etmiş və bununla da 1917-ci il fevral burjua inqilabından sonra yeni inkişaf mərhələsinə qədəm qoymuş Rusiyanın başqa səmtə yönəltməyə nail olmuşdur. Bolşeviklər sosial problemlər altında əzilən Rusiya əhalisini öz tərəflərinə çəkmək üçün oktyabr çevrişindən dərhal sonra irəli sürdükləri "Torpaq haqqında", "Sülh haqqında"

dekretləri, "Millətlərin öz müqəddəratını təyin etmək hüququ" kağız üzərində qalmışıdır. Ümumiyyətlə bolşevikləri heç zaman sözü ilə əməli düz gəlməmişdir. Onun əsaslandığı sinfi mübarizəyə söykənən, xüsusi mülkiyyətə düşmən olan bolşevik ideologiyası reallığa söykənmədiyinə görə bəşəriyyətə faciələr gətirmişdir. K.Marksin inkişaf etmiş qərb Avropa kapitalist ölkələrində eyni zamanda sosialist inqilablarının baş verəcəyi və sosializmin qurulacağı ideyasını V.İ.Lenin saxtalaşdırmaqla ona "yenilik" gətirmişdir. O, kapitalizmin qeyri bərabər inkişafını "kəşf" edərək ayrica götürülmüş bir ölkədə sosialist inqilabının qələbəsinin mümkünlüyünü irəli sürmüşdü. Buna əsalanraq o, kapitalist ölkələri içərisində ən zəif ölkə hesab olunan Rusiyada 1917-ci ilin oktyabr çevrilişini həyata keçirmişdi. Proletar diktaturasının hakimiyyəti altında xüsusi mülkiyyətə düşmən olan, insanların ən zəruri hüquq və azadlıqlarını, o cümlədən mülkiyyət hüququnu tanımayan bolşevik ideologiyası iflasa məhkum idi. İnsanları bu gün üçün, öz problemlərinin həlli üçün deyil, gələcəkdə bərqərar olacaq mücərrəd kommunizm cəmiyyəti üçün çalışımağı irəli sürən bu ideologiya utopiyadan başqa bir şey deyildi. Proletar beynəlmiləlçiliyi pərdəsi altında işğalçı siyasət yeridən sovet Rusiyası 70 ildən artıq bir dövrdə xalqlara faciələr yaşatmışdır. 1920-ci il aprelin 27-də dünya ölkələri tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətini işğal edən XI sovet ordusu 1920-1921-ci illərdə 40 min azərbaycanlını qətlə yetirmişdir.

V.İ.Lenin qurduğu totalitar, avtaritar rejimin ilk qurbanlarından biri də onun özü olmuşdur. 1922-ci ildə RK(b)P-nin baş katibi seçilən İ.V.Stalin Leninin səhətinin qayğısına qalmaq bəhanəsilə bir əmr imzalamış, onu real həyatdan və hakimiyyətdən təcrid etmişdir. Bu əmrlə onunla görüşlər, ona göndərilən məktublara cavab vermək qadağan olunmuşdu. Bu əmrdən sonra Leninin görüşünə gələn həyat yoldaşını Stalin təhqir etmiş, Lenin üzr istəməyi tələb etsə də buna əməl olunmamışdır. Bundan sonra iflic vəziyyətdə olan Lenin dili də tutulmuş və bu vəziyyətdə 1924-ci ildə vəfat etmişdir. Nəşi Moskvada Kremlin qarşısnda Movzeleydə mumyalanmış şəkildə saxlanılır.

**10. Ayətulla Ruhulla Musəvi Xomeyni (1902-1989) –** 1902-ci ildə sentyabr ayının 24-də İranın Xomeyn şəhərində anadan olmuşdur. Ayətullah Xomeyni fəlsəfə, təhzibi nəfs və əxlaq kimi fənlərdən dərs deməyə başlamış və tanınmış Qum alimlərindən biri olmuşdur. Xomeyni o dövrdə hökumət əleyhinə olan şəxslərlə əməkdaşlıq edərək Pəhləvi sülaləsinə qarşı mübarizə aparmışdı. O, 1958-ci ildə əyalət və vilayət cəmiyyətlərinin qurulması və şahın qəbul etdiyi altı maddəlik qanunun qüvvəyə minməsi ilə şah rejimi əleyhinə ciddi şəkildə mübarizəyə başlamışdı. 1961-ci il 5 iyunda baş verən qanlı hadisədən sonra rejim əleyhinə söylədiyi bir nitqinə görə həbs edilmişdi. 1965-ci ilin 4 noyabrında Türkiyəyə sürgün edilmiş, bir müddət orada qaldıqdan sonra İraqa kedərək Nəcəf şəhərində 13 il sürgün həyatı keçirmişdir. İranın İraqa təzyiqindən sonra Fransaya köçmüş və bir müddət Paris ətrafındakı Nofl-le-Şato şəhərciyində yaşamışdır. Ölkəsindən çox uzaqda olmasına baxmayaraq Xomeyninin səs yazıları hər həftə İrana gətirilərək müxtəlif məkanlarda dinlənilirdi.1979-cu ildə İslam inqilabı nəticəsində şahın Tehranı tərk etməsindən sonra Ayətullah Xomeyni İrana qayıtmış, İran İslam Respublikasının əsasını qoymuşdur. Tehranda yaşamaq istəməyərək, ömrünün sonunadək dövləti Qum şəhərindəki kiçik mənzilindən idarə etmişdir. Amerika Birləşmiş ştatları və İsrailə qatı düşmən münasibət bəsləmiş, Fələstinə və Livana maddi və hərbi dəstək vermişdir. 1989-cu ildə 4 iyun tarixində Tehran şəhərində vəfat etmişdir. Onun qəbri üstündə Tehran şəhəri yaxınlığında böyük məqbərə tikilmişdir. [37]

*Azərbaycan tarixini dəyişən 13 hadisə*

1. Manna dövlətinin (e.ə.IX-VI əsrlər) süqutu. Çoxlu sayda siyasi mərkəzlərin aparıcı meylə çevrilməsi
2. İslamın qəbulu
3. Səlcuq fəthləri
4. Səfəvilər dövlətinin (1501-1736) meydana gəlməsi
5. 1747-ci ilin may ayında Nadir şahın qətli. Xanlıqların meydana gəlməsi
6. Rusiya işğalı. Gülüstan (1813) və Türkmənçay müqavilələri (1828)
7. Ermənilərin Azərbaycana köçürülməsi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi
8. Bakının dünya neft mərkəzlərindən birinə çevrilməsi
9. Cənubi Azərbaycanın 1905-1911-ci illər İran inqilabının mərkəzi olması (Səttar xanın (1866-1914) rəhbərliyi ilə inqilabi hərəkat)
10. Azərbaycan Cümhuriyyətinin yaranması. Birinci Respublika (1918-1920).
11. Azərbaycanın sovetləşdirilməsi və SSRİ-nin tərkibinə daxil edilməsi. İkinci Respublika (1920-1991)
12. Azərbaycanın müstəqilliyini bərpa etməsi. Üçüncü Respublika – 18 oktyabr 1991-ci il.
13. Heydər Əliyevin (1923-2003) Azərbaycanda ikinci dəfə (15 iyun 1993) hakimiyyətə gəlməsi [7]

# DƏRSLİKLƏRDƏ OLMAYAN MARAQLI FAKTLAR, HADİSƏLƏR

## AZƏRBAYCAN TARİXİ

### *İstiqlal mücadiləsində varislik*

- "Bir kərə yüksələn bayraq bir daha enməz!"

***Məhəmməd Əmin Rəsulzadə***

- "Mən dünyaya səndən üç sənə erkən göz açmışam. Ancaq bütün Türk aləmində Türkün istiqlal bayrağını sən qaldırmısan və bayraq enməsin deyə, mən sənin əlindən alıb Türkiyə üzərində dalğalandırmışam. Enməz demisən bu bayraq, enməyəcəkdir!

***Mustafa Kamal Atatürk [39]***

Hilal artıq öldü deyə,
Sevinmişdi düşmən yenə
Hilal birkən iki oldu,
Salam bizdən ikinciyə,
Azərbaycan, Azərbaycan
Alqışlarıq səni candan.

***Nəriman Nərimanov* [43]**

- "Bu qalibiyyət günəşi qızıl istibdad zülmü altında inliyən əziz vətənimizdə 1918-ci ilin 28 mayısı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyin əziz vətəndaşlar."

***Məhəmməd Əmin Rəsulzadənin 1953-cü il mayın 28-də Amerikanın Səsi radiosu ilə Azərbaycan xalqına müraciətindən***

•“Azərbaycanın dövlət müstəqilliyi dönməzdir,yenilməzdir, sarsılmazdır!”.

***Heydər Əliyev* [*2.2., s.23*]**

• “Hakim” millətin, ... “məzlum” millətə, “kiçik” millətə göstərdiyi hər hansı təzyiq ancaq nifrət və nifaq duyğuları oyadır, əzilən milləti tarixi intiqam saatını gözləməyə məcbur edir…”

***Mirzə İbrahimov* [*44*]**

• Azərbaycan xalqı bütövlükdə azad olacaq və birləşəcək!... Millətini sevənin ruhu hər zaman millətiylə olacaq!

***Əbülfəz Elçibəy* [*40*]**

• Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi və beləliklə, tarixi ədalət bərpa olundu… Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik.

***İlham Əliyev* [*41*]**

## *44 günlük Vətən müharibəsində azad olunmuş ərazilər (27 sentyabr – 10 noyabr 2020-ci il)*

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənis-

tanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub.Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilib.Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb. [42]

## *Qafqaz İslam Ordusunun Azərbaycan uğrunda apardığı döyüşlər*

Qafqaz islam Ordusu Azərbaycan ordusu ilə birlikdə Bakı kommunasının bolşevik-daşnaq qüvvələri ilə 16 iyun 31 iyul tarixlərində, daha sonra sentrokaspi diktaturası və onalrın ingilis himayədarları ilə 1 avqust-15 sentyabr 1918-ci il tarixlərində qızgın döyüşlər nəticəsində Göyçaydan Bakıya qəqər olan əraziləri düşməndən təmizləyək, 15 sentyabrda Bakını işğaldan azad etdi. Qafqaz İslam Ordusu Azərbaycan ordusu ilə birlikdə düşmənə qarşı aşağıdakı döyüşlərdə qəhrəmanlıqlar göstərmişdir:

- I Qaraməryəm döyüşü (16-18 iyun 1918-ci il)
- I Göyçay döyüşü (27-29 iyun 1918-ci il)
- II Qaraməryəm döyüşü ( 29-30 iyun 1918-ci il)
- II Göyçay döyüşü (30 iyun-1 iyul 1918-ci il)
- Salyan döyüşü (28 iyun- 2 iyul 1918-ci il)
- Ağsu-Kürdəmir döyüşü (5-14 iyul 1918-ci il)
- Şamaxı əməliyyatı (19 -22 iyul 1918-ci il)
- Hacıqabul əməliyyatı (26-31 iyul 1918-ci il)
- Birinci Bakı əməliyyatı (1 avqust-5 avqust 1918-ci il)
- Bakı ətrafındaki döyüşlər (6 avqust - 12 sentyabr döyüşləri)
- İkinci Bakı əməliyyatı və Bakının azad edilməsi (14-15 sentyabr 1918-ci il). [16,s.7]

## *İşğalçı XI orduya qarşı Yalama döyüşü (26-27aprel 1920-ci il)*

Azərbaycan tarixinin obyektiv öyrənilməmiş səhifələrindən biri Sovet Rusiyasının XI qırmızı ordusu tərəfindən Azərbaycan Xalq Çümhuriyyətinin işğalı tarixidir. Bu tarixin ən şanlı səhifələrindən biri Azərbaycan sərhədçilərinin işğalçı orduya qarşı ölüm – dirim mübarizəsi olan Yalama döyüşüdür.

1920-ci ilin 26-27 aprelində baş vermiş Yalama döyüşü haqqında obyektiv məlumat əldə etmək üçün birinci növbədə Bakıda proletariatın üsyanın olmadığı və sovet Rusiyasına kömək üçün müraciət edilmədiyi, XI ordunun Azərbaycana beynəlmiləl yardıma deyil, işğala gəldiyini faktlarla sübut edilməsinə ehtiyac var.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra unudulmuş "Yalama döyüşü" haqqında ilk dəfə akademik Ziya Bünyadov məlumat vermişdir.

Akademik arxiv sənədləri əsasında yazdığı məqalələrində XI ordunun Samur çayını keçərkən 300 sərhədçimizin qeyri bərabər döyüşə girməsi, qəhramanlıqla həlak olmaqla yanaşı düşmənə xeyli itki vermələrini faktlarla qeyd edib. O, həmçinin qeyd edir ki, sərhədçilərimiz tərəfindən XI ordunun öldürülmüş 9 komissarı Bakıda dəfn olunduğu bağ əvvəllər 9 komissar bağı adlandırılıb. 1920-ci ilin sentyabrında Ağcaqum çölündən cəsədlər gətirib burada dəfn edərək bağın adını dəyişib 26 Bakı komissarı bağı adlandırmışlar. [22,6 noyabr 1989; 23, №10,s.2; 24,15 noyabr 1990,10 aprel 1992 ]

## *Azərbaycan diplomatiyasının Avropaya vasitəçiliyi*

Uzun illər Dağlıq Qarabağ probleminin həllində vasitəçilik missiyasını səmərəsiz olaraq ATƏT-in Minsk qrupu yerinə yetirmişdir.

Bəlkə əhalinin əksəriyyəti hələ də bilmir ki, 27 il Dağlıq Qarabağ probleminin həllində vasitəçilik edən Avropa ölkələri bir vaxtlar çıxılmaz vəziyyətə düşərək problemlərini həlli etmək məqsədilə Azərbaycana yardım üçün müraciət etmişlər.

Bu gün VII əsrdə qərb dünyasının güclü dövləti Bizans imperiyası ilə Afrikanın şimalını, Yaxın və orta şərq ərazilərini, o cümlədən İranı ələ keçirərək öz sərhədlərini genişləndirməklə cənubi Qafqaza yaxınlaşan Ərəb Xilafəti arasında danışıqlarda vasitəçilik etmiş Azərbaycan xalqının qəhrəman oğlu, Girdiman dövlətinin başçısı Cavanşirin (637-681-ci illər) faliyyətini öyrənmək və bundan ibrət götürmək bizim üçün çox vacibdir.

Cavanşirin böyük uzaqgörən siyasəti sayəsində Albaniya (Azərbaycanın orta əsr dövləti) Bizans və Xəzər xanqanlığı ilə dostluq əlaqələri yaratmışdı. Bu siyasətin nəticəsində Albaniya bir müddət rahat nəfəs almışdı. Lakin bu dinclik cənubdan ərəblərin yeni hücumları ilə pozulmuşdu.

Bu zaman Bizans xeyli zəifləmiş, ərəblər Bizansın paytaxtı Konstantinopola qədər irəlləmişdilər. Buna görə də Cavanşir Bizansla əvvəlki siyasəti dəyişməyin vaxtının çatdığını başa düşərək, ağıllı siyasəti ilə ölkəni talançı yürüşlərdən xilas etmişdi. O, manevr edərək Bizansla əlaqələrin kəsib, ərəblərlə yaxınlaşmağa üstünlük vermişdi. Xəlifə də Cavanşirin gücünə bələd olduğuna görə onunla yaxınlaşmaq istəyirdi. Xəlifə Cavanşirin igidliyinə və qəhrəmanlığına heyran olsa da onun bu məsələdə öz maraqları var idi. Ərəbləri ən çox narahat edən şimalda yerləşən Xəzər türkləri idi. Onların hücumlarından ehtiyat edən ərəblər bu təhlükənin qarşısını almaqda Cavanşirə ümid edirdilər. Cavanşir nigah diplomatiyası yeridərək Xəzər xaqanının qızı ilə evlənməsi şimaldan gələn təhlükənin qarşısını aldı. Bu da iki cəbhədə müharibə aparmaqda çətinlik çəkən Ərəb xilafətinin işini asanlaşdırdı. Bunula da Xilafət daxilndə Cavanşirin nüfuzu daha da artdı.

Cavanşir 667-ci ildə Xilafətin paytaxtı Dəməşq (Şam) şəhərinə, Xəlifə I Müaviyənin görüşünə getdi. Məhşur Cavanşirin adını eşidən əhali onu görmək üçün küçələrə çıxmışdı. Xəlifə onunla dostcasına görüşdü. Ərəblərlə yaranmış dostluq münasibətləri Albaniyanı daha bir təhlükədən, ərəblərin işğalçı yürüşlərindən xilas etdi.

Cavanşir bundan sonra təmtəraqla vətəni Girdiman vilayətinə qayıtdı. Bundan üç il sonra Bizans imperatorunun elçiləri Cavanşi-

rin yanına gəldilər. Onlar ərəblərə bac verməyə razı olduqlarını bildirdilər. Elçilər imperatorun adından Cavanşirdən xahiş etdilər ki, Xilafətlə Bizans arasında danışıqlarda vasitəçilik etsin. Xəlifə bu xəbəri eşidən kimi öz qoşununa əmr etdi ki, Cavanşir gələnə qədər Bizans istiqamətində hücumu dayandırsınlar. Cavanşir 670-ci ildə ikinci dəfə Xəlifənin görüşünə gəldi. Bu dəfə onu daha böyük şan – şöhrətlə qarşıladılar. Cavanşir Xəlifəyə Bizansla sülh danışıqları aparmağı təklif etdi. Xəlifə onun bu ağıllı məsləhətini yüksək qiymətləndirdi. Bizans elçiləri də ona minnətdarlıq etdilər. Xəlifə Cavanşirə şahlara layiq hörmət göstərdi. Ona Hindistandan gətirilmiş nəhəng fil bağışladı. Daha sonra ona qızıl qınlı polad qılınc, mirvari ilə işlənmiş kaftan, ipək parçalar, əba və cürbəcür geyimlər hədiyyə etdi. Xəlifə özü mindiyi atlardan əlli ikisini Cavanşirə bağışladı.

Cavanşir bu görüşdə tədbirli siyasəti nəticəsində Albaniya üçün də xeyrli işlər gördü. Onun səyi nəticəsində Xilafətin Albaniyadan aldığı verginin miqdarı üçqat azaldıldı. Bundan başqa Xəlifə Sünik knyazlığının Cavanşirə tabe edilməsi haqqında fərman verdi.

Yuxarıda göstərilən faktlar sübut edir ki, bir vaxtlar dünyanı lərzəyə salan və bir-birinə düşmən olan iki imperiya arasında danışıqlarda vasitəçilik missiyasını həyata keçirmiş Azərbaycan sərkərdəsi bu missiyanı qısa bir zamanda ləyaqətlə yerinə yetirmişdi. Fikirimizcə Azərbaycan tarixinin müxtəlif dövrlərində mövcud olmuş bu cür tarixi faktlarla ATƏT-in Minsk qrupunun həmsədrlərinin də tanış olmasına böyük etiyac var. [11]

## *Azərbaycan Hülakülər (Elxanilər) dövlətində tatar-moğolların islamı qəbul etməsi*

Elxanilərin dördüncü sultanı Sultan Mahmud Qazan xanın dövründə (1295-1304) dövlət yenidən gücləndi. O, islam dinini qəbul edərək Mahmud adını götürdü. Onun islam dinin qəbul etməyində ilahiyyatçı Əmir Nevruzun [3] böyük rolu olmuşdu. Onunla birlikdə Qazan xanın islamı qəbul etməsində Qütbəddin Şirazı və onun qardaşı Kemalləddin Şirazı böyük əməyi qeyd olunmalıdır. Onlar bu za-

man şərqdən müsaəlman dünyasına, o cümlədən Osmanılara böyük təhlükə hesab olunan tatar-moğolları islamı qəbul etməsinə dəstək verməklə müsəlman dünyası qarşısında böyük xidmət göstərmişlər.

Qzan xanın 9 illik hakimiyyəti dövründə Elxanilər dövlətində olan bütün tatar-moğollar islam dinin qəbul etdilər.

Mahmud Qazan Təbrizin qərbində özü üçün bir türbə, əhalinin təhsil alması üçün mədrəsələr, süfilərə aid mədrəslər tikdirdi. Məhşur Qütbəddin Şirazı, Numam Təbrizli, Vəzir Xoca Rəşiddədin, Burak Baba Mövlana Cəlaləddin Ruminin nəvəsi Ulu Arif Cələbi kimi alim və görkəmli şəxsiyyətlərə coxlu yardımlar etdi.

Əmir Nevruz islamı qəbul edərkən digər dinlərə qadağa qoysa da, kilsələri, sinaqoqları və bütpərəst məbədləri dağıdaraq, din xadimlərini öldürsə də, Mahmud Qazan bunların heç birini etmədi. Əksinə bir fərman verərək xristianları cizyədən azad etdi. Elan etdi ki, "kimsə dinini tərk etməyəcək, katoliklər adət etdiyi kimi yaşamaqda davam edəcəklər." 1296-cı ildə Xristian Patirax Mar Yaballahı əvvəlki vəzifəsinə qaytardı.

Qazan xan hakimiyyətini gücləndirdikdən sonra Nevruzun tərəfdarlarını tutaraq, öldürdü. Nevruz qaçaraq Herat valisinə sığınsa da vali onu Qazan xana təsilm etdi və o da Nevruzu edam etdirdi.

Daha sonra Qazan iqtisadiyyatı düzəltmək üçün qanunlar qəbul etdi. Xəracı, talan və qətlamları qadağan etdi.

Anadoluda xalqa zülm edən, onu ağır vəziyyətə salan Süləmiş adlı moğol valisi 1298-ci ildə Qazan xana qarşı üsyan etdi. 50.000 təcrübəli əsgərlərdən ibarət bir ordu yaratdı. 1299-cu ildə Qazan xanın sərkərdəsi Kutluk şah bu üsyanı yatırdı. Bir il içində Süləmişin müttəfiqləri olan Türkmənlər qaçmış, Süləmiş və yavərləri öldürülmüşdü. Bu vəziyyət Qazan xanı Məmlüklərə qarşı yürüşə hazırlaşdığı üçün narahat edirdi. Anadolunun dəstəyini qazanmaq üçün Anadolu bəylərinə pul kəsmək hüququ verdi. Bu dövrdə Anadolunun bütün sikkəxanalarında Elxanlı gümüş sikkələri kəsilirdi. [27, s.106-107]

### *Şəmsi Təbrizinin Allahın varlığını sübut etməsi*

Bir qrup filosof Mövlananın yanına gəlib bəzi suallar vermək istədikləri bilidirdilər. Mövlana onları Şəmsi Təbrizinin yanına göndərdi. Onlar Şəmsi Təbrizinin yanına gələrkən o, kərpiclə tələbələrə bəzi məsələləri izah edirdi.

Gələn filosoflar üç sual soruşacaqları bildirəndə Şəmsi Təbrizi soruşun dedi. Onlardan biri soruşdu:

"Allah var deyirsiniz. Amma görünməzdir. Göstərin unanaq."

Şəmsi Təbrizi o biri sulları da soruş dedi.

O, "Şeytanın atəşdən yaratdığını soyləyirsiniz, sora da atəşlə ona əzab veriləcəyini deyirsiniz. Heç atəş də atəşə əzab edərmi?"

Şəmsi Təbrizi yaxşı o biri sulları da soruş dedi.

O, "Axirətdə hər kəs haqqını alacaq, etdiklərinin cəzasını çəkəcək deyirsiniz. Buraxın insanlar canları nə istəyirsə etsin, qarışmayın" dedi.

Bu sullardan sonra Şəmsi Təbrizi əlindəki quru kərpici filosofun başına vurdu. Sualların verən adam tez divanxanaya gedərək şikayət etdi.

Hakimin yanında şikayətçi "mən sual verdim, o isə başıma kərpiclə vurdu" dedikdə Şəmsi Təbrizi söylədi ki, o sual verdi mən də cavab verdim.

Şəmsi Təbrizi məsələni belə anlatdı:

- "O mənə dedi ki, allah talanı göstər inanım. Mən də onun başına kərpiclə vurduqdan sonra dedim ki, sən ağrılarını göstər baxaq, inanaq"
- "O məndən şeytana atəşlə necə əzab veriləcəyini soruşdu. Mən də onu torpaq parçasıyla vurdum. Onun özü də torpaqdan yaranıb. Torpaq torpağa necə əzab verirsə, od da oda o cür əzab verə bilər.
- "O mənə dedi ki, buraxın insanlar canları nə istəyirsə etsin, qarışmayın. Mənim də canın onun başına kərpic vurmaq istədi, vurdum. İndi o niyə haqqını axtarır. Aramasın da. Bu dünyada kiçik məsələ üçün haqq aranırsa, o sonsuz olan həyatda nəyə görə haqq aranmasın?"

Bu cavablardan sonra filosof deməyə söz tapmadı. [26, s.101-102]

## *Əmir Teymurun məmuru cəzanlandırması*

Əmir Teymurun maliyyə işlərini idarə edən məmur səhv etdiyindən, Teymur əvvəl ona səhv etdiyi kağızları yedirtmiş, sonra isə onu işdən qovmuşdur. Onu yerinə Nəsrəddin Xocanı gətirmişdir.

– Xoca vəzifəyə gələn kimi hesabları yuxaların üstünə yazmağa başlayır.

– Teymur nəyə görə kağız yerinə, yuxadan istifadə etdiyini soruşduqda Nəsrəddin Xoca "Nədən olacaq, yeməsi asan olsun deyə" cavabını vermişdir. [25, s.256]

## *Əmir Teymurun prisnsipləri*

Əmir Teymur dövlətin yaxşı idarə edilməsi üçün aşağıdakı prinsiplərə əməl edilməsini məsləhət görürdü:

1. Hökmdar gərək öz sözünün yiyəsi olsun, bildiyi işin arxasınca getsin.

2. Sultan hər şeydə ədalətli olmalı, yanında ədalətli, insaflı vəzirlər saxlamalıdır.

3. Bütün məmləkətdə buyruq-fərman vermək ixtiyarı padşahın özündə olmalıdır ki, hər işdə padşah özü hökm çıxartsın, heç kim onun işinə qarışıb, hökmünü dəyişdirməsin.

4. Padşah bir işi görmək qərarına gəlmiş olsa, həmin işin üstündə möhkəm dayansın, işi bitirməyincə ondan əl çəkməsin.

5. Nə cür hökm çıxarmış olsa belə, padşahın öz hökmünü yeritməsi zəruridir.

6. Padşahlıq işlərini büsbütün başqasına tapşırmaq, ixtiyarı özgəsinin öhdəsinə buraxmaq olmaz. Dünya ayağı sürüşkən qadın kimidir, onun aşiqi çoxdur. Əgər padşah öz səltənətinin ixtiyarını başqasına vermiş olsa, onun iştahından padşahlıq keçəcək, gözünü səltənət taxtına yiyələnməyə dikəcək.

7. Səltənət məsələləri ilə bağlı olaraq hamının sözünü eşitmək, hər bir adamın fikrini öyrənmək lazımdır. Daha faydalı məsləhətləri könül xəzinəsində saxlamaq, məqamı gələndə xərcləmək lazımdır.

8. Səltənət işlərində hərbi qulluqçularla, rəiyyətlə bağlı məsələlərdə başqalarının sözlərinə və əməllərinə baxıb ölçü götürmək olmaz. Vəzirlər, əmirlər bir adamın haqqında yaxşı-yaman söz söyləmiş olsalar, onları dinləmək lazımdır, lakin ölçü götürməkdə tələsmək olmaz, çatdırılan söz sınanmalı, yoxlanmalı, həqiqət ortaya gətirilməlidir.

9. Padşahın zəhmi hərbçilərin və rəiyyətin üzərində elə yer tutmalıdır ki, heç kəs onun əmrinin, fərmanının əleyhinə gedə bilməsin, ona itaət və tabeçilik göstərsinlər, başlarını qaldırmasınlar.

10. Padşah nə eləsə öz iradəsincə eləməlidir, hər nə desə sözünün üstündə möhkəm durmalıdır, çünki padşahların hökmlərindən başqa bəhrələnəcəkləri şey yoxdur. Padşahın padşahlığı hökmündədir. Xəzinə, qoşun, rəiyyət, səltənət – bunların hamısı onun hökmünə tabedir.

11. Səltənət məsələlərində və hökm yürütməkdə padşah özünü tək saymalıdır, hər kəsi özüylə bərabər səltənətə şərik etməməlidir.

12. Padşah məclis əhlindən agah olmalı və ayıq-sayıq olmalıdır ki, ətrafındakılar ondan daha çox ayıb axtararlar, səltənətin içinin sirrini bayıra çıxararlar, padşahın sözünü, əməlini vəzirlərə, əmirlərə xəbər verərlər. Məsələn, buna oxşar bir hadisə mənim başıma gəlib. Özümün məxsusi məclisimdəki həmsöhbətlərimdən bir neçə nəfəri vəzirlərimlə əmirlərimin casusları imişlər. [3, s. 62-63; 4, s.17-18]

## *Fizulinin hazırcavablığı*

Fizuli ilə Ruhi bərabər gedərkən bir köpək görürlər. Ruhi köpəyi görərək:

“Bu köpək nə qədər fizulidir” deyir.

Fizuli də həmən cavab veririr:

“Çünki içində Ruhi var” [25, s.223]

## *Salyanın qəhrəman qadını*

Azərbaycan tarixi obyektiv tədqiq olunamış səhifələrindən biri XVIII əsrin əvvəllərində rus işğalçılarına qarşı qəhrəmanlıqlar göstərmiş Salyan hakimi Qəbuli xanımın mübarizə tarixidir. I Pyotrun hakimiyyət illərində rusların Azərbaycana yeni yürüşləri baş verib, işğalçılar 1722-ci il iyulun 18-də 274 kiçik gəmi ilə Xəzər dənizinə çıxıblar. I Pyotrun özünun də donanmanın tərkibində olması sübut edir ki, ruslar bu yürüşə xüsusi önəm veririrdilər. İyunun 18-dən 26-sına qədər gedən gərgin döyüşlərdən sonra Bakı ruslar tərəfindən işğal olunub. Sentyabrın 3-də I Pyotr Peterburqda Bakının alınmasını təntənə ilə bayram edilməsinə göstəriş verib.

Sovet hakimiyyəti illərində I Pyotrun yürüşünün işğalçı məqsədləri ört-basdır edilib, buna fərqli münasibət bəsləyən tarixçilər təzyiqlərə məruz qalıblar. Buna görə də I Pyotrun yürüşü zamanı işğalçılara qarşı müqavimət göstərmiş qəhrəmanlar, o cümlədən Salyan hakimi Qəbuli xanım haqqında əhali hələ də lazımi məlumata malik deyil. Akademik Ziya Bünyadov və professor Yusif Yusifovun redaktorluğu ilə 1994-cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında Qəbuli xanım haqqında heç bir məlumat yoxdur. Onun əvəzinə aşağıdakı cümlələr var: "Bakı zəbt olunandan sonra rus komandanlığının göndərdiyi bəyannamədə bütün dənizsahili vilayətlər Rusiyaya tabe olmağa çağırılırdı. Buna görə də Salyan naibi Hüseyn bəy və Talış hakimi Mir Abbas bəy gəlib Rusiyaya sədaqət andı içməyə məcbur oldular"[15, s.503-504].

Nəşr olunmuş kitablar içərisində yalnız S.Əliyarlının redaktorluğu ilə 1996-cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında bu hadisə ötəri xatırlanır, lakin Salyanın müdafiəsi sahəsində Azərbaycan qadının qəhrəmanlığı lazım səviyyədə işıqlandırılmayıb. Bu qəhrəman qadın haqqında Azərbaycan tarixşünaslığının banisi Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində məlumat verilməsinə baxmayaraq bu faktın obyektiv araşdırılmasına uzun illər imkan verilməyib.

Salyan hakimi Qəbuli xanım haqqında I Pyotrun şəxsən fikir söyləyərək gücünü etiraf etməsi də onun böyük şəxsiyyət olmasın-

dan xəbər verir. A.Bakıxanovun “Gülüstani-İrəm” əsərində qeyd edir ki, I Pyotr general Matyuşkinə yazaraq bildirmişdi: “Salyan hakiməsi, xanım oğruların böyüyüdür. Ondan ehtiyatlı olmaq lazımdır ki, bir bədbəxtlik üz verməsin”.

Salyanda XVIII əsrin əvvəllərinə aid olan bu hadisənin mahiyyəti aşağıdakı kimidir. 16 sentyabr 1723-cü ildə general Matyuşkin Kür çayı üzərində mühüm strateji mövqedə yerləşən Salyan şəhərini ələ keçirməyi tapşırdı. Məqsəd strateji cəhətdən əlverişli şəraitdə yerləşən Salyanda yeni liman şəhəri salmaq və buradan istinad nöqtəsi kimi istifadə etməklə Kür çayı vasitəsilə ölkənin içərilərinə doğru irəliləməklə işğalçılıq planlarını həyata keçirmək idi. Podpolkovnik Zimbulatovun komandanlığı altında 22 zabitdən ibarət 500 nəfərlik bir batalyon göndərilir. Zimbulatov öz batalyonu ilə gedib Kür çayı sahilində, o yerin hakiməsi, Salyan sultanı Həsən bəyin həyat yoldaşı Qəbuli xanımın sarayı qarşısında ordugah qurdu. Rus hərbiçiləri burada şəhər salmaq üçün tədarük görməyə başladılar. Qəbuli xanım, dostluq və ixlas göstərib, bir gün onu bütün zabitləri ilə birlikdə qonaq çağırdı. Qonaqlıq zamanı otağa Qəbuli xanımın adamları girərək onların hamısını öldürdülər. Əsgərlər onlarla qalmış bir xəstə zabitlə tələsik gəmilərinə minərək Bakıya qayıtdılar. 1725-ci ilin noyabrında general-leytenant Matyuşkin Peterburqdan Bakıya qayıdaraq Zimbulatovun hadisəsi ilə tanış oldu və çara bu haqda ətraflı məlumat göndərdi.

Salyan hakimi Qəbuli xanımın qəhrəmanlığı haqqında hələlik tarixçilərin əlində yuxarıda qeyd olunan faktdan başqa digər fakt yoxdur. Bu qadının sonrakı taleyi barədə də kitablarda məlumat yoxdur. Lakin fikrimizcə tarixçilər bu fakta istinad edərək geniş tədqiqat işləri aparsalar, şübhəsiz Azərbaycanın qeyrətli, vətən təəssübünü çəkən qəhrəman xanımlarından olan Qəbuli xanım və digər qəhrəmanlarımız haqqında yeni-yeni faktları üzə çıxara bilərlər. [12]

## *Molla Pənah Vaqif necə Qarabağ xanın vəziri oldu?*

Nadir şah hakimiyyətə gəldikdən sonra 1736-ci ildə Suqovuşandakı qurultayda onun şah olmasına etiraz etmiş Gəncə-Qarabağ Bəylərbəyini idarə edən Ziyadoğluları zəiflətmək üçün Qazax, Şəmsəddil, Borcalı sultanlıqlarının idarəsini Kartli knyazına verdi. Bunda sonra həmin ərazilərdən əhalinin böyük bir hissəsi köçərək Qarabağda məskunlaşdı. M.P.Vaqif də Qazaxdan Qarabağa köçən əhaliyə mənsub idi. O əvvəl sadə həyat sürsə də savadı, qabiliyyətinə görə yerli əhalinin diqqətini cəlb edirdi.

Bir gün belə bir hadisə baş verdi. Bu hadisə Vaqifin gözə çarpmasına səbəb oldu. Bir çobanın istəkli bir köpəyi var imiş. Çoban itinə göz dəyməsin deyə, bir dua yazdırmaq fikrinə düşür. O, avam tərəkəmə olduğu üçün bu hərəkətin caiz olmadığından xəbərsiz idi. Çoban özü ilə bir-iki qoyun götürüb şəhərə gəlir. Dərdini rast gələn bir şəhərliyə anladır; şəhərli bu adamın xam olduğunu duyub, onu ələ salmağa başlayır. Şəhərdə avam çöllünü ələ salmaq qayda olduğu üçün bu şəhərli çobanı meydandakı qəssabın yanına göndərir. Qəssab məsələni anlayır, çobanı Şeytanbazara, bir qənnadının yanına yollayır. Yazıq çoban bazarı dörd dolandıqdan sonra lotunun birisi ona Vaqifi nişan verir. Vaqif istehzanı anlayırsa da, özünü sındırmır; o saat götürüb bu misraları yazır:

Gözüm düşdü ətinə,
Dua yazdım itinə,
Bu sirri kim açsa,
Bu çobanın...

Abı və cod bir kağızda yazılmış bu “duanı” Vaqif qatlayıb çobana verir, deyir:

– Əskiyə tik, bir göz muncuğu ilə bərabər as itin boynundan. Çoban gedir.

Günlərin bir günü İbrahim xan ova çıxmış imiş. Ovda yorulub bir obada düşərgə salır. Bir ağacın kölgəsində yemək yeyərkən ətrafa toplaşan itlərdən birinin boynundakı duanın fərqinə varır. Kəndlinin belə xilafşər iş tutduğuna heyrət edərək, duanı itin boynundan açdırıb oxuyur.

Xan bir tərəfdən qəzəbə gəlir, o biri tərəfdən də için-için gülür. Şəhərə gələrgəlməz eşik ağası Şahməmmədi hüzuruna çağırıb, dua yazanı tapmasını əmr edir.

Şahməmməd çobanı Qalaya gətirdir, çoban da Vaqifi ələ verir. Xan divan otağına gəlir, qırmızı geymiş cəlladlar düzülür, Vaqifi gətirirlər.Vaqif xanın qəzəbli sözlərini dinlədikdən sonra xoş bir səslə başladı:

Yüz iyirmi dörd min peyğəmbər keçdi,
Dünyadan kim getdi dərdi-vərəmsiz,
Hanı Nuşirəvan, təxti Süleyman?
Dövran belə keçdi, Cəmşidi, sənsiz.
Çox güvənmə qızılım var, pulum var,
Puç dünyada ulusum var, elim var.
Heç demirsən, ayrılıq var, ölüm var.
Neçə min söhbətlər qılıblar sənsiz,
Mətlubum istərəm şahi-heydərdən,
Sahibi-Zülfüqar, şahi-Qənbərdən,
Biçarə Vaqifi salma nəzərdən,
Qul xətasız olmaz, ağa kərəmsiz!

Dərin bir sükutdan sonra, xan əli ilə işarə etdi, Vaqifi buraxdılar. Az sonra onu saraya dəvət etdilər və istedad, bacarığına görə xanın vəziri oldu. [Y.V.Çəmənzəminli "İki od arasında" romanı. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild. Bakı, "AVRASİYA PRESS", 2005, 664 səh. s.468-469]

## *Qarabağ xanının Çingiz xanın nəslindən olması haqqında məlumat*

Vaqif xanın sol tərəfində Mirzə Əliməmməd isə sağda, Ohan keşişin yanında yerləşdi. İbrahim xan Çingiz xanın nəvəsi Hülakü xan nəslindən olduğuna fəxr edərək sarayında da Çingiz ənənələrini yaşatmağa çalışardı. Bu ənənələrdən biri də sayğılı adamların xanın sol tərəfində oturmaları idi. Vaqifin də sol yanda əyləşdirilməsi onun sarayda qazanmış olduğu mövqeyi və hörməti göstərirdi. Yeni

gələnlər oturan kimi təkrar xana, ətrafdakılara və sonra camaata baş əyərək təzim etdilər, cavab olaraq uzun papaqlar nizam ilə əyilib qalxdı. [Y.V.Çəmənzəminli "İki od arasında" romanı. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild. Bakı, "AVRASİYA PRESS", 2005, 664 səh. s.461-462]

## *Unudulmuş qəhrəmanlar: Abbas Mirzə*

Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində vətənin azadlığı uğrunda yadelli işğalçılara qarşı mərdliklə mübarizə aparmış qəhrəmanları ilə fəxr edə bilər. Belə qəhrəmanlardan biri də dövrünün görkəmli sərkərdəsi, qabaqcıl ziyalı Abbas Mirzədir. I və II Rus - İran müharibələrində İran qoşunlarının komandanı olmuş Abbas Mirzə haqqında sovet tarixşünaslığında olan düşmən, saxta fikirlər şüurlarda hələ qalsa da, son illər nəşr olunmuş bəzi kitablar bu çatışmazlıqların müəyyən qədər aradan qaldırılmasına kömək edir.

Ağa Məhəmməd şah Qacarın qardaşı oğlu, Fətəli şahın oğlu vəliəhd Abbas Mirzə 1789-cu il avqustun 28-də dünyaya gəlib. Fikrimizcə, 15 yaşından İran ordusuna rəhbərlik edərək 12 ildən artıq işğalçı çar qoşunlarına qarşı mərdliklə döyüşmüş, cəsur sərkədə Abbas Mirzəni bir şəxsiyyət kimi 13 yaşından qızılbaşlara rəhbərlik edərək Səfəvi dövlətinin əsasını qoymuş I Şah İsmayılla müqayisə etmək olar. Hər bir azərbaycanlı I Şah İsmayılla fəxr etdiyi kimi, vətəni yadelli işğalçılardan azad etmək uğrunda qəhrəmanlıqla vuruşmuş Abbas Mirzə kimi şəxsiyyətlərlə də fəxr etməli, bu şəxsiyyətləri xatırlayarkən qürur hissi duymalıdır.

Əminə Pakrəvannın "Abbas Mirzə və Azərbaycan" kitabı 2010-cu ildə Bakıda nəşr olunub. Bundan əvvəl isə Nasir Nəcminin "Abbas Mirzə" (yaxud "Qacar sülaləsinin qəhrəman, vətənpərvər oğlu və onun başçılıq etdiyi İran-Rusiya müharibələri", (Tehran hicri 1326-cı il, miladi 1910) kitabı 1993-cü ildə Azərbaycan dilinə tərcümə olunub. Kitabın əvvəlində deyilir: "Qafqazda çarın göstərişlərini yerinə yetirərək Azərbaycan xanlıqlarını bir-birinin ardınca istila və Rusiyaya ilhaq edən generalların – Sisianovun (milliyyətcə

gürcüdür), Qudoviçin, Yermolovun, Mədətovun (ermənidir), Paskeviçin apardığı işğalçı və soyğunçu müharibələr kitabda geniş əksini tapır. Kitabın əsas məziyyəti ondadır ki, Abbas Mirzə istər birinci (1804-1813), istərsə ikinci (1826-1828) Rus-İran müharibələrində öz doğma torpaqlarını amansız düşməndən cəsarətlə müdafiə etməsini, yeni tipli nizami ordu yarada bilmək bacarığını inandırıcı dəlillərlə göstərir... Əsər heç şübhəsiz, XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi, hərbi hadisələri daha düzgün anlamaqda oxucularımıza kömək göstərəcəkdir." Kitabda Abbas Mirzənin qəhrəmanlığı haqqında müəllif yazır: "İran əsgərləri ölkəyə tarixi şan-şöhrət qazandıran görünməmiş qəhrəmanlıq, cəsarət göstərmiş, bu müddət ərzində Qacar sülaləsinin qoxmaz, igid oğlu Abbas Mirzənin başçılığı altında bütün çətinliklərə dözərək, çarın gündən-günə artan qoşunlarına qarşı müqavimət göstərmiş, hətta bu müharibələrdəki bəzi döyüşlərdə heyrətləndirici nailiyyətlər əldə etmiş və düşmən qüvvələrinə güclü zərbələr endirmişlər. Abbas Mirzə vətənin istiqlaliyyətini və bütövlüyünü hədələmək məqsədilə aparılan döyüşlərdə tərifəlayiq qəhrəmanlıqlar göstərmişdir"

Jan Juninin 2004-cü ildə Azərbaycan dilində nəşr olunmuş "Unudulmuş qəhrəmanlar" kitabı XIX əsrin əvvəllərində İran və Cənubi Qafqazda baş vermiş hadisələrin obyektiv öyrənilməsində mühüm əhəmiyyətə malikdir. İran İslam Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri Əhəd Qəzayi kitaba yazdığı ön sözdə Abbas Mirzə haqqında demişdir: "Böyük ruh gücünə malik olan bir qoşun toplamış və bu qoşuna rəhbərlik edən qədim Təbrizin becərdiyi və Azərbaycanın qeyrətli oğlu Abbas Mirzə idi. Abbas Mirzə İranın vəliəhdi olmaqla yanaşı, həm də döyüşə rəhbərlik edirdi. İstər Abbas Mirzə, istərsə onun başqa sərkərdələrinin qəhrəmanlıqları tarixin səhifələrində həkk olunmuşdur və insan bunları oxuduqca qızılbaşları, Şah İsmayılı xatirələrdə canlandırır və görür ki, bu torpağın necə oğulları varmış".

Abbas Mirzə ağıllı, cəsarətli sərkərdə olmaqla yanaşı, həm də dövrünün qabaqcıl ziyalılarından idi. O, fransız dilini mükəmməl bildiyindən dünyanın müxtəlif ərazilərində, o cümlədən Avropada

baş verən hadisələr haqqında dərin biliyə malik idi. Onun elmi, mədəni, iqtisadi və hərbi sahələrdə apardığı islahatlar ölkəsinin inkişafına yaxından kömək etmişdi. Ölkəyə ilk mətbəəni gətirən də o olmuşdu. Abbas Mirzə Avropa dillərindən fars dilinə kitablar tərcümə edən birinci şəxsdir. O ilk dəfə olaraq Jan-Jak Rusonun Fransa inqilabında mühüm rolu olmuş "Kontra-sosial" əsərini fransız dilindən tərcümə etmişdi. Fətəli şahın mətbəədə yalnız dini kitablar çap edilməsi ilə bağlı göstərişi olmasına baxmayaraq, onun səyi ilə bir neçə tarixi kitab da çap olunmuşdu.

Abbas Mirzə həmçinin fransız mənbələri əsasında Rusiyanın tarix və coğrafiyasını da dərindən öyrənmişdi. O, I Pyotrun dövründən XIX əsrin əvvəllərinə kimi Rusiyanın daxili və xarici siyasətini bütün incəliklərinə qədər öyrənmiş və təhlillər aparmışdı ki, bu da sonrakı çətin proseslərdən baş çıxarmaqda ona yaxındanköməklik etmişdi. Abbas Mirzənin Fransanın İrandakı səfiri Joberə dedikləri fikirlər onun dövrünün qabaqcıl ziyalısı olmasını bir daha sübut edir. O demişdi: "Böyük Pyotr Rusiyada hakimiyyət taxtından düşüb sənət öyrənmək üçün Avropaya getdi. Mən də əgər bacarsaydım, səltənət taxtından düşər və Avropaya gedərdim ki, orada yeni elmləri və sənətkarlığı öyrənəm, İrana qayıdam və öyrəndiklərimi burada tətbiq edəm. Lakin atam mənə elə bir vəzifə tapşırıb ki, onu tərk edə bilmərəm və öhdəmə qoyulan iş başa çatanacan gərək burada qalam. Lakin mən öz əvəzimə elm və sənət öyrənmək üçün başqalarını Avropaya göndərəcəyəm."

Jober Abbas Mirzə haqqında Parisdə çıxan "Klub" qəzetində bir neçə məqalə dərc etdirərək onu oxuculara dövrünün qabaqcıl şəxsiyyəti kimi təqdim edib.

Xalqımızın qəhrəman oğlu Abbas Mirzə 1833-cü ildə 44 yaşında vəfat edib. Çox təəssüf ki, haqqında digər xalqların tarixçiləri kitablar yazmasına, onu dünyaya tanıtmasına baxmayaraq, öz vətənində onun haqqında çox az məlumat var. Fikrimizcə, tarixçilər bu çatışmazlığı aradan qaldırmalı, dövründən asılı olmayaraq unudulmuş qəhrəmanları xalqa yaxından tanıtmalıdırlar. [13]

## *A.S.Qriboyedovun cinayəti və cəzası*

A.S.Qriboyedov Türkmənçay müqaviləsinin hazırlanmasında, təsdiqində və həyata keçirilməsində mühüm rol oynamışdır. Tanınmış rus yazıçısı və diplomatı olan bu şəxs Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalında, ermənilərin Azərbaycan ərazisinə köçürülməsində aparıcı rol oynamaqla yerli müsəlman əhalinin nifrətini qazanmış və nəticədə öz cinayətkar əməllərinin qurbanı olmuşdur.

Qriboyedov 1828-ci ilin avqustunda özünün yol xatirələrində "bədbəxt həmvətənlərinin, yəni ermənilərin yolunda başını qoymağa hazır olduğunu" yazmışdı. Tiflisdəki mənzili erməni bazarında yerləşən, erməni general Mədətovla dostluq edən Qriboyedov ömrünün son iki ilində 30-dan artıq erməni ilə yaxın təmasda olmuş, müsəlman əhaliyə qarşı müxtəlif planlar hazırlamışdı. Bəzi rus diplomatları Türkmənçay müqaviləsindən sonra İrandan müharibə xərclərinin alınmasını prioritet məsələ hesab etsələr də, Qriboyedov onlardan fərqli olaraq ermənilərin Şimali Azərbaycan torpaqlarında yerləşdirilməsini daha vacib hesab edirdi. Erməniləri İranla həmsərhəd əyalətlərə köçürməklə Rusiya bu ərazilərdə özünə etibarlı canlı dayaqlar yaratmaq və etibar etmədiyi Azərbaycan əhalisi yaşayan Naxçıvan, İrəvan və Qarabağda etnik vəziyyəti kökündən dəyişmək istəyirdi.

1827-ci ilə qədər Şimali Azərbaycana 80 min rus kazakının köçürülməsi planı var idi. Lakin Qriboyedov Tiflisdə diplomatik şöbəyə rəhbərlik etdiyi dövrdə bu planı rədd edərək, ermənilərin köçürülməsi ideyasını vermiş və bu fikrin rəsmi dairələrdə təsdiqinə nail olmuşdur.

Bu proses İrəvanda milliyyətcə erməni olan polkovnik Lazarevin rəhbərliyi ilə həyata keçirilirdi. Qısa müddətə 8 min erməni ailəsi (40 min nəfər) Şimali Azərbaycan torpaqlarında yerləşdirildi. Köçürülən ermənilərə Rusiya xəzinəsi və İrandan alınmış müharibə xərcləri hesabına maliyyə yardımı da edilirdi. Ümumiyyətlə, 1828-ci ildən 1913-cü ilə kimi mərhələ-mərhələ şimali Azərbaycan ərazisinə 1 milyon nəfər erməni köçürülmüşdür.

1828-ci ildə çar qoşunları Təbrizi işğal etdikdən sonra məhz Qriboyedovun təşəbbüsü ilə "Tutulmuş əyalətin (yəni Cənubi Azərbaycanın) idarə edilməsi haqqında əsasnamə" tərtib edilmişdir.

A.S.Qriboyedov təkcə Cənubi Qafqazda və İranda deyil, Yaxın və Orta Şərqdə Rusiyanın mövqelərini möhkəmlətmək üçün dəridən-qabıqdan çıxırdı. Onun tərtib etdiyi "Təlimat layihəsi" də bu məqsədlərə xidmət edirdi. A.S.Qriboyedov Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın zəngin yeraltı və yerüstü sərvətlərini Rusiya müstəmləkəçilərinin malı etmək məqsədilə 1827-ci ildə Tiflisdə Rusiya-Zaqafqaziya kompaniyası yaradılması haqqında təkliflər vermiş və bu işə Rusiyanın tanınmış iş adamlarını, sahibkarları cəlb etmişdir. Gələcəkdə tanınmış gürcü və erməni iş adamlarının da bura cəlb olunması nəzərdə tutulmuşdu. Onun bu layihəsində yerli müsəlman iş adamlarının nəzərə alınmaması bu əhaliyə qarşı düşmən mövqeyindən irəli gəlirdi.

Rusiya İranla Türkiyə arasında olan ziddiyyətləri qızışdıraraq bundan öz mənafeyi üçün istifadə etməyə çalışır, iki müsəlman dövlətini bir-birinə qarşı qoymaqla hər ikisini zəiflətmək və işğalçı niyyətlərini reallaşdırmaq istəyirdi. Bu təcavüzkar siyasətin də həyata keçirilməsinin əsas ideoloqlarından biri A.S.Qriboyedov idi.

1828-ci ilin yazında başlamış Rusiya-Türkiyə müharibəsində çar ordusunun qələbəsini təmin etmək üçün Türkmənçay müqaviləsinin şərtlərinin yerinə yetirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu zaman Cənubi Azərbaycan ərazisində yerləşdirilmiş 25 minlik rus ordusundan Türkiyəyə qarşı istifadə etmək üçün A.S.Qribayedov öz fəaliyyətini daha da genişləndirirdi.

Rusiyanın əksinə olaraq İngiltərə isə İranla Türkiyə arasında ziddiyyətlərin aradan qaldırılmasına çalışır və bu dövlətlərin gücündən Rusiyaya qarşı istifadə etməyi planlaşdırırdı.

Türkmənçay sazişi bağlandıqdan sonra I Nikolayın göstərişi ilə Senat 1828-ci il aprelin 25-də Tehranda "səlahiyyətli nazir", Təbrizdə baş konsulluq açılması barədə qərar verdi. Elə həmin vaxt A.S.Qriboyedovun İrana səlahiyyətli səfir təyin edilməsi çarın və Rusiyanın yüksək diplomatik dairələrinin bu şəxsə necə yüksək eti-

mad göstərdiklərini sübut edir. O özündən əvvəl və özündən sonra İranda səfir olmuş bütün rus diplomatlarından yerli əhaliyə düşmən münasibəti və ermənipərəstliyi ilə fərqlənmişdi. Lakin rus və sovet tarixşünaslığında, həmçinin müasir rus tarixşünaslığında akademik M.Neçkinanın belə bir yanlış fikri müdafiə olunur ki, guya A.S.Qriboyedov dekabristlərin tərəfdarı olduğuna görə, çar onu Peterburqdan uzaqlaşdırmaq üçün bu vəzifəyə təyin etmişdir. Lakin faktlar bu fikirləri təkzib edir. Onun İrana səfir təyin edilməsinin əsas səbəbi çara sədaqətlə qulluq etməsi və işğalçılıq siyasətinin həyata keçirilməsində bir diplomat kimi canfəşanlıq göstərməsi idi.

A.S.Qriboyedova öz ölkəsində müsbət yanaşılmasının əsas səbəbi həm bir diplomat kimi çar Rusiyası hüdudlarının genişləndirilməsindəki rolu, həm də yazıçı olması ilə əlaqədardır. İndinin özündə də çox az rus ziyalısı tapılar ki, Rusiyanın tarixən yeritdiyi işğalçı siyasətə mənfi münasibət bəsləsin. Deməli, Qriboyedova Rusiya vətəndaşlarının gözü ilə deyil, işğala məruz qalmış, təcavüz nəticəsində faciələrə düçar olmuş xalqların gözü ilə baxmaq daha düzgün olardı.

Səfir təyin olunan kimi A.S.Qriboyedov səlahiyyətlərindən sui-istifadə etmiş, özünü mütləq hakim kimi aparmağa başlamışdı ki, bu da onun və köməkçilərinin faciəsi ilə nəticələnmişdi.

"Səlahiyyətli nazir" təyin olunan kimi o, 40 nəfərlə əvvəl Təbrizə, Azərbaycan hakimi Abbas Mirzənin sarayına, daha sonra isə Tehrana yollandı. Onun bilavasitə göstərişlərilə "böyük elçiliyin əməkdaşları" Türkmənçay müqaviləsinin 13 və 15-ci maddələrinə istinad edərək xristian əsrləri qurtarmaq, erməniləri yubanmadan Şimali Azərbaycana köçürmək bəhanəsilə İran vətəndaşlarının daxili işlərinə qarışır, istədikləri evə girərək vəhşiliklər edirdilər. Qəzvin şəhərində ruslar bir seyidin evinə soxularaq, onun İslam dinini qəbul etmiş milliyyətcə alman olan kəbinli arvadını zorla özləri ilə aparmaq istəmişlər. Qadının kəskin etirazından və əhalinin qəzəbindən çəkinərək sonradan onu öz evinə buraxmağa məcbur olmuşlar.

A.S.Qriboyedov ermənipərəst siyasət yeritməklə Azərbaycan əhalisinə həm maddi, həm də mənəvi zərbələr vurmuşdur. Orta Şərqdə çox zəngin kitabxana sayılan, Şah İsmayılın oğlu Şah Təh-

masibin və xüsusilə nəvəsi Şah Abbasın qayğısı ilə qədim dövrün bütün qiymətli əlyazmalarının toplandığı Ərdəbil Darülirşad ("Haqq evi"), Şeyx Səfiəddin kitabxanası Qriboyedovun başçılığı ilə qarət edilərək, üzünü çıxarmaq bəhanəsi ilə Rusiyaya göndərilmişdir.

Burada toplanmış əlyazmaların bir hissəsi parqament üzərində, digərləri kağız üzərində miniatür boya sənətinin inciləri olan şəkillərlə bəzənmiş nadir sənət əsərləri idi. Tiflisdə Abbasqulu Ağa Bakıxanov çox böyük dəyəri olan 166 əlyazmanın ilk kataloqunu hazırladıqdan sonra bu sənət inciləri Peterburqa göndərilmiş və indi də orada saxlanılmaqdadır.

Bundan başqa qənimət kimi Peterburqa göndərilən əşyalar içərisində Abbas Mirzənin taxtı, iranlı ustaların əli ilə tökülmüş 7 top və Abbas Mirzənin döyüş şücaətlərini təsvir edən iki rəngkarlıq əsəri də var idi.

1829-cu il yanvarın 12-də Tehrana yetişən A.S.Qriboyedov və köməkçiləri burada da özlərini ləyaqətsiz aparmış, diplomatik normaları kobud surətdə pozmuşlar. Onlar kazaklarla birlikdə sərxoş vəziyyətdə bazar və küçələrdə hay-küy salır, "xristian əsiri" axtarmaq bəhanəsi ilə evlərə soxulurdular.

Bundan başqa Qriboyedovun şaha qarşı saymazyana, dikbaş davranması, şah hərəmxanasının başçısı erməni Mirzə Yaqubu (Markaryanı) öz himayəsinə götürməsi, baş vəzir Allahyar xanın evindən iki erməni qadınını sorğu aparmaq adı ilə səfirliyə gətirərək, hətta şahın da xahişini rədd edərək geri qaytarmaması və digər hərəkətlər şəhər əhalisinin hiddətinə səbəb olmuşdur. Bütün bunlar onun faciəsi ilə nəticələnmişdir.

Tehranın ruhani başçısının çağırışı ilə yüz mindən artıq əhali Qriboyedov və onun dəstəsinin gizləndiyi səfirlik binası qarşısına toplaşdı. Qriboyedovun əmri ilə gözətçilər dinc əhaliyə atəş açdı və bunun nəticəsində çoxlu sayda insan yaralandı. Rusların atəşi ilə 14 yaşlı bir uşağın ölümü isə əhalinin səbir kasasını daşdırdı. Onlar binaya daxil olaraq Qriboyedovu və 53 nəfər səfarətxana sakinini (onların 15 nəfəri erməni idi) öldürdülər. Qriboyedovun və digər iki rusun cəsədi üç gün paytaxt küçələrində atlara bağlanaraq sürüdüldü

və yalnız dördüncü günü bir neçə erməni şəhərin kənarına tullanmış cəsədləri xəlvətcə dəfn etdilər.

Beləliklə, Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda təcavüzkar siyasətinin ideoloqlarından biri olan A.S.Qriboyedov öz cinayətkar əməllərinin qurbanı oldu. [14; 15]

## *Sumqayıt üsyanı*
## *(7 noyabr 1963-cü il)*

Sovet hakimiyyəti illərində mövcud olan totalitar sistem bu rejimə qarşı baş verən etiraz aksiyalarını, üsyanları daim xalqdan gizli saxlamışdı. Belə hadisələrdən biri uzun müddət xalqdan gizli saxlanılan 7 noyabr 1963-cü ildə baş vermiş Sumqayıt üsyanıdır. Üsyan XX əsrin 50-ci illərinin axırı-60-cı illərinin əvvələrində iqtisadiyyatda buraxılan kobud səhvlərə, sovet rəhbərliyinin yeritdiyi səhv siyasətə qarşı çevrilmişdi.

Şəhər partiya təşkilatının orqanı olan “Sosialist Sumqayıtı” qəzetinin 12 noyabr 1963-cü il tarixli sayında həmin hadisənin baş verdiyi günlə bağlı “Sumqayıtlıların bayram nümayişi” başlıqlı geniş reportaj verilsə də, hadisə barədə susmağa üstünlük verilmiş və bu hadisə 30 ilə yaxın xalqdan gizlədilmişdir. Tamamilə məxfi qrif altında hadisə ilə bağlı arxivlərdə saxlanılan sənədlərin son zamanlara qədər tarixçilərin istifadəsinə verilməməsi bu hadisə haqqında hər hansı tədqiqatların aparılmasına imkan verməmişdi. Qeyd etmək lazımdır ki, Sumqayıt hadisəsinə qədər SSRİ-nin digər ərazilərində, 1957-ci ildə Rusiyada Moskva ətrafında Podolsk şəhərində, 1959-cu ildə Qazaxstanın Temirtau şəhərində, 1961-ci ildə Azərbaycanın Kirovabad (indiki Gəncə) şəhərində, 1961-ci ildə Rusiyanın Altay vilayətinin Biysk şəhərində, 1961-ci ildə Rusiyanın Krasnodar, Murom və Aleksandrov şəhərlərində, 1961-ci ildə Osetiyanın Beslan şəhərində, 1962-ci ildə Rusiyanın Novoçerkassk şəhərində və digər ərazilərdə sovet hakimiyyəti əleyhinə etiraz aksiyaları, üsyanlar, iğtişaşlar baş vermişdi.

83 millət və xalqın nümayəndələrinin yaşadığı Sumqayıt şəhərində bu günə qədər bir sıra mühüm hadisələr baş vermişdi ki, bunlardan 7 noyabr 1963-cü il və 27-29 fevral 1988-ci il tarixlərində baş vermiş hadisələr daha çox diqqəti cəlb edir. Bu hadisələrin hər ikisi Sumqayıtda baş versə də, mahiyyət etibarilə bir-birindən kəskin fərqlənirlər. Əgər 7 noyabr 1963-cü il üsyanı şəhər əhalisinin sovet rejiminə qarşı, o dövrdə yeridilən siyasətə qarşı çevrilmişdisə, 27-29 fevral 1988-ci il hadisəsi erməni mərkəzləri tərəfindən Azərbaycana qarşı planlı şəkildə qabaqcadan hazırlanmış bir təxribat idi. Erməni mərkəzləri təxribatları gücləndirmək, düşmənçiliyi qızışdırmaq və azərbaycanlıların DQMV və Ermənistandan qovulmasını sürətləndirmək məqsədi ilə bu hadisəni törətmişlər.

SSRİ-nin digər ərazilərində baş vermiş anti-sovet üsyanlar, etiraz aksiyaları ilə yanaşı Sumqayıt üsyanı haqqında da məlumatlar XX əsrin 80-ci illərin axırlarında aşkara çıxarılmağa başlanmışdı.

Sov.İKP MK Baş katibi M.S.Qorbaçov1988-ci ildə SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri V.Çebrikova SSRİ-də 1957-1988-ci illərdə baş vermiş kütləvi ixtişaşlar haqqında məxvi arayış hazırlanmağı tapşırmış və bundan sonra digər hadisələrlə yanaşı Sumqayıt hadisəsi barəsində də məlumatlar işıq üzü görməyə başlamışdı. Bu arayışda yazılmış məlumatlar yalnız SSRİ dağıldıqdan sonra xalqa məlum olmuşdur. Arayışda 7 noyabr 1963-cü il tarixdə baş vermiş Sumqayıt hadisəsi haqqında qısa olaraq qeyd olunur ki, 800 nəfərin iştirakı ilə baş vermiş kütləvi ixtişaşda bir nəfər yaralanmış, 6 nəfər həbs olunmuşdur.

Hadisədən sonra, 16 noyabr 1963-cü il tarixdə Azərbaycan KP Sumqayıt şəhər təşkilatının plenumunda hadisə geniş müzakirə olunsa da, hadisəyə düzgün siyasi qiymət verilməyib. Plenumda Sumqayıt Şəhər partiya komitəsinin birinci katibi Nadir Balakişiyev, katib Ramiz Məmmədzadə, Sosialist Əməyi Qəhrəmanı Məzahir Abdullayev və digər iştirakçılar çıxış edərək hadisənin bir qrup sərxoş gənc tərəfindən törədildiyini qeyd etmiş, hadisənin baş verməsinə əsas səbəb kimi şəhərdə ideoloji işin zəif olmasını göstərmişlər. Qocaman kommunist Salman Salmanov öz çıxışında şəhər

rəhbərliyinə üzünü tutaraq “hadisə vaxtı tribunadan qaçdığınıza görə sizə ayıb olsun” demişdi.

Sumqayıtda baş verənlər daha sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 19 noyabr 1963-ci il tarixdə keçirilmiş geniş tərkibli iclasında müzakirə olunmuşdu. Bu iclasda da şəhərdə baş verənlərin əsil səbəbləri göstərilməyərək, ümumi müzakirələr aparılmışdı.

Sumqayıtda baş verənlərlə bağlı 11 noyabr 1963-cü il tarixdə açılmış çinayət işi müstəntiq Arutuyunov tərəfinfən yekunlaşdırıldıqdan sonra, 8-19 iyun 1964-cü il tarixində Ali Məhkəmənin qapalı iclasında təqsirləndirilənlərə hökm oxunmuşdu. Əvvələr özlərini təqsirkar bilməyən 6 nəfər Sumqayıt sakini, sonradan təcridxanada onlara verilən işgəcələrin nəticəsində sərxoş vəziyyətdə bunları etdiklərini boyunlarına almışlar. Həbs olunarkən onlardan üçünün yaşı 22, birinin 23, birinin 25, ən yaşlısının isə 36 yaşı olmuşdu. Onlar Cinayət Məcəlləsinin 72-ci maddəsi ilə təqsirli bilinərək azadlıqdan məhrum edilmişlər.

Həbs olunanlar aşağıdakı şəxslər idi:

- 1938-ci ildə Yardımlı rayonunda anadan olmuş – Miriş Bulud oğlu Əlmirzəyev
- 1940-cı ildə Tovuz rayonunda anadan olmuş – Səməndər Adil oğlu İbrahimov
- 1941-ci ildə Astara rayonunda anadan olmuş – Yaşar Museyib oğlu Mahmudov
- 1941-ci ildə Nuxa rayonunda anadan olmuş – Ənvər Məhərrəm oğlu Mahmudov
- 1941-ci ildə Saatlı rayonunda anadan olmuş – Nikolay İvanoviç Şevçenko
- 1927-ci ildə Qubadlı rayonunda anadan olmuş – Asif Humay oğlu Bayramov

Faktlar sübut edir ki, həbs edilmiş gənclərə qarşı irəli sürülmüş ittihamların heç bir əsası olmamış, məhkəmənin qərarı yuxarıların sifarişi əsasında qəbul olunmuşdu. Çünki əhalinin sosial-iqtisadi problemlərini həll etməkdə aciz olan sovet rəhbərliyi hadisənin

əsil səbələrini ört-basdır etməyə çalışırdı. Onların bunun güya bir qrup gənc tərəfinfən sərxoş vəziyyətdə, təsadüfən törədildiyini bildirməsi reallıqdan çox uzaq idi. [21]

### *Erməni mərkəzlərinin Sumqayıt təxribatı (27-29 fevral 1988-ci il)*

Qarabağ ərazisində iki azərbaycanlı gənc qətlə yetirildikdən sonra ermənilər yeni cinayətkar planlarını həyata keçirməyə başladılar. Onlar azərbaycanlıların öz ata-baba torpaqlarından, Ermənistan və Dağlıq Qarabağ ərazisindən qovulmasını sürətləndirmək üçün ictimai-siyasi və ekoloji problemlərin kəskin olduğu, 83 millət və xalqın nümayəndələrindən ibarət 230 mindən artıq əhalinin yaşadığı Sumqayıt şəhərində qırğın törətmək qərarına gəldilər. Sumqayıtda mövcud olan problemlər başqa şəhərlərə nisbətən faciənin təşkilatçılarının planlarına daha çox uyğun gəlirdi.

Akademik Z.Bünyadov "Niyə Sumqayıt?" məqaləsində baş vermiş hadisələrin əsl mahiyyətini aşkara çıxarmağa çalışıb. Müəllif məqalədə Sumqayıt hadisəsinin erməni mərkəzləri tərəfindən törədildiyini faktlarla sübut edərək yazırdı:"Sumqayıt faciəsi erməni millətçiləri tərəfindən şüurlu şəkildə qabaqcadan planlaşdırılmışdı. Faciənin baş verməsinə bir neçə saat qalmış şəhərə erməni tele və foto müxbirlər gizli surətdə gələrək, hadisənin baş verməsini gözləmişlər. Azərbaycanlı sifətində ilk cinayətkar aksiyanı erməni Qriqoryan törədərək beş Sumqayıt ermənisini qətlə yetirmişdi... Bu dövrdə milislərə nəinki silah, hətta adi dəyənək gəzirmək qadağan olunmuşdu. Ertəsi gün Stepanakertdə "Sumqayıt soyqırım qurbanlarına" tökmə abidə ucaldılmışdır"

Hadisənin qabaqcadan xüsusi təxribatçı mərkəzlər tərəfindən təşkil olunduğunu sübut edən çoxlu sayda faktlar mövcuddur. Məsələn, Stepanakertdə Sumqayıt hadisəsinə aid abidənin qabaqcadan hazırlanması, hadisədən qabaq şəhərdə nömrəsiz maşınlarda qara gödəkçəli adamların peyda olması və hadisədən sonra onların yoxa çıxması, hadisə ərəfəsi şəhər hüquq-mühafizə orqanlarının fəaliyyə-

tinin dayandırılması, tabel silahlarının alınması, erməni millətindən olan imkanlı şəxslərin əksəriyyətinin əmanət banklarında olan pullarını götürərək, hadisədən iki gün əvvəl şəhərdən çıxması və s. faktlar bunu sübut edir. Bu cinayətin icrasında müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatlarının rolu böyük olmuşdur.

Faciənin əsas təşkilatçılarının hadisə baş verdiyi vaxt aşkara çıxarılmamasında şəhər və respublika rəhbərliyi arasında hadisə ərəfəsində ziddiyyətlərin olması da müəyyən rol oynamışdı. Məhz bunun nəticəsində, hadisələrin əsl səbəblərini araşdırıb, düzgün nəticə çıxarmaq əvəzinə, Azərbaycan KP MK "Sumqayıt şəhər Partiya Komitəsi Bürosunun əhali arasında təşkilatçılıq işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında" (16 mart 1988-ci il) qərar qəbul etməklə öz səbatsızlığını nümayiş etdirdi. Bu qərarla Azərbaycan KP rəhbərliyinin faciənin əsas təşkilatçılarını deyil, şəhər rəhbərliyini günahkar hesab etməsi həmin dövrdə cinayətin əsl təşkilatçılarının ifşa edilməsinə mane oldu. [20]

### *Topxanada nə baş vermişdi?*

Çağdaş Azərbaycan tarixinin şanlı səhifələrindən birini təşkil edən sovet imperiyasına qarşı geniş vüsət almış 18 gün davam etmiş meydan hərəkatı 70 illik bir rejimin zaman-zaman toplanmış problemləri nəticəsində baş versə də, bunun üçün qığılcım məhz Topxana meşəsində ermənilərin törətdiyi təxribat olmuşdur.

17 noyabr 1988-ci il Meydan hərəkatının başlamasının bir çox səbəbləri olsa da yaddan çıxarmaq lazım deyil ki, mitinq ermənilərin Topxanada apardıqları qeyri - qanuni tikinti işlərinə etiraz dalğası ilə başlamışdı. Hadisə isə bu cür baş vermişdir:

"SSRİ Əlvan Metalurgiya Nazirliyinin Ermənistan SSR-də yerləşən Kanaker alüminium zavodunun direktoru R.N.Enqonyan DQMV XDS İcraiyyə Komitəsinin sədri S.A.Babayana xalq təsərrüfatı məhsulları istehsal edən kooperativin yaradılması üçün Əsgəran rayonu Engels adına kolxozun ərazisində 10 hektar torpaq ayrılması üçün 31 avqust 1988-ci il tarixli 006-3186 saylı məktubla mü-

raciət etmişdir. Məktubda Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin aqrar-sənaye kompleksində istehsal sahələrinin inkişafı haqqında 22 noyabr 1987-ci il tarixli qərarı əsas kimi göstərilmişdir. Bu müraciətin qeyri-qanuniliyi onda idi ki, Ermənistanın hər hansı bir zavodu kooperativ yaratmaq üçün öz ərazisindən deyil, Azərbaycan ərazisindən torpaq ayrılmasını istəyirdi. Bu açıq-aydın SSRİ-nin o zamanki böhranlı vəziyyətindən istifadə edərək Azərbaycan ərazisinin zəbt olunmasına cəhddən başqa bir şey deyildi. Bu müraciət DQMV Xalq Deputatları Sovetinin 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciətindən sonra ermənilərin növbəti təxribatı idi. Topxanaya qarşı ermənilərin təxribatı ilə münaqişənin yeni mərhələsinin əsası qoyuldu. Bu kimi təxribatların həyata keçirilməsi üçün Ermənistan SSR və DQMV-də "Kurunk" və "Qarabağ" komitələri mitinq, nümayiş və tətillər həyata keçirir, dövlət orqanlarına təzyiq göstərirdilər. Bu zaman onların Moskvadaki havadarlarının köməkliyi ilə separatçı planların həyata keçirilməsinə cəhdləri daha da artmağa başlamışdı. Ermənilər tikinti işlərini başlamaqla həm Azərbaycan torpağını zəbt etmək, həm də Azərbaycanın təbiətinə, konkret desək Topxana meşəsinə ekoloji cəhətdən ziyan vurmaq məqsədi güdürdülər.

S.A.Babayan 1988-ci il sentyabrın 3-də həmin məktubun üstünə tikinti və arxitektura şöbəsinin müdiri V.Q.Osipyana ünvanlanmış aşağıdakı dərkənarı qoydu: "Xahiş edirəm, məcburi surətdə yer ayırın. Məsələ razılaşdırılıb."

Burada haqlı olaraq belə bir sual meydana çıxır. Görəsən, S.A.Babayan Azərbaycan torpağının Ermənistana vermək üçün məsələni kiminlə razılaşdırıb? SSRİ qanunlarına görə bu məsələ SSRİ və Azərbaycan rəhbərliyi ilə razılaşdırılmalı idi. Lakin sənədlərdə onun bu məsələni kim ilə razılışdırdığı göstərilmir. Ola bilsin ki, bu qeyri-qanuni addımı atmaq üçün ermənilərin Moskvadakı havadarları ilə şifahi razılaşmaları olub. Lakin bunun heç bir hüquqi əsası olmadığına görə ermənilərin bu hərəkəti o zaman vəzifə səlahiyyətini aşmaq, özbaşınalıq, azğınlıq kimi qiymətləndirilməli idi.

V.Q. Osipyan isə torpaq ayrılması ilə bağlı 16 sentyabr 1988-ci il tarixli 01-66 nömrəli məktubla Əsgəran Rayon XDS İK-nin sədrini əvəz edən V.Köçəryana müraciət edib. Nəhayət, torpaq sahəsinin ayrılması ilə bağlı A.Ağababyan və A.Əsriyanın imzası ilə 28 oktyabr 1988-ci il tarixində 32/212 saylı qərar qəbul olunmuşdur. Qərarda Topxananın adı dəyişdirilərək Xaçentapa kimi göstərilmişdir. Topxananın adının Xaçentapa kimi göstərilməsinin düzgünlüyünü sübut etmək üçün Ermənistan KP MK-nın orqanı olan "Kommunist" qəzetinin 4 dekabr 1988-ci il tarixli sayında rus dilində "Topxana yoxsa Xaçen – tapa" adlı məqalə də çap olunmuşdu. Sonradan ermənilər Xaçınçay, Xaçbulaq və digər adlar kimi Xaçentəpənin də Azərbaycan adı olduğunu görərək Topxananın adını ikinci dəfə dəyişişərək "Tsaxkasar" qoydular. Bundan sonra A.Ağababyanın sərəncamı ilə işi sürətləndirmək üçün xüsusi komissiya yaradıldı.

Təsdiqlənmiş tikintinin baş planına görə ermənilər yeni qəsəbə salmaq üçün işləri Cıdır düzündən yaxşı görünən 3, 4 və 5-ci sahələrdə başlayaraq Xankəndi istiqamətində deyil, Şuşa tərəfə genişləndirməyi nəzərdə tutmuşdular. Deməli, bu planda qeyd olunduğu kimi ermənilər bu ərazidə kiçik kooperativ deyil, böyük şəhər salmağı planlaşdırırdılar ki, bu da haqlı olaraq azərbaycanlıların narazılığına səbəb olmuşdur.

Bu məsələ ilə əlaqədar ilk dəfə Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsi həyacan təbili çalaraq 16 noyabr 1988-ci il tarixdə SSRİ və Ermənistan SSR rəsmilərinə tikintinin qanunsuz olduğunu və təbiətə böyük ziyan vuracağı haqda etiraz teleqramları göndərmişdir.

Bu hadisədən xəbər tutan Azərbaycan xalqı Bakının azadlıq meydanına toplaşaraq respublika rəhbərliyindən iki gün ərzində bu təxribata son qoymağı tələb etmiş və bununla da Azərbaycan tarixinə "Milli dirçəliş günü" kimi daxil olmuş Meydan Hərəkatı başlanmışdır. [18; 19]

## *Ermənistana köməyə gedən 77 Azərbaycanlıya qarşı təxribat*

1988-ci ilin dekabrında Ermənistanda baş verən zəlzələ zamanı vəziyyətin gərginliyinə baxmayaraq bir qrup azərbaycanlının təyyarə ilə köməyə göndərilməsi və onların ermənilər tərəfindən bilərəkdən qəzaya uğradılması növbəti faciələrdən birini təşkil edir. Təəssüf ki, bu hadisə tədqiqatçılar tərəfindən lazımi səviyyədə araşdırılmayıb.

Zəlzələdən dərhal sonra Azərbaycan hadisə yerinə yüzdən artıq avtokran, buldozer, ekskavator,70 min ton benzin, dizel yanacağı, ağ neft, 1200 ton duru bitum, 90 min ton mazut, 2800 ton maşın yağı göndərmişdi. Leninakana, Spitak və Kirovakana 20 hərəkət edən yanacaq doldurma məntəqəsi, çoxlu sayda boru, kabel hədiyyə edilmişdi. Zərərçəkənlərə ilk tibbi yardım göstərmək üçün Bakıdan sanitar maşınlarla on tibbi briqada göndərilmişdi. 1988-ci ilin ortalarında 700412 saylı hesaba Azərbaycan 5 milyon rubl ianə köçürmüşdü. Ermənilər isə bu köməyin əvəzində SSRİ xalq deputatı Muradyanın rəhbərliyi ilə zəlzələdən ziyan çəkmiş azərbaycanlıların yaşadığı Qursalıdan əhalinin zorla çıxarılmasına nail olmuşdular. Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavininin rəhbərliyi ilə əhali vertalyotlarla Azərbaycanın Qazax rayonuna köçürülmüşdülər. Bundan başqa İL-76 təyyarəsində köməyə gedən 77 azərbaycanlı bilərəkdən qəzaya salınmış, bunlardan 76 nəfəri həlak olmuş, yalnız bir nəfər F.Balayev möcüzə nəticəsində sağ qalmışdı. Ona yardım göstərən həkim və digər tibbi personala erməni eksterimistləri hədələyici vərəqlər göndərərək, ona yardım edənlərin cəzalandıralacaqlarını bildirilmişlər. [23, s.97]

## *Azıx mağarası ilə bağlı erməni saxtakarlığı*

Azərbaycanın tarixinin, mədəniyyət abidələrinin ermənilər tərəfindən saxtalaşdırılmasına aid çoxlu sayda faktlar mövcuddur. Daş dövrünə aid Azərbaycan abidəsi olan Azıx mağarasına aid fakt-

ların saxtalaşdırılması fikrimizcə erməni saxtakarlığının ən yüksək həddə çatdığını sübut edir. Daş dövrünə aid Azıx mağarasında "erməni qadını" tapmağa cəhd olunması dünya tarixində görünməmiş saxtakarlıq nümunəsidir.

Azıx mağarasında aşkar olunmuş ən qədim ocaq qalığının 700 min ilə yaxın yaşı var. 1968-ci ildə Məmmədəli Hüseynov tərəfindən keçmiş SSRİ-də ən qədim insan qalığı, Azıxantropun alt çənə sümüyü tapılmışdır ki, bunun da yaşı təxminən 350-400 min ilə yaxındır.

Azıx mağarasının tədqiqatçısı, prof. Məmmədəli Hüseynov "Ədəbiyyat və incəsənət" qəzetinin 22 dekabr 1989-cu il sayındakı "Böhtanlar və həqiqətlər: Azıx mağarası və elmi mənbələrə saxta münasibətlər" adlı məqaləsində erməni saxtakarlığını elmi şəkildə, faktlarla ifşa etmişdir.

Azıx mağarası ilə bağlı saxta fikirlər yayan ermənilərin əksəriyyəti bu sahənin mütəxxəssisi deyillər. Onlardan biri arıçı, digəri muzey işçisi, o birsi isə yazıçıdır.

Arıçı Suren Osipyan Moskvada nəşr olunan "Pçelovodstva" jurnalının 1974-ci il tarixli 1-ci sayında yazdığı məqaləsində qeyd edirdi ki, guya mağarada üstündə quş və bal arısı rəsmi olan müxtəlif böyüklükdə və formada gildən hazırlanmış küp qablar üzə çıxarılmışdır. Mağarada 300 min il bundan əvvəl yaşamış neandertal adamlar vəhşi arılardan bal tutmaqla məşğul olmuşlar. Qaya üzərində üstündə arı olan bal pətəyi rəsmi və ibtidai insanların bal əldə etmək üçün ov rəsmləri də göstərilmişdir. Müəllif yaxşı bilirdi ki, yazdığı bu yalanın üstünü açmaq oxucu üçün, xüsusilə də rusiyalı oxucusu üçün praktik cəhətdən mümkün deyil. Ona görə də həmin yazıda müəllif daha böyük yalanlara əl atır ki, bu da müsəlman əhaliyə, xüsusilə də azərbaycanlılara qarşı təxribatdan başqa bir şey deyil. Osipyan yazır: "Orta əsrlərdə Dağlıq Qarabağda, xüsusilə Qanzasar monastrında müdafiə və hücum məqsədilə xüsusi yerlərdə hərbiləşdirilmiş arılar saxlayırlarmışlar. Ərəblər, iranlılar, türklər, monqollar buraya hücum edərkən həmin vəhşi arıları dağın başından düşmənin üstünə buraxırmışlar".

Bu cür yazılar ermənilərin Qarabağda yerli, azərbaycanlıların isə gəlmə əhali olması haqqında cəfəng fikirləri oxucuların beyninə yeritmək məqsədilə çap olunurdu ki, sovet dövləti də bu cür cəfəngiyyatların yayılmasına yaşıl işıq yandırırdı.

Şaqen Mkrtıçyanın "İstoriko arxitekturnıe pamyatniki Naqornoqo Karabaxa" adlı kitabında da eyni məzmunlu saxtakarlığa rast gəlmək olar. O, heç bir elmi əsas olmadan yazırdı ki, "Azıx mağarasında aşel dövrünə aid erməni qadınının heykəli indiyə qədər qorunub saxlanmışdır." Mütəxxəssislər bu fikirlərin ağ yalan olduğunu bilsələr də, sadəlövh oxucular, xüsusilə də başqa millətlərdən olan oxucular bütün bunların yalan olmasından əksər halda xəbərsiz olurlar.

Bu cür üzdəniraq "mütəxxəssislər" öz uydurmaları ilə uzun illər Azərbaycanın ayrılmaz ərazisi olan Dağlıq Qarabağda separatçılıq üçün ideoloji baza hazırlamışlar.

Erməni müəlliflərinin yazdıqları bəzi saxta fikirlər Azərbaycan oxucusunda acı gülüş doğursa da, yaddan çıxarmaq lazım deyil ki, ermənilər məhz bu üsullarla bütün dünyada öz təbliğatlarını qurmuş və indi də bu yaramazlıqlarını eyni üsullarla davam etdirirlər.

Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, erməni düşmənçiliyinə, separatizminə qarşı mübarizədə digər sahələrdə olduğu kimi həm də tariximizin saxtalaşdırılmasına qarşı da ciddi mübarizə aparılmalıdır. [7; 8]

***Osmanlı İmperiyası***

1299-ci ildə əsası qoyulmuş 1 noyabr 1922-ci ildə süqut etmişdir. Ərazisi 1.800.000 km$^2$ olmuşdur. Mövcud olduğu dövrdə 192 dəfə müharibəyə qatılmış, bunlardan 26-sında məğlub olmuş, 11-də nəticə olmamış, 155-ində qələbə çalmışdır. [27, s.315]

***Qaramanlıların hərbi taktikası – "Qaramanın qoyunu, sonra çıxar oyunu"***

1243-cü il Kösedağ savaşından sonra Səlcuqlar geri çəkilmiş, güclü Moğal (tatar-moğol) ordusu Anadolunu istilaya başlamışdı. Konyaynı tutduqdan sonra Kerimüddin Qaramanın vaxtında təxminən 1258-ci ildə Qaramanın üzərinə hücum etmişlər.

Moğol ordusu Qaradağa doğru irəlləyirdilər. O zaman Qardağ meşələri çox sıx idi. Qaramanlılar öz ordularının əsas hissəsini meşədə gislədərək güclü Moğol ordusuna qarşı çox bəsit bir hərbi hiylə işlətmişlər. Qaraman əsgərlərinin bir hissəsi qoyun dərisinə bürünərək sürünün içərisinə qarışaraq qarşı tərəf irəlləmişlər. Moğol ordusu qoyunlardan tutaraq onları bişirib, yeyib-içib məst olduqdan sonra, onlar qoyun dərilərini üstlərindən ataraq hücüma keçmişlər. Onlara meşədəki ehtiyyatda duran əsgərlər də köməyə gəlmişlər. Moğol ordusu məhv edildi, tək-tük canın qutarıb qaçanlar "Qaramanın qoyunu, sonra çıxar oyunu" deyimini ətrafa yaydılar. [26, s.167]

***Sultan Mehmed Fatehin Dərvişə cavabı***

Sultan Mehmed Fateh İstambulu fəth etdikdən sonra ordusu ilə birlikdə şəhərə girərkən dərvişlərdən biri onun atının yüyənindən tutaraq dedi:

– Padşahım İstambulu biz dərvişlərin duaları sayəsində aldığını unutma.

Fateh dərvişin bu halına və sözünə xəfifcə gülərək dedi:
– Doğru söyləyirsən.
Sonra əli ilə qılıncına işarə edərək dedi:
– Amma sən də bu qılıncın hakkını unutma! [25, s.257]

### *Fatehin Napolyondan üstünlüyü*

Napolyon Bonapart Müqəddəs Yelena adasında sürgündə olarkən ondan Sultan Mehmed Fateh böyükdür yoxsa siz? Sualı ilə müraciət edənlərə belə cavab vermişdir:

" Böyüklükdə mən onun heç şagirdi ola biləmərəm. Çünki mən, qılıncla zəbt etdiyim yerləri həyatda ikən geri vermis bir bədbəxtəm. O isə, fəth etdiyi yerləri nəsildən nəsilə keşməsinə nail olmuş bir bəxtiyardır." [25,s.101]

### *Kölnümü fəth etdiyi üçün*

Sultah Mehmet Fatehdən soruşurlar:
– İstambulu niyə fəth etdin?
Cavab verir**:**
Öncə o mənim kölnümü fəth etdiyi üçün. [25, s.204]

### *Dövləti yıxan üç şey*

Sədrəzəm Pir Mehmet Paşa Yavuz Sultan Səlimə dövləti yıxan üç şey haqqında bunları bildirib:

- Sədrəzimlik bu və ya digər səbəblərlə elm və məharətli adamlara verilməzsə; cahil, axmaq, qeyri ciddi insanlara təslim edilərsə…
- Rüşvət qapısı açılır; hər cür fəsad pulla qanuni hala gətirilir, idarə orqanlari səriştəsiz əllərə təhvil verilirsə…
- Hökümətin yüksək vəzifələrində oturanlar xanımlarının istək və kaprizləri istiqamətində işləyən hala gəlirsə…O zaman bu dövlətin yıxılması qaçılmaz olur. [26, s.62-63]

### *Türk atının basdığı yerlər Türkiyəyə aiddir*

1518-ci ildə III Muradın dövründə Səfəvilər müharibənin dayandırılmasını və Qanuni Sultan Süleymanın dövründəki sərhədləri əsas götürərək sülh bağlanmasını təklif etmişlər. Əgər bu təklif qəbul edilərdisə son vaxtlar tutulmuş torpaqların hamısı Səfəvilərə geri verilməli idi.

Bu təklifə cavab olaraq Osmanlı elçisi belə cavab vermişdir:

– Türk atının basdığı yerlər Türkiyəyə aiddir. [26, s.163]

[*P.S – M.Z. Əslində Osmanlılar və Səfəvilərin hər ikisi türk dövləti, mindikləri türk atı olduğundan Osmanlı elçisinin son sözün bu cür yazılması daha düzgün olardı: "Osmanlı atının basdığı yerlər* Osmanlı torpağıdır ].

### *Ağqoyunluların müttəfiqinə Fateh Sultanın cavabı*

Trabzon Rum İmperatoru David Kommen qohumu Uzuan Həsənə güvənərək türklərə verdiyi vergini kəsərək, daha əvvəl verdiklərini də geri istəməyə başlamış və elçilərini Osmanlı sarayına göndərmişdir.

Fateh Sultan elçilərə belə demişdir:

– Haydı indi siz gediniz, mən özüm gəlib borcumu ödəyərəm. [25, s.255]

## *Hökümdarların bir-birini aşağılayan hərəkətlərinə dair lətifələr*

### *Fateh Sultan Mehmetdən Uzun Həsənə hədiyyə*

Uzun Həsən fateh Sultan Mehmedə hədiyyə olaraq bir qutu göndərir, qutunun içində ilan, əqrəb kimi həşəratlar vardı.

Buna müqabil Fateh də hədiyyə olaraq bal göndərir.

Niyə belə davrandığını soruşduqda:

"Hədiyyə hər kəsin özü üçün qiymətli olanı verməsi deyilmi? deyə suala cavab vermişdi. [25, s.25]

### *Yavuz Sultan Səlimin hədiyyəsi*

Yavuz Sultan Səlim Xan dönəmində İran hökümdarı (M.Z. – Azərbaycan Səfəvilər dövlətinin banisi) Şah İsmayıl qiymətli ləl-cavahiratla dolu bir hədiyyə sandığını hökümdara göndərir.

Sandıq açılır içindən çeşid-çeşid qiymətli daş, qaş, qiymətli atlas, dəyərli kumaş parçalar çıxır. Lakin sandıq açılar, açılmaz ətrafı çox pis iy bürüyür.

Əvvəl nadir ləl cavahiratla dolu sandıqdaki bu iyi heç kim başa düşə bilmir. Sonradan məsələ anlaşılır ki, sandığın dibinə insan nəcisi doldurulmuşdur. Şah İsmayılın məqsədi Yavuz Sultan Səlimə həqarət etmək idi.

Bunun cavabında Yavuz Sultan Səlim dəyərli hədiyyələr və qumaş parçalarla dolu bir sandıq hazırlatdırır. Sadığın dibinə isə nəfis gül qoxulu lokumlar qoyur. Elçilər hədiyyələri şaha təqdim etdikdən sonra şahı və onun ətrafdakıları lokumlara qonaq etməyə başlayırlar. Şah Sultan Səlimdən bu cür nəzakət gözləmədiyindən olanları anlamağa çalışır. Elçi şahı nigarançılıqdan qurtarmaq üçün sandığın dibində Səlimin yazıb qoyduğu məktubu ona verir. Onun şaha yazdığ cavabda təhqir dolu sözlər yer almışdı: "İsmayıl, hərkəs yediyindən hədiyyə edər." [25, s.22]

### *II Səlimin Şah I Təhmasibin elçisinə cavabı*

Süleyman Qanunidən sonra hakimiyyətə gəlmiş II Səlimi (Sarı Səlim) təbrik etmək üçün İran Şahı (M.Z.: Azərbaycan Səfəvilər dövlətinin hökümdarı Şah I Təhmasib) Ədirnəyə Şah Qulu adlı elçisini göndərir.

II Səlimin əmri ilə Şəmsi Paşa gözəl geyinmiş, təmtərəqlı bir kiçik ordu ilə hədiyyə karvanını uzaq məsafədən qarşılamağa çıxmışdı.

Şah Qulu Osmanlı əsgərlərinin bu hərəkətini anlamayaraq demişdir:

– "Uzaqdan əsgərlərinizi gəlin alayına bənzətdim"

Şəmsi Paşa elçinin bu sözlərdən dərhal sonra 1514-ci il Çaldıran döyüşündəki düşmənçiliyi yada salaraq cavab vermişdir:

– “Bəli haqlısınız. Çaldıranda da gəlin almağa gələn bu əsgərlərdi.” [25, s.258]

*(II Səlim və ya Sarı Səlim (24 sentyabr 1566-15 dekabr 1574) 11-ci Osmanlı sultanı və 90-cı İslam xəlifəsi, Sultan Süleyman Qanuni və Xürrəm Sultanın oğlu.*

*(Şah I Təhmasib (1524-1576) -Səfəvilər dövlətinin 2-ci şahı və I Şah İsmayılın oğlu.)*

### ***Osmanlı dövlətinə ən çox yardım edən Hindistan müsəlmanları olub***

Osmanlı İmperiyasına düşmən olan qüvvələr onun daxilində sepatizmə, üsyanlara dəstək verərək dövləti zəiflətməyə çalışırdılar. Bu zaman Xilafətin təmsilçisi hesab olunan Osmanlıya dünyanın hər yerindən yardımlar gəlirdi. Bu yardımlarda önəmli yeri Hindistan müsəlmanları tuturdu.1913-cü ilin mayına qədər Osmanlı dövləti üçün dünyada toplanan yardımın yarsından çoxunu Hindistan müsəlmanları göndərmişlər. [26, s.17]

### ***Xınalı Əli***

Cəbhəyə yeni gələn əsgərdən komandiri onun adının Əli, özünün də Tokatın Zilə qəzasından olduğunu öyrəndi. Daha sonra onun saçının ortasının xınalı olduğunu görərək səbəbini soruşdu. Əli bunu əsgərliyə gələrkən anasının etdiyini, ancaq səbəbini bilmədiyini dedi. Bundan sonra komandir onu Xınalı Əli deyərək çağırmağa başladı.

Əsgər yoldaşları da onun bu halına lağ etmələrinə baxmayaraq qısa müddətdə yoldaşlarının məhəbbətini qazanmağa nail oldu.

Bir gün o, əsgər yoldaşlarından anasına məktub yazmağı xahiş etdi. Əli söylədi, əsgər dostu yazdı. Məktubda o, valideynlərinə ürək-dirək verdikdən sonra, anasına müraciətlə yazırdı: “Ana can sən məni bura göndərərkən başıma xına yaxmışdın. Buna görə komandirim, əsgər yoldaşlarım mənə lağ edirlər. Bu yaxınlarda qardaşım Əhməd də cəbhəyə yollanacaq. Onu cəbhəyə göndərərkən başına xına yaxma. Anacan əllərindən öpürəm,”

Bundan az sonra Əlinin bölüyü döyüşə yollandı və heç biri geri dönmədi.

Bu hadisədən bir qədər sonra Əliyə ana və atasından cavab məktubu gəldi. Komandir məktubu oxuyanda göz yaşlarını saxlaya bilmədi. Atası məktubda yazırdı: "Oğlum bizdən nigaran qalma. Öküzü satıb pulun yarısını sənə göndərdik. Yarsını da bu yaxınlarda cəbhəyə yollanacaq qardaşına verəcəyik. İndi isə ananın sənə sözü var, onu dinlə. Ana yazırdı:

"Oğlum Əli, yazırsan ki, başındakı xınaya görə komandirin və yoldaşların sənə lağ edirlər. Qardaşıma da xına yaxma demişdin. Qardaşına da xına yaxdım. Komandirinə və yoldaşlarına söylə ki, sənə lağ etməsinlər. Bizdə üç şeyə xına yaxarlar:

"Gəlin gedən qıza, gedib ailəsinə, uşaqlarına qurban olsun deyə...

Qurbanlıq qoça, Allaha qurban olsun deyə...

Əsgər gedən igidlərimizə, vətənə qurban olsun deyə...

Gözlərindən öpür, salam söyləyirəm. Allaha əmanət olun."

Əlinin komandiri məktubu oxuyarkən və onun yanında onu dinləyənlərin hamısı hönkür-hönkür ağlayırdılar. [26, s.33-35]

## *Çanaqqalada ilahi möcüzələr*

### *Allah nə deyirsə o olur*

Çanaqqala döyüşü davam etdiyi günlərin biri Ramazan bayramı ərəfəsi idi. Cəbhə komandiri Vehip Paşa 9-cu diviziyanın gənc imamını çağıraraq könülsüz şəkildə dedi:

Hafiz! Sabah Ramazan bayramıdır. Əsgərlər bayram namazı qılmaq istəyirlər. Nə qədər dedimsə, imtina edə bilmədim. Amma bu çox təhlükəli. Düşmən bunu bilib, top atəşi ilə əsəgərləri qıra bilər. Bəlkə sən əsgərləri başa salasan.

İmam Paşanın yanından ayrılan kimi qarşısına bir nur üzülü insan çıxdı və dedi:

– Oğlum sakın əsgərlərə bir şey söyləmə, gün ola xeyir ola, Allah nə deyərsə o cür olar.

Səhəri günü hamını təccübləndirən ilahi bir möcüzə yaşandı. Göydən iri lopa buludlar enərək qəlbləri allah eşqi ilə dopdolu olan əsgərlərin üzərini örtdü. Onları durbinlə izləyən düşmənlər sıx dumanda heç nəyi görə bilmədilər. O gün tamamilə başqa, mənəvi həyacan içində qılınan bayram namazının gur səsi səmaya yüksəldi.

Bu zaman ingilis hərbiçiləri arasında çaxnaşma baş verdi. İngilis müstəmləkələrində toplanaraq müharibəyə gətirilmiş müsəlman əsgərləri bayram namazının sədalarını eşidən kimi üsyana qalxdılar. Çaş, baş qalan, nə edəcəklərini bilməyən ingilislər üsyançıların bir hissəsini gülləyərək tələsik geri çəkilməyə məcbur oldular. [26, s.216-217]

*Çanaqqala "Dəniz savaşı"*

18 mart 1915-ci ildə Çanaqqalada qurulan mina xətləri ilə müharibənin taleyini dəyişdirən qəhrəman gəmi "Nusret" mina gəmisidir. 100 gəmisi və təxminən 250 ağır topçusu olan Müttəfiq Donanması, üç xətt təşkil edərək 18 mart 1915-ci ilin səhəri saat 10:00 radələrindən etibarilə Boğazı tutmağa başladı.

Müttəfiq Donanma Erenköyün qarşısındakı Qaranlıq Limana yaxınlaşdıqda, Nusret gəmisinin 8 mart 1915 səhəri bu əraziyə gizlicə atdığı və heç bir şəkildə nəzərə alınmayan 26 mina düşmənə ağır zərbə vurdu. İstanbulu ələ keçirmək istəyən Müttəfiq Donanması saat 19:00-da bu Boğazdan geri çəkilməyə məcbur oldu.

İngilis Donanmasının Irresistible, Okean və Fransız Donanmasını Bouvet döyüş gəmiləri batdı; Gaulois, Suffren və müttəfiq donanmanın digər döyüş gəmilərinə çox ziyan dəydi; bir çox zirehli maşın sahil batareyalarının atəşindən müxtəlif zərbələr aldı.

Şok effekti yaradan bu məğlubiyyət Müttəfiqlərin Rusiya ilə strateji inteqrasiyasının qarşısını aldı və Birinci Dünya müharibəsinin ağırlığını dözməyən Rusiyada çar rejiminin süqutuna səbəb oldu. [26]

### *215 kilo ağrılığında mərmini qaldıran qəhrəman*

Çanaqqala savaşları tarixə türk əsgərlərinin qəhrəmanlıq savaşı kimi düşüb. Bunlardan biri 18 mart "Dəniz Savaşı" haqqında danışarkən Rumeli Mecidiye Taborunda baş vermiş möcüzədən danışmamaq mümkün deyil. Bu qanlı döyüşdə düşmənin əsas hədəflərindən biri Rumeli Mecidiye Taboru olmuş, 16 topçu şəhid olmuş, topların bir qismi yararsız hala düşmüşdür. Batareya komandiri Yüzbaşı Hilmi bəy, Topçu Neferi Nigdeli Ali və danışaçağımız möcüzə qəhrəmanı Havranlı Koca Seyit sağ qalmışdılar. Batareyanın cəmi bir topu salamat qalmışdı ki, onun da vinti qırıldığından mərmiləri lüləyə qoymaq mümkün deyildi.

Yüzbaşı ətradkı birliklərdən yardım almaq üçün batareyadan uzaqlaşdığından Nigdeli Ali və Koca Seyid ümidsiz və pərişan idilər.

İngilis və Fransız gəmiləri dənizdən atəş açan-açan irəlləyəndə Koca Seyid anası Əminə xatunun öyrətdiyi duanı xatırlayaraq, ovuclarını açıb allaha dua etməyə başladı:

"Ulu və yüksək allahdan başqa bir güc və qüvvət yoxdur... Ey aləmlərin rəhməti. Mənim vücuduma elə qüvvə ver ki, məndən başqa heç bir bəndə də bu güc olmasın... Allahım, Allahım məndən qüvvəni əsirgəmə..."

Bu yalvarış heç kimsənin dualarına bənzəmirdi. Bu duaları sidqi ürəkdən etməklə Koca Seyid 215 kloqramlıq top mərmisin bir anlıq çiyninə alması bir oldu. Yanında olan Nigdeli Ali heyrət və dəhşətlə onun sümüklərinin şaqqıltısın aydın eşidirdi.

Əzəmət və qorxusu çox böyük olan bu hadisədə atılan üçüncü mərmi döyüşün müqəddəratın həll etdi. Çox müdüş olan bu hadisə, dənizdən qalxan alovlar sanki qiyamət günün baş verdiyini anladırdı. İngilislərin Okean zirehli gəmisi bu zərbə ilə yararsız hala düşdü.

Yüzbaşı Hilmi Bəy bu atəşdən düşmənin batan gəmisini görərək, tez topun yanına gələrək heyrətdən Koca Seyidi qucaqlayaraq dəfələrlə öpdü.

Bir azadan Canaqqala Boğazı İstehkam Komandanı Ceat Paşa gələrək qəhrəmanı təbrik etdi və ona mükafat olaraq on başı rütbəsi

verdi. Komandan Koca Seyiddən bu mermilərdən birini yenə də çiyninə qaldırmağı xahiş etdi. O isə belə cavab verdi:

"Mən bu mərmini qaldırarkən könlüm Allahın eşqi ilə doldu, özümdə başqa güc hiss etdim. Elmlə, ibadətlə əldə ediləsi bir şey deyil. Bu qüvvənin sirri o anda Allahın insana etdiyi bir vergi idi. Bu ağırlığı qaldıracaq qədər bir məqama çatmışamsa bu dua və riza ilə olmuşdur. Komandan amma indi qaldıra bilmərəm."

O dövrün ən yeni texnikası ilə silahlanmış düşmənə qarşı, köhnə silahlarıa döyüşən Türk Ordusunun fədakarlığı hər cür hörmətə layiqdir. [26, s.21-23]

### *Ermənilərin təhriki ilə – 15 min türk əsirin kor edilməsi*

I Dünya müharibəsi zamanı Qafqaz cəbhəsində, Sarı Qamışda 90 min türk əsəgərinin donaraq ölməsindən artıq çoxlarının xəbəri var. Lakin İngilislərin Misirdə saxlanılan 150 min türk hərbi əsirlərinə qarşı törətdikləri dəhşətlərdən çoxlarının xəbəri yoxdur.

İngilislər Misirin "Seyidbesir Kuveysna Osmalı Useray-i Harbiye Kampı" adlı həbsxanasında Fələstin cəbhəsində 1918-ci ildə əsir alınmış 16 dviziyanın 48 alayına aid Osmanlı əsgərlərini saxlayırdılar.12 iyun 1920-ci ilə qədər onlara qarşı olmazın işgəncələri, təhqirləri edilmişdir. İnsanlıq əleyhinə edilmiş bu cinayətlərin baş verməsinin əsil səbəkarları ingilislərə xidmət edən erməni tərcüməçiləri olmuşlar. Onların bilərəkdən etdiyi yalan təcümələr ingilis zabitlərini əsil türk düşməninə çevirmişdir. Müharibə bitmişdi. Həbsxanalardakı ağır işğəncələrdən ölənlərlə yanaşı sağ qalanlar ingilislərin marağında deyildi. Erməni tərcüməçilər ingilis zabitlərinin beyninə yeritmişdir ki, yeni müharibə olarsa əsirlərdən sağ qalanlar onlara qarşı vuruşacaqlar. Ona görə də əsirlərə qarşı qətliam həyata keçirilməsinə ingilisləri inandırmışdılar.

İngilislər hovuzlara həddində çox xrizol maddəsi tökərək mikroplardan təmizləmək bəhanəsi ilə əsrləri zorla, süngü gücünə hövuzlara girməyə mıcbur etdilər. Əsirlər ayaqlarını qaynar hovuza salmaq istəməsələr də zornan, göyə atəş açmaqla onları hovuzlara saldılar. Əsirlər ölməmək üçün başlarını suya saldılar, lakin sudan

başlarını qaldırarkən artıq onların gözləri görmürdü. Hamısını gözləri yanmışdı. Bununla bilərəkdən 15 min türk əsiri kor edildi.

Bu cinayətlə əlaqədar millət vəkilləri Faiqbəy və Şərəf bəy 25 may 1921-ci il TBMM-də məsələ qaldıraraq günahkarların cəzalandırılmasını istədilər. O zaman yeni yaranan dövlətin problemləri çox olduğundan bu işi davam etdirmək olmadı. [27,s.239-240]

### *Atatürkün ingilis ataşesinə cavabı*

Cümhuriyyətin elanından sonra İstambulda bir ziyafət verilir. Dünya ölkələrinin elçiləri və ataşeləri bu ziyafətə dəvət edilirlər. Ziyafət gözəl bir şəkildə davam edərkən Mustafa Kamal ingilis ataşesi olan, polkovnikin baxışları gözündən qaçmır. Bütün ziyafət boyunca həmin ateşe Mustafa Kamala tərs-tərs baxmaqda davam edir.

Bunu səbəbini öyrənmək üçün Müstafa Kamal yavərini onun yanına göndərir. Yavər qayıdaraq Mustafa Kamala deyir:

– Paşam, ondan nəyə görə bu cür tərs-tərs baxdığını soruşdum. O, “Mustafa Kamal Çanaqqalada mənim atamı öldürdüyünü söylədi”

Buna cavab olaraq Mustafa Kamal dedi:

– Get soruş baxaq görək onun atasının Çanaqqalada nə işi varmış? [25, s.20; 27, s.298]

### *Ahmet Necip Fazıl Kısakürekdən məntiqli cavab*

Türk şairi, yazıçısı, islamcı ideoloq Ahmet Necip Fazıl Kısakürek (1904-1983) ona qarşı təşkil olunan məhkəmədə ona edilən təzyiqlərə əsəbləşərək “buradakıların yarısı eşşəkdir” deyir.

Bu sözlərdən bərk sinirlənən hakim ondan sözünü geri götürməyi tələb edir.

Ustad tüpürdüyünü yalamayaraq, hakimə ağıllı cavab verir:

“Tamam, sözümü geri götürürəm, buradakıların yarısı eşşək deyil.” [25,s.199]

### *Tarixi dəyişdirən meymun*

Yunanstan kralı I Aleksandros İngiltərənin yardımı ilə Türkiyəni məğlub edəcəyinə inanırdı. 1919-cu ildə Neuilly və 1920-ci ildəki Sevr sazışləri ilə Osmanlılarda İzmir ilə şərqi və qərbi Trakiyanı, Bolqarstandakı Trakiya torpaqlarını almışdı. Daha sonra o Anadolu torpaqlarını da almağa cəhd edirdi. Türkiyə üzərinə geniş hücum ərəfəsi təşkil etdiyi ziyafətdə qonaqlara "Gələn həftə İstanbulda verəcəyim ziyafətə hamınız dəvətlisiniz" demişdi.

O gecə Yunan kralının çoşquları səhərə qədər davam etdi. Böyük zəfərin xəyalı ilə yaşayan I Aleksandros səhər tezdən hava almaq üçün baxçaya çıxdı. Bu zaman ağacda duran bir meymun onun üzərinə atılaraq qolundan dişlədi. Bundan sonra onun halı pisləşməyə başladı, məlum oldu ki, kral qudurub. Bir az sonra ağlını tamam itirərək, başını divara vuraraq, əl-qol ataraq öldü. [3, s.285]

### *Qafqaz Qartalının rus çarına cavabı*

Tarixdə "Qafqaz Qartalı" adlandırılan Şeyx Şamil ruslara əsir düşdükdən sonra bir gün çar onun iştahla yemək yediyini görərək "Komandan bu iştahla məni də yeyəcəyindən qorxuram" deyir. Bundan ətrafdakılar qəh-qəhə çəkərək gülərkən Qafqaz Qartalı cavabı onları susdurmuşdu:

"Çar həzrətləri narahat olmayın. Mən əlhəmdürullah müsəlmanam və donuz əti yemərəm, çünki haramdır." [25, s.227]

### *Şeyx Şamillə II Aleksandrın dialoqu*

Şeyx Şamil çar idarəsi tərəfindən əsir edildiyində, çar II Aleksandr ona "Sizin kimi böyük bir insanı müsafir etməklə iftixar edirəm" deyəndə Şeyx Şamil ona cavabı belə olmuşdu:

– "Siz mənim müsafirim olsaydınız mən daha çox iftixar edərdim".

### *Kilsədəki əşyaların məhşərdə şahidlik etməsi*

Qafqaz Qartalı Şeyx Şamil əsirlikdə olarkən ruslardan namaz qılmaq üçün yer istəmiş, onu sarayın kilsəsinə gətirmişlər.

Şeyx Şamil namaz hazırllaşan zaman, ruslar onun rahat namaz qılması üçün kilsədəki bütün üstünü örtməyə çalışmışlar. Şeyx Şamil buna müdaxilə edərək, qoyun elə qalsın deyərək bildirmişdi:

"Şamilin əsirlikdə və burada namaz qıldığına, məhşərdə o da şahidlik etsin." [25, s.229]

### *Rusiyanın Alyaskanı ABŞ-a satması*

ABŞ Rusiya imperiyasından Alyaskanı 30 mart 1867-ci ildə 7,2 milyon dollara satın alaraq öz ərazisinə qatmışdır. 1880 - ci ildən başlayaraq burada çoxlu qızıl yataqlarının tapılması 1890-ci illərdə çoxlu sayda amerikalıların Alyaskaya köçüb yaşaması səbəb oldu. ABŞ Konqresi 1912-ci ildə Alyaska Torpaqları adlı inzibatı ərazini yaratdı.1959-cu ilin 3 oktyabrında isə 49-cu ştat olaraq ABŞ-a qatıldı. 1968-ci ildə neft və təbi qaz yataqlarının kəşfi bu ərazilərin dəyəri daha da artdı. [27, s.228]

### *Yuri Qaqarinin kosmosda geydiyi paltarın ABŞ-a satılması*

1954-cü ildə SSRİ-də ilk atom elektrik stansiyası olan Obninski stansiyası işə düşdü. 1957-ci ildə ilk süni peyk orbitə çıxarıldı. 1959-cu ildə "Lenin" atom buzqıran gəmisi istifadəyə verildi. 1961-ci ilin 12 aprelində isə "Vostok" kosmik gəmisində dünyanın ilk kosmonavtı Yuri Qaqarinin kosmosa uçuşu həyata keçirildi. [35, s.186-188] Sovet rəhbərliyi bunu böyük qələbə kimi xalqa təqdim edir, sosializm sisteminin qərb sistemindən üstün olduğunu nümayiş etdirməyə çalışırdı. Lakin bu üzün çəkmədi və ABŞ kosmonavtlarının ayın səthinə çıxması ilə onların bu iddialarına son qoydu.

Sovet İttifaqının dağıldığı ərəfədə milliyyətcə rus olan Yuri Qaqarinin kosmosa uçarkən geyindiyi paltarın ABŞ-a satılması fikrimizcə adi bir məsələ deyil. Bu keçmiş SSRİ-nin varisi olan Rusiyaya heç də başı ucalığı gətirmir. Hazırda bu paltar Vaşinqtondakı "Kosmanavtika" muzeyində saxlanılır. Bəziləri buna adi fakt kimi baxa bilər. Lakin məsələyə ciddi yanaşdıqda görmək olar ki, amerikalıların hansı yollasa bu paltarı alaraq öz muzeylərində yerləşdirməsinin böyük siyasi əhəmiyyəti var. Milyardlara başa gələn kosmik layihələr və bu layihələr vasitəsilə elmi tədqiqatlarla yanaşı öz

gücünü nümayiş etdirməyə çalışan ABŞ və Rusiya yarışmasında bu faktın Rusiyanın imicinə böyük zərbə vurduğu şübhəsizdir. Muzeyin bələdçiləri SSRİ-nin qadın kosmonavtı Valentina Tereşkovanın Yuri Qaqarinin kosmosa uçarkən geyindiyi paltarını ABŞ muzeyində görərkən halının necə xarab olmasını gələn qonaqlara böyük həvəslə danışırlar.

Fikrimizcə dövlət rəhbərləri vətəndaşlarına mənəvi zərbə ola biləcək belə səhvlərə gələcəkdə yol verməmək üçün ciddi düşünməlidirlər. [6]

*Oğuz xanın nəsihətləri*

Əsil adı Mete olan, ən qədim Türk hökümdarı Oğuz xan bütün Asiyanı əhatə edən Böyük Türk imperiyasını qurdu.

Dövlətin başına keçdikdən sonra 26 krallığı özünə tabe etdi. Ən böyüyük savaşı Çinlə oldu. Çin imperiyasını məğlub edib, onu vergi verməyə məcbur etdi. Yaratdığı dövlətin sərhədləri Yapon dənizindən Volqa çayına qədər uzanırdı.

Oğuz dastanlarında o bu cür tanıdılır: Samur çiyinli, qurd belli bir igid. 40 gün ana südü əmdi, 2-3 yaşlarından at mindi.

Ömrünü başa vurana yaxın altı oğlunu və iyirmi dörd nəvəsini yanına çağıraraq əvvəl bir ox istədi, onu asanlıqla qırdı, bu cür davam edərək sonda on iki oxu bir yerə topladı, amma sındıra bilmədi. Bundan sonra aşağıdakı nəsihəti verdi: Bu misaldan dərs alın, bir-birinizə dəstək olun. [26, s.172-173]

*Çin səddi haqqında maraqlı faktlar*

- Çin səddinin inşasına ölkədə olan Chu, Qi, Yan, Vei, Han, Zhao, Qin kimi 20-dən artıq kiçik dövlətin mövcud olduğu zamanda (m.ö. 403 – m.ö 221-ci illər) başlanılmış, 2000 ilə qədər davam etmişdir.
- İnşaatda istifadə edilmək üçün əl arabası ixtira edilmişdir.
- Səddin uzunluğu 8.500 km-dir. 3.460 km. uzunluğunda olan əsas divarı daş və kərpicdən inşa edilib. Səddin qalan 2.860 km. hissəsi dik yamaclar və yüksəkliklərdən ibarətdir.
- Ming xanədanlığı dövründə 1 milyon əsgərin səddi mühafizə etdiyi bildirilir.
- Çin səddi tam hazır olmadığı 1211-1223-cü illərdə Çingiz xanın yaratdığı tatar-monqol dövlətinin qoşunları səddin yanından keçərək bir neçə dəfə Çinə daxil olmuşdur.

• İnsanların yaratdığı ən uzun abidədir. Çin səddi həmçinin tikintisində həddən artıq çox insan həlak olduğuna görə dünyaynın ən böyük məzarlıq hesab olunur.

• Çin səddində son savaş 1938-ci ildə baş vermiş Yapon- Çin müharibəsi olub. Divarlar üzərində güllə izləri bu günümüzə qədər qalmışdır.

• Mədəni inqilab dövründə (1966-1978-ci illər) Çin səddinə despotizmin simvolu kimi baxılırdı. İnsanlardan oradan götürdükləri daşları evlərində süvenir kimi saxlayırdı.

Çin səddinin tikintisində əsas məqsəd:

• Şimaldan Türk və monqol tayfalarının hücumlarından qorunmaq;

• İpək yolu üzərində səyahət edənləri qorumaq;

• Uzun müddət davam edən müharibələr zamanı əsir düşmüş insanları sürgün və ağır işlərə göndərməklə cəzalandırılmaq;

• Ölkədən kənara insanların qaçmasının qarşısını almaq;

• Ölkənin bir hakimiyyət altında birləşdiyini daxilə və xaricə göstərmək. [27, s.39-42]

### *Roma imperatoru Neronun sidik vergisi*

Sidik Vergisi (Latınca-Vectigal Urinae*)* Roma imperiyasında imperator Nero tərəfindən birinci yüzildə zorla toplanan vergi olmuşdur. Bu qəribə vergi barədə Roma tarixçiləri Suetonius və Dio Cassius məlumat vermişdir.

Bu vergini aşağı təbəqədən toplayıb, emalatxanalarda yunu ağartmaq üçün kimyəvi maddə olan amonyak kimi istifadə edirdilər. Bir müddət ləğv olunandan sonra Neronun oğlu Vespasian tərəfindən yenidən tətbiq olunaraq xalq tualetlərindən toplanmağa başlanıldı. Vespasianın adı hələ də Fransa və İtaliyada xalq tualetləri ilə əlaqədar işlədilir. Vespasianın oğlu Titus atasına bu verginin pis iyinin insanları iyrəndirdiyini deyəndə atası bir qızıl pul götürüb "No olet!" (iy gəlmir) demişdir. Bu kəlmə hazırda pulun çirki və ya təmiz olmasını bilmək üçün işlədilir. [27, s.81]

### *Makedoniyalı İsgəndərin son üç istəyi*

Ölüm ayağında Makedoniyalı İsgəndər sərkərdələrini çağırıb son üç istəyini bildirmişdi:

1. Tabutumu ən hörmətli, bacarıqlı həkimlər aparmalı
2. Əldə etdiyim var dövləti tabut məzara girənə qədər yol boyunca səpilməli.
3. Əllərim hər kəsin görə biləcəyi qədər tabutdan kənara çıxarılmalıdır.

Sərkərdələrdən biri həyacanla bunun səbəbini soruşduqda Böyük İsgəndər cavab vermişdir:

1. Ən hörmətli, bacarıqlı həkimlərin aparmasını buna görə istəyirəm: Hamı bilsin ki, həkimlər nə qədər yaxşı olurlarsa olsun, onlar da ölümün qarşısında acizdilər.
2. Yerlərə səpilmiş var dövlətim də göstərəcək ki, bü dünyada əldə etdiyimiz zənginlik, bu dünyada qalır.
3. Əllərim tabutdan kənara çıxsın və hamı bilsin: Bizim üçün ən dəyərli şey, vaxtımız bitdikcə, boş əllərlə doğulduğumuz kimi, boş əllərlə də gedərik! [27, s.22]

### *Pulun əmələ gəlməsi tarixindən*

M.ö. 5-ci yüzilliyində Anadolunun qərbində Lidiya dövlətində kral Gigesin vaxtında yumurta şəklində olan, üzərində krallığın emblem, qartal başı olan ilk pul sikkə ortaya çıxmışdır.

M.ö. 180-ci ildə Romalılar ilk gümüş sikkəni kəsib istifadə etmişlər. İslam aləmində ilk pul 639-cu ildə xəlifə Ömərin vaxtında kəsilmişdir. Pulun kağız, banknot forması 806-cı ildə Çində kəsilmiş və dövrüiyəyə buraxılmışdır. Qərbi Avropada ilk kağız pul 1660-cı ildə İsveçdə, Amerikada isə 1690-cı ildə kəsilmişdir. Türkiyədə ilk kağız pullar 1840-cı ildə Sultan Əbdülməcidin dövründə "Kaima" adı ilə kəsilmiş və dövrüyəyə buraxılmışdır. Türkiyə Cümhuriyyəti dövründə isə 1924-ci ildə 100 paralıq kağız pullar kəsilib. Para sözü türk dilinə fars dilində olan "pare" yəni "kiçik parka" sözündə keçmişdir. Hazırda dünyada 160 pul növündən istifadə olunur. [27, s.60-62]

Azərbaycan ərazisində tapılan ilk pullar Makedoniyalı İsgəndərin (Aleksandrın) dövrünə aiddir. Artıq milladan öncə III əsrin ikinci yarısından beynəlxalq ticarətə qoşulmuş albanlar və atropatenalılar daxili bazarın ehtiyaclarını ödəmək məqsədilə İsgəndərin gətirilmə sikkələrinə bənzər pullar zərb etməyə başladılar. Bu və sonrakı dövrlərə aid "AT" və "ATR" monoqramlı (numizmatlar bunu Atropat və ya Atropatena kimi oxuyurlar) gümüş dirhəmlər (draxmalar) Azərbaycan, Gürcüstan və Dağıstan ərazilərində geniş aşkar edilmişdir. Eyni zamanda Albaniyada isə Selevkilərin gümüş sikkələrinə bənzədilən pulların tədavülü miladdan əvvəl II-I əsrlərə təsadüf edir.

Azərbaycanın müstəqil pul təsərrüfatı və pul dövriyyəsinin tarixi yüzillik fasilədən sonra 1918-ci ildə Bakı Bələdiyyəsinin buraxdığı kağız pullarla başlanır.

1918-ci ilin yanvar-aprel aylarında dövriyyəyə buraxılmış 5, 15 və 50 qəpiklik xırda pul, 1, 3, 5, 10 və 25 manatlıq iri bələdiyyə pul vahidləri rənginə, kağızın ölçülərinin müxtəlifliyinə görə də bir-birindən fərqlənir.

1918-ci ildə yaradılan Bakı Şəhər Təsərrüfatı Sovetinin qərarı ilə təcili olaraq 10, 25 və 50 manat məbləğində yeni kağız pullar hazırlanıb dövriyyəyə buraxıldı. Bu pul vahidləri öz qüvvəsini 1918-ci il iyul ayının 31-də istefa verən Bakı kommunasından sonra itirsə də, 1918-1919-cu illərdə əhali arasında dövriyyə vasitəsi kimi işlədilirdi.

Azərbaycan Xalıq Cümhuriyyəti dövründə Azərbaycan Dövlət Bankı tərəfindən tədavülə 25, 50, 100 və 250 manatlıq əskinaslar buraxılmışdır. Bu dövrdə tədavülə buraxılan birinci kağız pul emissiyasına mənsub 100 manatlıq pul vahidinin bir neçə nüsxəsi, həmin ilin ortalarında buraxılmış 25 manat (I-VII seriyalı), 50 manat (I-XI seriyalı), 100 manat (I-VIII seriyalı), 250 manat (I-VII seriyalı) və 1920-ci ilin əvvəllərində dövriyyəyə daxil olmuş ən iri nominal - 500 manatlıq (I-IV seriyalı) pul vahidləri Azərbaycan Tarixi Muzeyində saxlanılır. Sonuncu "əskinasın" üzərində Azərbaycan Respublikasının və nominalın adı Azərbaycan, rus və fransız dillərində verilmişdir.

Pul nişanlarının emissiyası səlahiyyəti Dövlət Bankına mənsub idi. Bütövlükdə Xalq Cümhuriyyəti dövründə Azərbaycanda 2 milyard 345 milyon rubl məbləğində pul nişanları emissiya edilmişdir.

Azərbaycanda ikinci pul emissiyası 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının (ASSR) adından dövriyyəyə buraxılmışdır. Bu emissiya çərçivəsində birinci əskinas - 1000 rubl (böyük formatda), sonra isə 5 (2 variantda), 100 (2 variantda) və 1000 (kiçik formatda) manatlıq, 1921-ci ildə isə yeni dizaynla dörd yeni nominal – 5000, 10000, 25000 (2 variantda) və 50000 manatlıq əskinaslar tədavülə buraxılmışdır.

1922-ci ildə 3 yeni əskinas – 100000 (3 variantda), 250000 (2 variantda) və 1000000 (2 variantda) manatlıq əskinaslar, 1923-cü ilin əvvəlində isə 5 milyon manat nominallı pul nişanı dövriyyəyə buraxılmışdır.

1923-1924-cü illər ərzində Azərbaycan ərazisində Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) 4 pul emissiyası olmuşdur ki, 1-ci buraxılışa 5000, 10000, 50000, 100000, 250000, 500000, və 1000000 rublluq, 2-ci buraxılışa 500, 10000, 50000, 100000, 250000, 500000, 1000000, 5000000 və 10000000 rublluq, 3-cü buraxılışa 10000, 25000, 50000, 100000, 250000, 500000, 1000000, 5000000 və 10000000 rublluq nominallar daxildir. 1924-cü ilin əvvəlində ZSFSR hökumətinin qərarı ilə emissiya çərçivəsində tədavülə 25, 50, 75, 100, 250 milyon və 1 milyard rublluq əskinaslar buraxılmışdır.

Bu dövrdə ZSFSR tərəfindən dövriyyəyə dünya pul tədavülü tarixində yalnız bir dəfə 10 milyard nominallı əskinas buraxılmışdır.

1936-cı ildə qəbul edilmiş Konstitusiya aktına görə artıq Dövlət gerbində 11 respublikanın adının göstərilməsilə əlaqədar olaraq tədavülə buraxılan əskinaslarda dövlətin adı və pulun nominalı 11 dildə göstərilmişdir. Əskinaslar dövriyyədə 1947-ci il pul islahatlarına qədər qalmışdır. Sovet İttifaqı dövründə 3 pul islahatı (1947, 1961, 1991) həyata keçirilmişdir. [46]

Azərbaycan Respublikasının milli pul vahidi manat 15 avqust 1992-ci il tarixində dövriyyəyə buraxılmışdır. 1992-ci ilin avqustun-

da 1, 10 və 250 manatlıq əskinaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əskinas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əskinaslar dövriyyəyə buraxılmışdı. Azərbaycan Respublikasının 1-ci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilmişdir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 7 fevral 2005-ci il tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat AZN 5000 köhnə AZM-ə bərabər tutuldu və 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edildi. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əskinaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət oldu.

Manat sözünün mənası rus «монета» sözündən götürülüb. Həmin söz özlüyündə latın "moneta" sözündən yaranıb. Latın dilindən tərcümədə isə bu "məsləhətçi" deməkdir. [47]

### *Nərdi icad edən – Vəzir Buzur Mehir*

Qədim zamanlarda Hind hökümdarı İran hökümdarına bir Şahmat taxtasını, yanında da bir məktub göndərir. Məktubda şahmat oyunun ilə bağlı heç bir açqlama verilməyərək aşağıdakı sözlər yazılmışdı:

*"Kim daha çox düşünür, kim daha yaxşı bilir, kim da uzaq görəndisə o qazanır. Əsilində həyat budur."*

İran hökümdarı özünün vəziri, dövrün məhşur alimi olan Buzur Mehir ilə bu mesajın mənasını açmağa çalışır. Hökümdar vəzirdən oyunu başa düşməyi və qarşılığında Hindistan hökümdarına hədiyyə etmək üçün yeni oyun icad etməyi tapşırır. Vəzir Şahmatın daşlarını düzür həftələrlə fikirləşdikdən sonra 10 gün ərzində Nərd oyunu icad edir.

Baş Vəzir Buzur Mehr tərəfindən 1400 il öncə icad edilmiş Nərd sonradan dünyanın ən populyar oyunlarından biri olur.

Vəzir Nərdin mənasını aşağıdakı kimi izah edir:

1. İlin bir olmasına uyğun olaraq taxta bir dənədir;

2. Dörd köşəsi dörd fəsli bildirir;

3. Nərdin içindəki zərdəki 12 say (6+6) ilin 12 ayının göstəricisidir;

4. Qarşılıqlı 6 yerli 4 xanələr (4x6=24) günün iyirmi dörd saatını göstərir,

5. Daşların sayı 15+15= 30 ayın gününü göstərir;

6. Qara və ağ daşlar gecə ilə gündüzü bildirir;

Hind hökümdarına Şahmatın qarşılığında Nərd göndərilir və aşağıdakı sözlər yazılır:

*"Bəli, kim daha çox düşünür, kim daha yaxşı bilir, kim da uzaq görəndisə o qazanır. Amma bir az da şans gərəkdir. Əslində həyat budur."* [27, s.97-98]

***Sasani hökümdarı Ərdəşir Babəkana məsləhət***

Sasani hökümdarı Ərdəşir Babəkan həkimdən "bir gündə nə qədər yemək yemək lazımdır? deyə soruşduqda həkim:

– Yüz-yüz qram yetər demişdir.

Babəkan:

Bu qədər yemək insana nə qüvvət verər ki? Deyərək bunun az olduğunu bildirəndə həkim cavab vermişdir:

– Bu qədəri səni daşıyar. Bundan artıq olsa sən onu daşıyarsan**.** [25, s.239]

### *Orta əsrlər Avropasında natəmizliyə aid faktlar*

Avropada orta əsrlərdə şərq ölkələrindən fərqli olaraq hamam olmadığından, havalar soyuq keçdiyindən insanlar nadir hallarda çimərdilər. Osmanlı Sultanı II Bəyazidin vaxtında Moskvada gəlmiş Mixail Plachtnev adlı səfir uzun müddət çimmədiyindən pis iy verdiyi üçün İstambuldan qovulmuşdur. [26, s.152]

Bütün orta əsr Avropası kimi Yunanstan da ən bəsit təmizlik işlərindən məhrum bir ölkə idi. Şəhərlər zir-zibilin içində, evlər tövlələr kimi, insanlar kirin, pasın içində.

Fateh Sultan Mehmetin müəllimi Molla Gürani Yunanstandan danışarkən oradaki vəziyyəti qısa olaraq belə şərh etmişdir:

"Xocam, bunlar heç yuyunmamışlardır. "Yunan" yerinə bunlara "Yuyunmayan" demək daha doğru deyilmi?" [25, s.119]

### *İngilislərin may ayında toy etməmələrinin səbəbi*

İngiltərədə digər avropa ölkələrində olduğu kimi orta əsirlərdə antisnaitar vəziyyət hököm sürürdü. Orada XVI əsrdə insanların çoxu iyun ayında evlənirdilər. Çünki toy hamamlarına may ayında gedir, iyun ayında pis iy vermirdilər. [27, s.315]

### *İngiltərədə Al (Qırmızı) və Ağ qızılgül müharibələri*

Yüzillik müharibənin başa çatmasından az sonra İngiltərədə 1400-cü illərdə Lankaster və York sülalələri arasında ingilis taxtı uğrunda daxili müharibə başladı. Tarixdə bu müharibəyə Al və Ağ qızılgül müharibəsi deyilir. Bu müharibə 30 il (1455-1485) davam etdi. Lankasterlərin emblemi al, Yorklarınkı isə ağ qızılgül olduğundan müharibə belə adlandırılıb. Bir çox illər ərzində yorklar üstünlüyü əldə saxlamışdılar, amma Henri Tüdor Lankaster 1485-ci ildə Bosuort çölündə III Riçardı məğlub edərək Yelizaveta York ilə evləndi. Bu nikah düşmən sulalələrin barışmasına səbəb oldu. VII Henrix Tüdorun 1485-ci ildə taxta çıxması ilə İngiltərədə Tüdorlar

sülaləsi hakimiyyətə başladı (1485-1603). VII Henrix (1485-1509) itaət göstərməyən feodallara divan tutdu. Onun dövründə nümayəndələr palatasının hüquqları azaldıldı. XV əsrin sonu-XVI əsrin əvvəlində İngiltərədə kral hakimiyyəti xeyli gücləndi. [27, s.149]

### *Napolyon Bonapartın müəllimə verdiyi qiymət*

Fransanın məhşur imperatoru Napolyon Bonapart ordusu ilə birlikdə böyük qələbədən sonra Paris küçələrində keçərkən yaşlı bir adam izdihamı yara-yara, mücadilə edə-edə çalışaraq küçənin kənarına qədər gələ bilir. Lakin küçəni əhatəyə almış əsgərlər onu irəli getməyə qoymurlar. İmperatorun hüzuruna çıxmaq üçün çalışan bu adam Napoleonun gözünə sataşarkən "buraxın gəlsin" deyə göstəriş verdikdən sonra əsgərlərinə "Diqqət, hazır ol! Fransa gəlir!" əmri ilə onu salamladı. Çünki gələn adam Napolyonun müəllimi idi. [25, s.252]

### *II Dünya müharibəsində hərbi əsirlərə qarşı qanlı cinayət – Gorelli qırğını*

1943-cü ildə Yunanıstanın Kefaloniya adasında Faşist Almaniyası tərəfindən İtaliyanın döyüşdən imtina edən 11.500 əsgərinin öldürülməsi tarixə Gorelli qırğını kimi düşüb. Bu faciə haqqında "Yüzbaşı Gorellinin Mandolini" kitabına mənbə kimi istinad edilib.

Bu qətliam II Dünya müharibəsinin hərbi əsirlərə qarşı törədilmiş ən qanlı hadisəsi hesab olunur. Faşist Almaniyasının müttəfiqi olan İtaliyanın müharibədən çıxmasından sonra Yunanıstanın Kefaloniya adasında olan italiyan qarnizonu almanlara müqavimət göstərmişdi. Döyüşdə 1200-ə qədər italyan əsəgəri öldürülmüş, təslim olan 11.500 əsgər və 500 zabit isə almanlar tərəfindən qətl edilmişdir. Bu vəhşiliyə görə indiyənə qədər cəmi bir alman zabiti cəzalandırılıb. 1948-ci ildə ona 12 il həbs cəzası verilib.

İtalyan Ordusunda xidmət etmiş Luigi Ghilardi adlı bir keşişin əsgəri arxivindən tapılmış bir məktub prokurorlara hadisə ilə bağlı ip ucu vermişdir. Məktubda iki alman əsgərinin 170 əsiri öldürməkləri ilə öyündükləri qələmə alınmışdı. Hazırda bu kimi faktlara istinad edən İtalya prokurorları 86 yaşlı iki alman haqqında istintaq aparırlar. [27, s.256]

### *Marşal planı*

Bu plan ABŞ Xarici İşlər Naziri Georgi Marşal tərəfində 1947-ci ilin 5 iyununda Harvard Universitetindəki çıxışda irəli sürülmüşdür. 1948-1951-ci illərdə II Dünya müharibəsindən zərər çəkmiş 16 ölkə bu plandan yararlanmışdır. Bu ölkələrə ABŞ 15 milyard dollarlıq yatırım qoymuşdu. Bu plana görə Avropa ölkələri hər şeydən qabaq öz aralarında iqtisadi işbirliyi yaratmalı idilər. Sovet İttifaqı bu planı "ABŞ imperializminin bir oyunu" adlandırmışdır. [27, s.273-274]

### *Srebrenitsa soyqırımı*

Yuqoslaviyanın dağılması zamanı 1992-ildə serb hakimiyyətinin Bosniyada başladığı soyqırımın ardından BMT qüvvələri 6 bölgənin mühafizəsini öz üzərinə götürmüşdü. Bunlardan biri Bosniya və Herseqovinanın şərqində yerləşən Srebrenitsa idi. BMT sülhməramlıları asayişi qoruma adi ilə müsəlman əhalinin əlindən silahları yığılmışdı. Serblərin hücumu artdığı bir vaxtda müsəlmanlardan alınmış silahların geri qaytarılması tələbi Hollandiya komandiri Tom Karremas tərəfindən rədd edilmişdi. BMT ancaq iki F-16 qırıcı təyyarə ilə kəndin üzərindən bir uçuş etməklə işini bitmiş hesab etmişdi.

Srebrenitsa 11 iyul 1995-ci ildə Ratko Mladiçin komandanlığındakı serb birlikləri tərəfindən işğal edilməsindən sonra BMT tərkibində olan hollandiyalı əskərlərə sığınan sivil bosniyalılar, serblərə təslim edilib. Serblər, ən az 8 min 372 nəfər bosniyalı kişiləri meşəliklərdə və fabrikalarda, depolarda qətlə yetirib.

Öldürülən bosniyalılar kütləvi məzarlıqlarda basdırılıblar. Müharibədən sonra itkinləri tapmaq üçün hərəkətə keçilib. Toplu məzarlarda cəsədləri tapılan qurbanlar kimlik testlərindən sonra hər il iyulun 11-də Potoçari Xatirə Məzarlığında keçirilən xüsusi mərasimdən sonra dəfn edilirlər. İndiyə qədər 6 min 610 qurban torpağa tapşırılıb.

Sonradan serb generalının kəndi onlara təslim edən Holland kamandirinə hədiyyə etdiyi bir videodaki görüntülər cinayəti ortaya çıxarmışdı.

Bir həftə çəkən qətliam II dünya müharibəsindən sonra həyata keçirilmiş ən böyük cinayət kimi arxivlərdə yer alıb. [27,s.288-289]

*Mudros müqaviləsi*

Mudros Müqaviləsi – 30 oktyabr 1918-ci ildə Lemnoos adasının Mudros limanında imzalanıb. Müqvilə hərbi-dəniz qüvvələri Naziri Hüseyn Rauf Orbayın rəhbərlik etdiyi, Xarici İşlər Nazirinin müavini Reşat Hikmet bəy və Baş Qərargah polkovnik leytenantı Sadullah bəydən ibarət Osmanlı nümayəndə heyəti ilə Ağ dəniz donanmasının komandanı, İngilis admiralı Artur Calthorpun rəhbərlik etdiyi Antanta dövlətləri nümayəndə heyəti arasında imzalanmışdır. Türklər bu müqaviləni "Silah Bırakışımı Sözleşmesi" adlandırır. Müqavilə "HMS Agamemnon" ingilis hərb gəmisində imzalanmışdır.

Müqavilə 1920-ci ildən başlayaraq Türkiyənin mübarizəsi ilə qüvvəsini itirdi və 1922-ci ildə Mudanyada başqa bir "Silahsızlanma Sazişi" imzalandı.

**Müqavilə**

**Mudros (30 oktyabr 1918)**

1. Çanaqala və Qara dəniz boğazlarının açılması və Qara dənizə keçidin təmin edilməsi; Müttəfiqlərin Çanaqqala və Qara dəniz boğazları qalalarını işğalı.
2. Türk sularında bütün mina sahələrinin, torpedo borularının və digər maneələrin yerləşdiyi ərazilərin göstərilməsi və istənildiyi təqdirdə toplanması və ya aradan qaldırılması üçün kömək.
3. Qara dənizdəki minalarla bağlı bütün məlumatları vermək.
4. Müharibə əsirləri, saxlanılan və həbsdə olan ermənilər İstanbula toplanmalı və heç bir şərt qoyulmadan müttəfiqlərə təslim edilməlidir.
5. Yalnız sərhədlərə nəzarəti və daxili təhlükəsizliyin təmin edilməsi üçün tələb olunan hərbi hissələr qalmaqla Türk Ordusu təxirə salınmadan ləğv edilməli. (birliklərin canlı qüvvəsi və danışıqları daha sonra Müttəfiqlər tərəfindən Türkiyə Hökuməti ilə məsləhətləşmələr nəticəsində müəyyən ediləcəkdir.)

6. Bütün hərbi gəmilərin Türk ərazi sularında və ya Türkiyə tərəfindən işğal edilmiş sulardan gətirilməsi; Sözügedən gəmilərin hüquq-mühafizə və ya buna bənzər məqsədlər üçün zəruri hesab edilə bilən bəzi kiçik gəmilər istisna olmaqla Türk limanında və ya limanlarda saxlanılması.
7. Müttəfiqlər öz təhlükəsizliyini təhdid edən bir vəziyyət yaranarsa, istənilən bir strateji nöqtəni işğal edə bilərlər.
8. Müttəfiq gəmilərinin hazırda Türk işğalı altında olan bütün limanlar və sığınacaqlardan sərbəst istifadə etməsi və düşmən tərəfindən istifadənin qarşısının alınması; eyni şərtlər ticarət və ordunun ləğv edilməsi məqsədilə Türk sularında Türk ticarət gəmilərinə də şamil olunacaqdır.
9. Bütün Türk limanlarından və tərsanələrindəki hər cür gəmi təmiri obyektlərindən istifadə etmək.
10. Müttəfiqlər tərəfindən Toros tunel sisteminin işğalı.
11. İranın şimal-qərbindəki Türk birliklərinin müharibədən əvvəlki sərhədlərə təxirə salınmadan geri çəkilməsi üçün əvvəlcədən verilən əmr yerinə yetiriləcəkdir.Türk qoşunları Qafqazın bir bölgəsindən (Transqafqaziya, Zaqafqaziya) təxliyə edilməsi əvvəl irəli sürülmüşdü; Bu zonanın qalan hissəsinin boşaldılması, müttəfiqlər tərəfindən vəziyyət araşdırıldıqdan sonra, lazım gələrsə həyata keçiriləcək.
12. Türk səlahiyyətlilərinin informasiya almasını təmin edən qurğulardan başqa, bütün simsiz, teleqraf və kabel stansiyalarının müttəfiqlər tərəfindən nəzarət altına alınması.
13. Dənizçilik, hərbi və ticarətlə əlaqəli hər cür texnikanın məhv edilməsinin qarşısının alınması.
14. Ölkənin tələbləri yerinə yetirildikdən sonra türk mənbələrindən kömür, mazut və dəniz təchizatı almaq üçün Müttəfiqlərə imkanların yaradılması.Bu məhsulların heç biri ixrac olunmayacaq.
15. Türkiyənin də nəzarəti altında olan dəmir yollar daxil olmaqla, bütün Qafqaz dəmir yollarına insanların ehtiyaclarını nəzərə almaqla, mütəfiqlərin həmin yollardan istədikləri kimi istifadəsini təmin etmək üçün Müttəfiqlərin Təftiş məmurlarının

yerləşdirilməsi. Bu müddəa Batumun müttəfiqlər tərəfindən işğalını da əhatə edir. Türkiyə müttəfiqlərin Bakını işğal etməsinə heç bir şəkildə qarşı çıxmayacaq.

16. Hicaz, Əsir, Yəmən, Suriya və İraqdakı bütün qarnizonların ən yaxın Müttəfiq komandirinə təslim edilməsi və 5-ci maddədə göstərilən əmrin qorunması üçün tələb olunan hallar xaricində bütün qoşunların Kilikiyadan geri çəkilməsi.
17. Tripoli və Benqazidəki bütün Türk zabitləri ən yaxın İtalyan qarnizonuna təslim olmalıdır. Əgər onlar təslim olma əmrinə tabe olmadıqları təqdirdə, Türkiyə bu zabitlərə təchizat göndərilməsi dayandırır və onlarla ünsiyyətin kəsilməsini təmin etməyi öhdəsinə götürür.
18. Tripoli və Benqazidəki işğal olunmuş bütün limanların, Misrata da daxil olmaqla ən yaxın Müttəfiq qarnizonuna verilməsi.
19. Bir ay ərazində bütün alman, Avstriyalı dənizçilərin, əsgərlərin və mülki şəxslərin Türk ölkələrindən çıxarılması; uzaq ərazilərdə olanlar da mümkün qədər qısa zamanda çıxarılması.
20. 5-ci maddəyə uyğun olaraq ləğv ediləcək Türk Ordusunun nəqliyyat vasitələrinin, alət və avadanlıqların, silah və sursatların istifadəsi ilə əlaqədar əmrlərin yerinə yetirilməsi.
21. Müttəfiqlərin maraqlarını qorumaq üçün onların nümayəndəsinin Türkiyə Avadanlıq Nazirliyində təmsil olunması. Bu nümayəndəyə bu məqsəd üçün lazım olan bütün məlumatların verməsi.
22. Müttəfiq güclərin komandanlığı altında Türk məhbusların saxlanılması. Hərbi yaşı olmayan Türk mülki məhbusların sərbəst buraxılması məsələsinə baxılacaqdır.
23. Türkiyən mütləq Mərkəzi Dövlətlərlə [Almaniya, Avstriya] bütün əlaqələri kəsməlidir.
24. Altı erməni əyalətində [kənd sitte] qarşıdurma baş verərsə, müttəfiqlər bu vilayətlərin hər hansı bir hissəsini işğal etmək hüququnu əllərində saxlayırlar.
25. Müttəfiqlər ilə Türkiyə arasındakı düşmənçilik hərəkətləri yerli vaxtla 31 oktyabr 1918-ci il, cümə axşamı dayandırılacaq.

İki nüsxə olaraq, 30 oktyabr 1918-ci ildə Britaniya Krallığının Agamemnon Dəniz Gəmisində, Mondros limanında, Limnosda imzalanmışdır.

ARTHUR CALTHORPE
HÜSEYİN RAUF,
REŞAD HİKMET,
SƏDULLAH [29, s.148-149]

***Ağstafa müqaviləsi***
***(12 iyun 1920-ci il)***

Azərbaycan SSR ilə Gürcüstan Demokratik Respublikası arasında 1920-ci il iyunun 12-də imzalanmış Ağstafa müqaviləsində aşağıdakı məsələlər öz əksini tapmışdı:

- iki respublika arasında bütün hərbi əməliyyatların dayandırılması və tərəflərin bir-biri ilə möhkəm sülh və dostluq münasibətlərinə daxil olması,
- hərbi əsirlərin dəyişdirilməsi, sərhəd xəttinin müəyyənləşdirilməsi,
- bir il müddətinə qüvvədə qalacaq bitərəf zonaların yaradılması və burada heç bir hərbi hissənin yerləşdirilməməsi,
- Qırmızı körpü, Zaqatala qəzası ilə bağlı məsələlərin tənzimlənməsi,
- bir-birinin müstəqilliyini qeyd-şərtsiz tanımaları və bir-birinin daxili işlərinə qarışmaması,
- bir-birinin gerb və bayraq rəmzlərinin tanınması,
- diplomatik və konsulluq münasibətlərinin yaradılması,
- tərəflərin öz ərazilərində Azərbaycan və Gürcüstan hökümətlərinə iddia edən hər hansı qrup, təşkilat və şəxsin fəaliyyət göstərməsinə icazə verməyəcəkləri və onlara yardım etməyəcəkləri barədə öz üzərlərinə öhdəliklər götürmələri,
- bir-birinə əlverişli ticarət və iqtisadi şəraitin yaradılması,
- azad tranzit prinsipinin həyata keçirilməsi,

- tərəflərin vətəndaşların əmlaklarının qarşılıqlı surətdə qaytarılması,
- saziş imzalananadək Azərbaycan heyvandarlarının Gürcüstan yaylaqlarından maneəsiz və azad istifadə etməsi,
- vətəndaşların sərbəst öz vətənlərinə qayıtması və s.
- Bundan başqa dörd maddə ilə imzalanan digər sazişlə Azərbaycanın Gürcüsitana neft və neft məhsulları göndərməsi, əvəzində isə manufaktura məhsulları və kağız alması, tərəflərin bərabər qaydada ayırdığı vəsait hesabına Gürcüstanın Poylu körpüsünü bərpa etməsi və vətəndaşlara vurulan ziyanın ödənilməsi məsələləri tənzimlənilirdi. [19, s.53-54]

### *Hammurapi qanunu*

Babil kralı Hammurapi (m.ö.1728 – m.ö. 1686) qanunları Mesapatomiyada milladdan öncə 1760-cı ildə hazırlanan, tarixin ən qədim və mühafizə olunmuş yazılı qanunlarındandır. Bu qanunlar Akkat dilində bir daş üzərinə yazılmış, 1901-ci ildə fransız arxeoloqları tərəfindən aşkara çıxarılmışdı. Hammurapi bu qanunları ona yazdıranın "Günəş Tanrısı Şamaş" olduğunu söyləmişdi. Bu qanunlardan əvvəl isə – Ur kralı Ur-Namunun qanun kitabı (miladdan öncə 2050), Eşnunna qanun kitabı (m.ö. 1930) və İsinli Lipit-İştarın qanun kitabı (m.ö. 1870) mövcud idi.

Hammurapi qanunları 282 ittihamı həll edə bilən qanunlar toplusu idi. "Gözə göz, dişə diş" deyimi bu qanunlarda ortaya çıxmışdı. Qanunun 196-cı maddəsində deyilir: " Bir başqasının gözünü çıxaran adamım gözü çıxarılır, bir başqasının dişini qıran adamın dişi qırılır".

Hammurapi qanunları inşaatçılar üçün ilk yazılı qanun hesab olunur. Bu qanun inşaatçılar qarşısında aşağıdakı tələbləri qoyurdu:

- İnşaat işləri ilə məşğul olan bir adam başqa birisi üçün ev tikərkən işini düzgün və yetərincə çatışmazlıq olmadan həyata keçirməzsə, bu səbədən inşa edilən ev uçaraq ev sahibinin ölmünə gətirib çıxararsa, evi tikən adam ölüm cəzasına məhkum ediləcəkdir.
- Evin uçması ev sahibinin oğlunun ölümünə səbəb olarsa bu dəfə də evi tikən adamın oğlu ölüm cəzasına məhkum ediləcəkdir.
- Ev sahibinin köləsi ölürsə, evi tikən adam ev sahibinə kölə verməyə borcludur.
- Ev sahibinin hər hansı bir əşyasına ziyan dəyərsə evi tikən adam bunu ödəyəcək, işinə məsuliyyətlə yanaşmadığından və evi yetərincə düzgün inşa etmədiyindən öz imkanları ilə yeni ev inşa edəcəkdir. [3, s.25-26]

*Aquen qanunları*

Azərbaycanın dövlətçilik tarixində Aquen qanununun özünəməxsus yeri var. 21 maddədən ibarət olan həmin hüquqi sənəd 498-ci il may ayının 13-də Aquen məclisində qəbul olunduğuna görə, tarixdə bu qanun Aquen qanunu adı ilə məhşurdur. Elmi ədəbiyyatda sənədin 488-ci ildə qəbul edildiyi qeyd edilsə də, qanun III Mömün Vaçaqanın dövründə qəbul olunduğuna görə mütəxəssislər bunu 498-ci ilə aid edir.

Bu qanun bir hökümdarın, yəni III Vaçaqanın hökmü ilə deyil, Albaniyanın müxtəlif əyalətlərinin başçıları və dini rəhbərlərin iştirakı ilə kollektiv şəkildə qəbul olunması onun elmi dəyərini daha da artırır. Baxmayaraq ki, Aquen məclisi feodalizm cəmiyyətinə xas toplantı idi, bu məclisi müəyyən mənada ilkin burjua cəmiyyətlərinin parlamentləri ilə müqayisə etmək mümkündür. Çünki Aquen məclisində qəbul edilmiş qanunlar kollektiv əməyin məhsulu olmaqla yanaşı, məclis iştirakçılarının ümumi razılığı ilə qəbul olunmuşdur. Bundan başqa bütün Alban zadəganları bu sənədə öz möhürlərini vurmaqla təsdiq etmişlər. Yaddan çıxarmaq lazım deyil ki, bütün bunlar milad təqviminin V əsrində baş verirdi. Bu fakt Azərbaycan qanunvericilik sisteminin necə qədim tarixi ənənlərə malik olduğunu göstərir.

Aquen məclisində çar III Vaçaqanla yanaşı Partav arxiyepiskopu Şubhaliş, həmin şəhərin keşişi Mate, Qapaq yepiskopu Manas, Haşu yepiskopu Yunan, Euta yepiskopu Anani və Saak, Kaqanat kəndinin keşişi İosif, çar sarayının keşişi Toma, Giqaç keşişi Poqos, Teri şəhəri yepiskopu Şmavon, Taraqoç keşişi Mate, Bed keşişi Abikaz, Ayırmanuş keşişi Urbat, Arsaq azatları və tayfa başçıları, keşişlər İovel, Parmide və İakov, Kaqanat başçısı Bakur və başqaları iştirak etmiş və öz möhürləri ilə qanuna səs vermişlər.

Albaniyada hökumdar Urnayrın vaxtında milad təqviminin 313-cü ilində rəsmi olaraq xristianlıq dövlət dini kimi qəbul olunmuşdu. Köhnə bütpərəst məbədlərinə aid olan torpaqlar, əmlak alınıb kilsənin ixtiyarına verilmişdi. Kilsənin xeyrinə kəndlilər üzərinə ayrıca vergi qoyulmuşdu. Lakin xristianlığın rəsmi dövlət dini kimi

qəbul edilməsinə baxmayaraq, köhnə dinin təsiri qalmaqda davam edirdi. Buna görə də Urnayrdan sonra II Vaçe və III Vaçaqan bütpərəstlik dini görüşlərinin aradan qaldırılması üçün çox ciddi tədbirlər görürdülər. III Vaçaqan kahinləri, cadugərləri, sehrbazları suda boğmuş, ölkədən qovmuş və ya köləyə çevirmişdi. Buna baxmayaraq VII əsrə qədər ölkədə bütpərəstliyin qalıqları mövcud idi.

Albaniyada dini qanunlar olmasına baxmayaraq, dövlətlə vətəndaşlar arasında və vətəndaşların öz aralarında münasibətləri tənzimləyən mülki hüquqi sənəd uzun zaman olmamışdır. Cəmiyyətdə olan bu boşluğu doldurmaq üçün çar III Vaçaqanın əmri ilə qanunlar toplusu hazırlanmağa başlandı.

Azərbaycanın digər əraziləri kimi, Albaniyada da quldarlıq quruluşu olmamışdır. Bundan başqa, feodalizm cəmiyyətlərinə xas təhkimçilik asılılığı da Azərbaycan üçün xarakterik deyildir. Torpaq üzərində ali hökm hüququ istər İslamdan qabaq, istərsə də İslamdan sonra dövlətə məxsus idi. Dövlət mülkiyyəti üstün olduğundan heç bir böyük torpaq sahibi dövlət ilə rəqabət aparmaq gücünə malik deyildi. Digər ölkələrdən fərqli olaraq Azərbaycanda kəndlilər feodalın tam və hüquqsuz malına çevrilmirdi. Torpaq ilk zamanlarda yalnız keçici olaraq verilirdi. Kəndli isə sahibkara yalnız ödənc verir, onun qarşısında bəzi mükəlləfiyyətlər daşıyırdı. Burada feodal torpağa deyil, at və qılınca bağlı olan dövlət qulluqçusu idi. Ona görə də bu şəxslər özləri təsərrüfat işlərinə ümumiyyətlə qarışmırdılar. Onlar kəndlilərdən məhsul və pulla vergi almağı üstün tuturdular. Çünki onlara birbaşa torpaq üzərində sahiblik hüququ deyil, bu torpaqda oturub onu becərən kəndlidən vergi almaq hüququ verilirdi. Onlar kəndlini istismar edə bilir, lakin onu tam hüquqsuz bir qul kimi alıb-sata bilmir, kəndlinin ailə üzvləri ilə, Avropada olduğu kimi, istədiyi kimi rəftar edə bilmirdi. Lakin ilkin orta əsrlər dövründə get-gedə torpağın bir qismi dövlətin əlindən kübar ailələrin, dövlət qulluq adamlarının əlinə keçməyə başlamışdı. Albaniyada böyük torpaq sahibləri patriklər, kiçik torpaq sahibləri isə azatlar adlanırdı. Albaniyada ilk orta əsrlərdə torpaq mülkiyyətinin "dastakert" və "xostak" formaları mövcud olmuşdur. "Dastakert"in sahibləri pad-

şah və əsilzadələr, azatlar, "xostak"ın sahibləri isə xırda hərbi əyanlar, dövlət məmurları, kilsə xadimləri olurdu. Bundan başqa, yerdimanlara, yəni ayrı-ayrı ailələrə məxsus torpaq sahələri – aqaraq da var idi.

Albaniyada bu zaman kilsə dövlətdən ayrı fəaliyyət göstərmədiyindən bu qanundakı bir sıra maddələr əhali ilə kilsə arasında münasibətləri tənzimləyir.

Musa Kalanqatlının "Alban tarixi" kitabının K.Patkanov tərəfindən tərcüməsində Aquen qanunlarının 19 maddədən ibarət olduğu göstərilir. Lakin yeni təcrümədə düzgün olaraq qanunun 21 maddədən ibarət olduğu bildirilir. Bunlardan əsasən aşağıdakıları qeyd etmək olar:

- Xalqdan keşiş üçün aşağıdakı pay düşür: hər il 4 ölçü buğda, 6 ölçü arpa və 16 dolça üzüm şirəsi. (M.Z.- təxminən 93 kq buğda, 138 kq arpa və 16 bardaq üzüm şirəsi) Kasıblar qoy taxılın yarısını və bacardıqları qədər çaxır versinlər. Ancaq kimin əkin və ya üzümlüyü yoxdursa, ondan heç nə almasınlar. Bu göstərilənlərdən artıq verənlər öz ruhu qarşısında xeyirxahlıq edir. Pavel demişkən: "Kim səpində əliaçıqlıq edirsə, biçini də bol olur". Kimin qoyunları var, bir qoyun, üç əlçim yun və bir kərpic pendir versin, kimin atı varsa-bir dayça, kimin malı varsa-bir buzov versin.
- Hər bir azat, kəndli (şinakan) və ya hər hansı dinə inanan şəxs il boyu bir dəfə ehsan verməli, yəni bacardığı kimi ölən adamını yad etməlidir ki, onu öz zəhmətinin bəhrəsindən məhrum etməsin. Onun (ölənin) atları var idisə, ruhu şad olsun deyə kilsəyə bir atı bağışlansın, mal-qarası var idisə, bir cöngə bağışlansın.
- Monastırda olan keşiş və ya şagird nəfsini boğmayıb bir şey aparmış olsa və bunun üstü açılarsa, biabırçılıqla buradan qovulmalı, oğlu (xostak) kilsə işləri üçün götürülməlidir.
- Əgər bir kilsənin keşişləri çox, icması isə kiçikdirsə, başqa bir kilsənin isə adamı çox, keşişləri azdırsa, çox olan yerdən adamları götürüb keşişləri çox olan yerə köçürmək lazımdır.
- Xaçpərəst adam dava-dalaş salarsa və ya qan tökərsə, yepiskop qarşısına gətirilməli və qanun ilə cəzalandırılmalıdır.

- Böyük bir kəndə baxan keşiş başqalarına göz dikməməlidir. İki kənd bir-birinə yaxındırsa, qoy onların bir ruhanisi olsun. Qoy ruhani, rəhbər ola biləcəyi icmaya başçılıq etsin.
- Heç kəs qohumu ilə, qardaşı arvadı ilə evlənə bilməz.
- Bir səbəb olmadan arvadını atıb gedən və başqa qadınla nikahsız evlənən ər yaramaz və qatildir.
- bütlərə sitayiş edən kimsəni əl-ayağı bağlı halda hökumdarın qarşısına gətirməli və acı ölüm cəzası verməli.
- Əgər kənddə yaşayanlardan biri ruhanilərin günahını üzə çıxararsa və onlar da bunu boyunlarına alarsa, qoy yepiskop onları mühakimə edib peşimançılıq çəkmək üçün səhraya qovsun. Yox, onlar həqiqəti boyunlarına almasalar və başqalarının dedikləri düz çıxıb sübuta yetərsə, qoy onlara dini qanunlar ilə cəza verilsin və kənddən qovulsunlar. Əgər günah düz çıxmayıb açılmamışdırsa, qoy ruhaniyə nahar xeyratı keçirmək buyurulsun.
- Kilsə üçün onda bir ödənc verən azatlar qoy yarısını bu kilsəyə, başqa yarısını isə öz kilsəsinə versinlər.
- Bazar günü qoy ağa da, qul da Baş kilsəyə getsinlər və ölənlər üçün yadetmə mərasimi keçirsinlər, yadellilər ruhlarının sakitliyi üçün kilsəyə pul ödəməlidirlər.
- Azatlar öz malikanələrində dini xidmət üçün yepiskopun razılığı olmadan keşişi tutmasınlar və ya xidmətdən qovmasınlar. Keşişlər isə, zadəganlar və ya xalq onları istəməzsə, yepiskopun icazəsi olmadan xidmətdən çıxıb getməsinlər.
- Əgər zadəgan öz kilsəsində xaç taxtı qoymaq istəyirsə, yaxud müqəddəslərin cəsədini saxlamaq, yaxud qurban vermək istəyirsə, bunu yepiskopun icazəsi ilə etməli, imkanlarını nəzərə almalıdır. Kim bu işi icazə ilə edərsə, qoy ona mərhəmət olsun, kim bu işi belə etməmişsə, qoy kilsədən uzaqlaşsın və sonra da yepiskopa imkan içində cərimə ödəsin. Onun nə qədər cərimə ödəməsindən asılı olaraq din qanunları ilə qoy onun günahı bağışlansın.

Aquen qanunlarında müxtəlif dini terminlər işlədilməsinə baxmayaraq, bu sənədi mülki qanunlar külliyyatına aid etmək olar. Ayrı-ayrı maddələrlə yaxından tanışlıq sübut edir ki, Albaniyada

Aquen qanunları qəbul edilməmişdən əvvəl də, sonra da mülki qanunlarla yanaşı, dini qanunlar da işlədilmişdir.

Qanunda müasir dövrə xas olan yerli və mərkəzi vergi anlayışlarına da rast gəlmək olur. Məsələn, 18-ci maddədə qeyd olunan "Kilsə üçün onda bir ödənc verən azatlar, qoy yarısını bu kilsəyə, başqa yarısını isə öz kilsəsinə versinlər" fikri bu qəbildəndir. Qanun ilkin feodalizm cəmiyyətinə aid olmasına baxmayaraq, təəccüblü də olsa, burada tətbiq olunan vergi sistemində ədalət prinsipləri qorunur.

Qanunda oğurluğa qarşı prinsipial mövqe, barışmazlıq özünü göstərir. Kimliyindən asılı olmayaraq oğurluq edən şəxsə qarşı cəza nəzərdə tutulmuşdur. Məsələn, 6-cı maddədə qeyd olunmuş "Monastırda olan keşiş və ya şagird nəfsini boğmayıb bir şey aparmış olsa və bunun üstü açılarsa, biabırçılıqla buradan qovmalı, oğlu (xostak) kilsə işləri üçün götürülməlidir" fikri göstərir ki, oğru hətta dini rəhbər olduqda belə ona güzəşt edilmirdi.

Aquen qanunlarında xristianlıqdan əvvəlki dini görüşlərə qarşı, xüsusilə də bütpərəstliyə qarşı kəskin mövqe nümayiş etdirilir. Bu da o zaman müasir sivil dövlətlərdə cəmiyyət üzvləri arasında təbliğ olunan tolerantlığın, yəni dini dözümlülüyün olmadığını göstərir.

- Aquen qanunlarının olması təsdiq edir ki, Alban dövləti hüquqi dövlət olmuşdur. Bu zaman mövcud olan dövlətlərin bir çoxunda hərc-mərclik, qanunsuzluq hökm sürür, onlar qanunlarla deyil, hökümdarın iradəsi ilə idarə olunurdusa, Albaniyada vəziyyət tamam başqa cür idi. Albaniyada bütün məsələlər qanunla tənzimlənirdi ki, bu qanunların bəzi maddələri hətta müasir dövrdə də öz aktuallığını itirməmişdir. Məsələn, "Heç kəs qohumu ilə, qardaşı arvadı ilə evlənə bilməz" və ya "Bir səbəb olmadan arvadını atıb gedən və başqa qadınla nikahsız evlənən ər yaramaz və qatildir" və s. bu kimi maddələr bu qəbildədir. Müasir dövrdə V əsrə aid olan və cəmiyyətin əxlaqi cəhətdən saflaşmasına xidmət edən bu cür maddələrə bir çox insanların əməl etməməsi onların hələ də aktual olduğunu göstərir. Fikrimizcə, müasir dövrdə Aquen qanunları kimi hüquqi sənədlərin dərindən öyrənilib təbliğ olunması həm qanunvericiliyin təkmilləşdirilməsinə, həm də hüquqi dövlət quruculuğuna müsbət təsir göstərə bilər. [9; 10]

***Çingiz xanın Yasası (Qanunu)***

Bu sənəd əvvəl 1206-cı ildə Çingiz xanın bütün çöllərin xanı seçildiyi böyük qurultayda elan olunmuşdur. Bundan sonra qanuna 1218-ci ildə Xarazəmşahlarla müharibə ərəfəsi və 1225-ci ildə Tanqut çarlığını tutulması ərəfəsi əlavələr olunmuş və həmin sənəd genişləndirilmişdi. Nəticədə "Çingiz xanın Böyük yasası" adlı yeni qanun meydan çıxmışdı. Yasanın mətni saxlanılmamışdır. Lakin XIII əsrə aid ərəb, fars və digər müəlliflərin əsərlərində Yasanın ayrı-ayrı hissələri bizə gəlib çatmışdır.

Çingiz xanın özü uğurlarının səbəbini qanunlarda və onların gözlənməsində görürdü. "Çingiz xanın Yasası"nda deyilir: "Beş yüz il və min illər keçəcək, Xanlıq səltənətində gələcək nəsillərimiz biri digərini əvəzləyəcək, əgər onlar qanunlarımızı pozmasalar, yerinə yetirsələr, Mavi Səma da ağılla idarə etmək və şad yaşamaq üçün onlara kömək edəcək".

"Çingiz xanın Yasası" üç məqsədə xidmət edirdi:

– hamını Çingiz xana tabe etməyə:

– köçəri qəbilələri birləşdirməyə;

– əmələ görə cəzanın labüdlüyünə, yəni ədalət prinsipinin təmin olunmasına. [45]

Maraqlıdır ki, bu qanun, Roma hüququndan fərqli olaraq, mülkiyyətə deyil, insana yönəlmişdi. Yeri gəlmişkən, bu qanuna görə hər hansı insan öz təqsirini etiraf etməsəydi və yaxud da cinayət yerində yaxalanmasaydı, təqsirli sayılmazdı

***Yasanın müxtəlif mənbələrdə yazılmış maddələri aşağıdakılardır*:**

1. Kainatın yaradıcısı tək Tanrıdır, bu Tanrıya ibadət ediləcəkdir
2. Çingiz xanın kişi nəslindən olmayan heç kim özünü "Xan" elan edə bilməz. Çingiz xanın kişi nəsilindən gələnlər isə yalnız Qurultayın qərarı ilə "Xan" ola bilər.
3. Düşmən təslim olmadıqdan sonra onlarla heç bir sülh müqaviləsi imzalana bilməz.
4. Kim olduğu və evli olub-olmamasından asılı olmayaraq zina edən kəs edam ediləcək.

5. Qəsdən yalan danışan, cadugərlik edən və başqalarına qarşı məlumat verən və ya döyüşənlər arasında tərəf tutaraq bir-birinə kömək edənlər edam edilir.
6. Suyu çirkləndirən və suya sidik ifraz edənlər edam edilir.
7. Ardıcıl üç dəfə mal alıb verərkən iflas edənlər edam ediləcəklər.
8. Sahibinin icazəsi olmadan quluna yemək və içki verənlər edam edilir.
9. Monqollar və tatarlar öz millətlərindən kölə ala bilməzlər. Ağalarının razılığı olmadan başqasının köləsindən öz xidmətlərində istifadə edənlər – edam edilir.
10. Bir kölə və ya məhbus qaçmışsa və başqası onu tapıb qaytarmırsa, həmin şəxs edam ediləcəkdir.
11. Pulları mənimsəyən əmlak məmurları edam edilir. Dedi – qodu kiçik olsa, xanın qarşısına çıxarılacaqdır.
12. Zadəganların eyni səhvləri doqquz dəfə bağışlanır.
13. Göy gurultusu zamanı suya girib çimmək və paltar yumaq qadağandır. (Monqollar göy gurultusundan çox qorxurdu və onların göy gurultusu olanda suya girmək adəti var idi. Çingiz Xan bu adətin qarşısını almaq üçün bu qadağanı tətbiq etdi.)
14. Heyvan kəsilməzdən əvvəl ayaqları bağlanmalıdır. Qarnı da açılmalıdır. Heyvanın ürəyi ölənə qədər sıxılmalıdır.
15. Saray və ordu üçün qışdan sonra ərzaq əldə etmək üçün martdan may ayınadək ceyran və bənzər ov heyvanlarını ovlamaq olar.
16. Heyvanların qanı və bağırsaqları yeməlidir.
17. Müharibə zamanı və ya geri çəkilən zaman bir nəfər silahından birini yerə salıb itirərsə, arxasındakı kişi atından düşməli və yerə düşmüş əşyaları götürüb sahibinə verməlidir. Atından düşməyən və əmlakı sahibinə qaytarmayan hər kəs edam edilməlidir.
18. Çingiz Xan, Allahın Quranını oxuyanların, fəqihlərin, həkimlərin, alimlərin, ibadət və itaətə özlərini verənlərin, müəzzinlərin və ölüləri yuyanların vergilər ödəməyəcəkləri və işləmək məcburiyyətində olmayacaqlarına qərar verdi.
19. Bütün dinlərə sayqı göstəriləcəkdir. Onların arasında heç bir fərq olmayacaqdır. Çingiz Xan bütün bu əmrləri Allaha inanmaq üçün verir.

20. Çingiz Xan xalqına əmrlər verdi; kim başqasına yemək versə, yeməyi verən əvvəl özü dadına baxmalı, onu yeməyi paylaşmağa dəvət etməlidir. Dəvət edilmədən başqa bir adamla heç bir yemək yeyilməyəcəkdir. İnsan başqalarından çox yeməyəcək. Çingiz Xan yeməklərin bişirildiyi yerə və insanların yediyi qazana əl basmağı qadağan etdi.
21. Bir yolçu, səyyah yemək yeyənlərin yanından keçərsə, digərləri onu yeməyə dəvət etməlidir. Yolçunun yemək yeməsinə mane olunmamalıdır.
22. Çingiz Xan xalqına əllərini suya soxmağı qadağan etdi. Su almaq üçün qablardan istifadə etmələrini əmr etdi.
23. Çingiz Xan paltarları çox çirklənmədən əvvəl yuyulmasını qadağan etdi.
24. Çingiz Xan pis və əxlaqsız nitqi qadağan etdi. Hər şeyin əxlaqlı olmasını əmr etdi.
25. Çingiz Xan əmr etdi, heç bir məzhəbə imtiyaz, üstünlük verilməyəcək. Sözlər təmtəraqlı deyilməyəcək. Fəxri adların istifadəsi qadağandır. Əgər sultan və ya kimlə danışılırsa, yalnız onun adı çəkilməlidir.
26. Müharibəyə gedərkən əsgərlərin avadanlığı əvvəlcədən yoxlanılmalıdır. Əsgərlərin səfərə çıxması üçün nə ehtiyacı varsa, iynədən ipə qədər hər şey nəzərdən keçirilməlidir. Bir əsgər əsas ehtiyaclarından birini özü ilə gətirməyibsə, o əsgər cəzalandırılmalıdır.
27. O, hərbiçiləri müşayət edən qadınlara əsgərlər döyüşlə məşğul olduqlarına görə onların bütün işlərini görmələrini əmr etdi.
28. Çingiz Xan müharibədən qayıtdıqda, əsgərlərinə Xanın xidmətində bir az iş görmələrini əmr etdi.
29. Müharibəyə getməyənlər bütün ictimai işlərdə iştirak etməlidirlər. Bundan əlavə, həftədə bir dəfə Xanın xidmətində işləyirlər.
30. Oğurladıqları əşyalar dəyərlidirsə, oğrular edam edilir, lakin əşyalar dəyərli deyilsə, yeddi və ya yeddi yüz çubuq vurulur. Oğurlanan əmlakdan doqquz dəfə çox mal verənlər cəzadan azad olacaqlar.

31. Kişi birinci və ikinci dərəcəli qohumlarından olmamaq şərtilə arvad ala bilər. Hər kəs idarə edə biləcəyi qədər qadın və xadimə ala bilər.
32. Çingiz Xan, özünə və övladlarına bir həyat yoldaşı seçmək üçün hər ilin əvvəlində əhaliyə bütün qızlarını xanın hüzuruna gətirmələrini əmr etdi.
33. Çingiz Xan əmr etdi ki, Noyanlar hərbi hissələrə başçılıq etsinlər. Qoşunlar yüz, min, on min nəfərlik hissələr halında olacaq. Silahların saxlanmasına məsul olan zabit silahlarını əsgərlərə öz əli ilə təhvil verməlidir. Əsgərlər döyüşdən başqa qışda heyvan ovlamaq üçün silahlarını götürə bilərlər.
34. Əmirlərin ən yaşlısı belə cinayət edərsə, hökümdar onu cəzalandırmaq üçün ən aşağı bir məmur göndərir. Cinayət etmiş şəxs, onu cəzanlandıran məmur ən aşağı səviyyədə olsa da özünü ona təslim etməli, cəza qarnının yarılması olsa da belə cəzanı yerinə yetirənə qədər ona tabe olmalıdır.
35. Çingiz Xan, ölkədə nə baş verdiyini bilmək üçün daimi bir poçt təsis etməyi əmr etdi.
36. Poçt yerlərini icazəsiz dəyişdirən şəxslər də edam edilir.
37. Çingiz Xan oğlu Çağataya qanunların icrasına nəzarət etməyi əmr etdi.
38. Çingiz Xan səhlənkarlığa yol verənlərin cəzalandırılmasını əmr etdi. Ov zamanı ovun qaçmasına səbəb olanlar çubuqla döyülməklə cəzalandırılmalıdır. Cinayət ağırdırsa, edam edilməlidir.
39. Adam öldürmənin cəzası edamdır; ancaq ödənc verilsə özünü xilas edə bilər. Bu məbləğ Hz. Məhəmmədə inananlar üçün 40 qızıl sikkə (Balış), Çinlilər üçün eşşəkdir.
40. Bir şəxsin əmlakında oğurlanmış at aşkar edilərsə, şəxs eyni cinsdən doqquz at əlavə edib sahibinə qaytarmalıdır. Şəxs bu cəriməni ödəməsə, əvəzinə övladları alınacaq. Əgər insanın övladı yoxdursa, qoyun kimi kəsilə bilər.
41. Çingiz Xan əmr edir; Yeməkdən boğulan şəxs dərhal düşərgədən çıxarılmalı və dərhal öldürülməlidir. Ayağını ordu komandirinin çadırının astanasına qoyan hər kəs edam edilməlidir.

42. Qanun bu qaydaları əmr edir; hamı bir-birini sevəcək. Zina edilməyəcək. Oğurlamayacaq. Heç bir yalan danışmayacaq. Xəyanət olmayacaq. Yaşlı və zəif insanlara hörmət ediləcəkdir. Bu əmrlərə qarşı çıxanlar edam ediləcəklər.
43. Bir şəxs içkini dayandıra bilmirsə, ayda üç dəfə sərxoş ola bilər. Üç dəfədən çox sərxoş olarsa günahkardır. Ayda iki dəfə sərxoş olarsa yaxşıdır. Bir dəfə baş verərsə, daha yaxşıdır. Heç içməsə, bundan yaxşı nə ola bilər? Bəs belə bir insan harada var? Belə bir insan varsa, ən yüksək hörmətə layiqdir.
44. Bir cariyədən doğulan uşaqlar qanuni sayılacaq və miras paylarını ataları tərəfindən paylanmağa uyğun bir şəkildə alacaqlar. Mülkiyyət paylanarkən, böyük uşaq, kiçikdən daha böyük bir pay alır. Kiçik oğula ata evini miras qalır. Uşaqların böyükləri analarının nizamından asılıdır. Həyat yoldaşlarından biri həmişə böyük olmalıdır. Bu, ilk növbədə evlənmə tarixi ilə müəyyən edilir.
45. Atası vəfat etdikdən sonra oğul öz anasından başqa atasının bütün arvadlarını sərəncamında saxlaya bilər. Onlarla evlənə bilər və ya başqalarına ərə verə bilər.
46. Varis istisna olmaqla ölən şəxsin əşyalarından istifadə qəti qadağan olunur.
47. Dini rəhbərlər bütün mükəlləfiyyətlərdən azad olunur.
48. Xanların, əyanların və digər hörmətli insanların ümumi yığıncağında qabaqcadan seçilməyən şəxsin imperator elan edilməsi qadağandır.
49. Monqol-tatarlardan asılı olan xalqların və tayfaların başçılarına fəxri titullar daşımaq qadağan olunur.
50. İmperiyanın zabit və rəislərinin üstünlükləri və onlara verilən güzəştlərin siyahısı.
51. Çingiz Xanın qanunları yalan danışmağı, oğurlamağı, zina etməyi qadağan edir. Və birinə qonşusunu özü qədər sevməyi əmr edir. İnsanlara bir-birlərinə xəsarət yetirməmələrini əmr edir. Onlara intiqam almağı deyil, hücumları unutmağı əmr edir. Könüllü olaraq təslim olan ölkələrin və şəhərlərin bağış-

lanmasını və tanrıya həsr olunmuş məbədlərin vergidən azad edilməsini əmr edi. Bu əmrlərə tabe olmayan kimsə edam ediləcək. [ 27, s.117-120; 31; 32; 33; 34, 38 ]

Çingiz xanın vəsiyyəti sayılan "Yasa"nı rəhbər tutan onun oğulları, nəvələri və sonrakı törəmələri əsrlərlə hakimiyyət başında oldular. Sonrakı fatehlər – Teymurləng və onun nəslindən olan, Hindistanı tutaraq Böyük Moğollar səltənətinin əsasını qoyan Zahiəddin Məhəmməd Babur da bu "Yasa"nı rəhbər tutaraq yaşadı və imperiyasını idarə etdi. Babur deyirdi: "Mənim əcdadlarım və ailəm Çingiz xanın qanunlarına həmişə dərin hörmətlə, pərəstişlə yanaşıb. Öz əhatəmizdə, sarayda, bayram şənliklərində, əyləncələrdə yatdığımız və durduğumuz anlarda belə, Çingiz xanın qanunlarının ziddinə davranmamışıq".

Beləliklə, tarix də, gündəlik həyat da sübut edir ki, qanunun aliliyi xalqın formalaşmasının, ayrıseçkiliyə yol verilməməsinin, insanın hüquq və azadlıqlarının qorunması üçün ictimai həyatın əmin-amanlığının və deməli, cəmiyyətin irəliyə doğru inkişafının zəruri şərtlərindəndir. [45]

## *Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin tam mətni:*

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respub-

likası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək, bəyan edirlər:

- Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.
- Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.
- Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.
- Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.
- Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.
- Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə

Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

• Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

• Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

• Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

• Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

• Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

• Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

• Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

• Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

• Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

• Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

• Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı in-

kişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

- Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.
- Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.
- Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.
- Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.
- Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin

kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

- Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.
- Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.
- Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.
- Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.
- Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

• Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

• Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

• Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

• Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

• Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

• Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

• Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bəyannaməni imzalayıblar:

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan [ 48 ]

## *İsifadə edilmiş ədəbiyyat*


**Azərbaycan dilində**

1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Azərbaycan nəşriyyatı, Bakı, 1996. 869 s.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1998, 488 s.; 2.1Heydər Əliyev. Müdrik fikirlər. Bakı, 2008, 327 s.
3. Əmir Teymurun vəsiyyətləri. Qanun nəşriyyatı. Bakı, 2018, s.152
4. Fərzəlibəyli Şahin Fazil. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, "Elnur-P"-2003. 118 səh.
5. Şükürov K. Azərbaycan tarixini dəyişən 13 hadisə lent.az
6. Zülfüqarlı M.P. Rusiyanın Qaqarin səhvi. 525-ci qəzet, 15 iyul 2008
7. Zülfüqarlı M.P. "Azıx mağarasına aid erməni saxtakarlığı" "KarabakhİNFO.com" 27 iyun 2014
8. Zülfüqarlı M.P. "Azıx mağarasında baş verənlərə tarixi bir baxış". "Dünyaya Qarabağ Harayı" jurnalı 2007 № 4, s.18.
9. Zülfüqarlı M.P. Qafqaz Albaniyasının hüquq sistemində Aquen qanunları. "Qanun" jurnalı № 4, 2004, s. 36-40.
10. Zülfüqarlı M.P. Aquen qanunları. "525-ci qəzet" 03 iyun 2004
11. Zülfüqarlı M.P. Azərbaycan diplomatiyasının Avropaya vasitəçiliyi. "525-ci qəzet" 08 aprel 2004. Azərbaycanın imperiyalara vasitəçiliyi. "Salam" qəz. 2 aprel 2004
12. Zülfüqarlı M.P. Salyan hakimi Qəbuli xanım. "525-ci qəzet" 14 noyabr 2007
13. Zülfüqarlı M.P Unudulmuş qəhrəmanlar. Abbas Mirzə. "525-ci qəzet" 05 iyun 2007-ci il.
14. Zülfüqarlı M.P. Ermənilərin Azərbaycana köçürülməsi siyasətinin müəllifi. "Qarabağ dünən, bu gün və sabah" mövzusunda keçirilmiş 4-cü elmi-praktik konfransın materialları. Bakı 2005;
15. Zülfüqarlı M.P "Rus diplomatı A. Qirboyedovun cinayətləri və cəzası"."Ədalət" qəzeti 08 aprel 2005-ci il.
16. Zülfüqarlı M.P. Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918). Bakı, ISBN 2017, 109 s.
17. Zülfüqarlı M.P. Azərbaycanın XIII-XIV əsrlər tarixinə yeni baxış. Bakı 2019, 84 s.
18. Zülfüqarlı M.P. Topxanada 16 il əvvəl nə baş vermişdi? "Ədalət" qəzeti 04.11. 2004; M.P. Topxanada nə baş vermişdi? "Dünyaya Qarabağ Harayı" jurnalı 2007, № 5, s.14-16

19. Zülfüqarlı M.P. Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi – DƏSRLİK. Bakı “MEKAN SERVES NN” 2017, 486 s.
20. Zülfüqarlı M.P. “Erməni mərkəzlərin Sumqayıt təxribatı (Tarixşünaslığın təhlili)” GEO STRATEGİYA jurnalı 2013-cu il № 1;
21. Zülfüqarlı M.P. Sovet arxivlərində məxvi qrif altında saxlanılan sənədlər-Sumqayıt üsyanı (7 noyabr 1963-cü il). GEO STRATEGİYA jurnalı noyabr-dekabr 2016 № 06(36) s.16-19
22. Azərbaycan” qəz. Bakı ( azərb. dilində)
23. “Elm və həyat” jur. Bakı (azərb dilində)
24. “Tarix” qəz., Bakı (azərb. dilində)

**Türk dilində**

25. Murat Ertan. Tarihi Anekdotlar. Ankara 2018, s.272
26. Murat Ertan. Taruhi Öykülər, Fark yayınları, Ankara, 2018, s. 272
27. Mete Kahraman Dünya tarhinden ilginç hikaye və anektodlar. Ayrıntı Matbası. Ankara, 2015, s. 31
28. NUTUK Mustafa Kamal Atatürk. Ankara 2016, 622 s.
29. 100 təməl əsər NUTUK Mustafa Kamal Atatürk. Ankara 2020, 151 s.
30. Deniz Kuvvetleri Komutanlığı • Çanakkale Deniz Savaşı (dzkk.tsk.tr)

**Rus dilində**

31. ГУМИЛЕВ Л.Н. Древняя Русь и Великая степь. М. 1992, с. 302.
32. ВЕРНАДСКИЙ Г. В. О составе Великой Ясы Чингисхана. Брюссель. 1939, с. 6, 7;
33. ВЕРНАДСКИЙ Г.В. История России. Монголы и Русь. Пер. с англ. Е. П. Беренштейна, Б.Л. Губмана, О.В. Строгановой. Тверь. 1997, с. 38.
34. МУХАМЕТОВ Ф. Ф. Звезды на степном небосклоне. Троицк. 1998, с. 42.
35. Исмаилов Э.Р. Очерки истории Росии советского периода. Баку-2008,с.250

**İnternet resusrsları**

36. https://ru.citaty.net/tsitaty-ob-istorii/; http://mudroslov.com
37. Десятка людей, изменивших ход истории и сознание человечества на протяжении последнего тысячелетия / Миллениум / Независимая газета (ng.ru) 30.12.2000
38. https://mse.msu.ru/history/18/book/text-18-03.pdf

39. https://www.youtube.com/ Ş. Hüseynov: Atatürkün Rəsulzadə haqda dedikləri.21 fevral 2015
40. https://modern.az/ 23 avqust 2012, Elçibəyin vəsiyyəti – TAM MƏTN – Ankara Dövlət Xəstəxanası 19.07.2000
41. https://president.az/ 05 mart 2021
42. https://mod.gov.az/ 01 dekabr 2020
43. http://atv.az/news
44. "Kommunist qəzeti"26 oktyabr1956
45. https://azpolitika.info/?p=198397"Çingiz Xan – tarixin müəmması" - İlyas İsmayılov yazır | AzPolitika — onlayn siyasi-ictimai qəzet
46. https://www.cbar.az/ Azərbaycan Respublikasının Mərkəzi Bankı - Milli pul nişanlarının tarixi (cbar.az)
47. https://kriptoinvest.az/
48. https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/



Çapa imzalanıb: 02.08.2023.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 7 ç.v. Tiraj: 100. Sifariş № 165.

MÜTƏRCİM
1993

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az